AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
FOLKLOR İNSTİTUTU

AĞAVERDİ XƏLİL

# FOLKLOR VƏ DÖVLƏTÇİLİK

BAKI – 2014

**Kitab böyük dövlət xadimi, Azərbaycan xalqının Ulu Öndəri Heydər Əliyevin parlaq xatirəsinə həsr olunur.**

**Redaktoru: Sərxan XAVƏRİ**

**Ağaverdi Xəlil. Folklor və dövlətçilik.** Bakı, Elm və təhsil, 2014, 84 səh.

Kitabda orta əsrlər dövrünə aid yazılı abidələrdə əks olunmuş dövlətçilik düşüncəsinin mənəvi əsaslarının əks olunduğu folklor qaynaqları araşdırılmışdır. Bunun üçün "Orxon-Yenisey abidələri", "Kitabi divani lüğət-it türk", "Kutadqu bilik", "Cami ət təvarix", "Siyasətnamə", "Əxlaqi-nasiri", "Kitabi Dədə Qorqud" və başqa yazılı qaynaqlardakı ənənəvi mədəniyyət elementləri, folklor motivləri seçilmiş və dövlətçilik dəyərləri baxımından təhlilə cəlb edilmişdir. Folklor və dövlətçilik əlaqələrinin müasir dövrü ümummilli lider Heydər Əliyevin müstəqil dövlət quruculuğu sahəsindəki fəaliyyətinin nümunəsində təqdim edilmişdir. Tədqiqatdan humanitar elm sahəsinin mütəxəssisləri, alimlər, müəllimlər və universitet tələbələri faydalana bilərlər.

folklorinstitutu.com

X 4603000000 Qrifli nəşr
N-098-2014

© Folklor İnstitutu, 2014

# ORTA ÇAĞ TÜRK YAZILI ABİDƏLƏRİNDƏ FOLKLOR VƏ DÖVLƏTÇİLİK

Türk dövlətçiliyinin tarixi çox qədim zamanlardan başlanır. Dövlətçilik ənənəsi qədim olduğundan xalq yaradıcılığında, xalq düşüncə və davranışında, ictimai-siyasi əxlaqda sabit mənəvi dəyərlər yaranmış, müxtəlif folklor janrlarında ifadə olunmuşdur. Folklor bir tərəfdən dövlətçiliyin mənəvi əsaslarını möhkəmləndirməyə xidmət etmiş, onu müxtəlif obraz, süjet və motivlərdə xalq yaddaşına köçürmüş, digər tərəfdən onun fəlsəfəsini və estetikasını hazırlamışdır. Dövlət gerçək olmazdan öncə o, xalqın arzu və istəklərində, düşüncə və xəyallarında yaranır və uyğun tarixi şəraitdə geçəkləşir. İcma, ailə və tayfa mədəniyyətinin və bu mədəniyyəti xalq hafizəsində yaşadan folklorun dövlətçilikdə xüsusi rolu olur. Çünki etnik-milli özünütəşkilin ən nikbin yolu folklorda mövcud olan mənəvi dəyərlərdən keçir. Başqa sözlə, folklorunda dövlətçilik ideyası olan xalqın dövlət qurması da asanlıqla baş verir. Çünki folklor dövlətçiliyin mənəvi əsasıdır. Folklor irsini yaddaşında və davranışında yaşadan xalq dövlətçilik təcrübəsində sosial harmoniyanı təmin etmək üçün çətinlik çəkmir. Onu da qeyd edək ki, folklor ayrı-ayrı janrlarda gerçəkləşən mətnlər olmaqla yanaşı xalq düşüncəsinin və həyatının bütün sahələrini əhatə edən sabit mənəvi dəyərlər sistemidir. Milli folklor milli düşüncənin və davranışın təkcə təzahür forması deyil, həm də onun modelləşdirici sistemi, başqa sözlə, düşüncə və davranış tərzidir. Dövlətçilik də bu düşüncə və davranış çərçivəsində gerçəkləşir. “Xalqın dövlətçilik ənənəsi dedikdə onun dövləti idarəçilikdə iştirakı nəzərdə tutulur. Bu o deməkdir ki, dövlət başçısına hakimiyyəti xalq həvalə edir. Hakimiyyəti idarəçiliyə xəyanət etdikdə və ya bunu bacarmadıqda xalq həmin hökmdarı (iqtidarı) dəyişmək hüququna malikdir” (1,5).

Dövlətçilik tarixi-ictimai mədəniyyətin ən yüksək formasıdır. Bu mədəniyyətə sahib olmayan xalqlar milli varlıqlarını qoruya bilməmişlər. Bu mədəniyyətin və ənənənin qorunmasını isə folklor, yaddaş, xalqın mənəvi bütövlüyünü təşkil edən ehtiyatlar təmin edir. Bu mənada folklor və dövlətçilik bir-birinə sıx surətdə bağlı, üzvi vəhdət təşkil edən məsələlərdir. Əgər məsələyə geniş prizmadan baxılsa dövlətçilik də xalq yaradıcılığının bir forması götürülə bilər. Cəmiyyət dünyəvi qanunlara zaman-zaman uyğunlaşır, amma milli əxlaqa, milli ənənəyə və milli davranışa zidd olmayan qanunlar ictimai münasibətlərdə dərhal öz təsdiqini tapır. Bəzən "yazılmamış qanunlar" ifadəsi işlədilir. Bu əslində etnik ictimai davranış və milli əxlaq normasının müasir qanunlarda öz əksini tapmayan hissəsidir. Bu həm də ənənədə formalaşmış xalq demokratiyasının müasir hüquqdan və qanundan genişliyi və üstünlüyüdür.

Xalqımız milli müstəqil, hüquqi, demokratik dövlət quruculuğu prosesini yaşayır. Dövlətimizin və dövlətçiliyimizin möhkəmləndirilməsi üçün milli dövlətçilik ənənəmizin tarixinə və onun folklorda gerçəkləşən mənəvi məsələlərinin təsvirinə və təhlilinə də diqqət artırılmalıdır. Bizim araşdırmaya cəlb etdiyimiz qaynaqların hər biri məhz bu problem üzrə müstəqil bir tədqiqatın mövzusu ola bilər və olmalıdır. Gələcək tədqiqatlarda bu problemlərin daha geniş araşdırmalara cəlb edilməsi də nəzərdən qaçırılmamalıdır.

Tarixdən türklərin qurduğu böyük Hun imperatorluğu, Xəzər xaqanlığı, Göytürk imperatorluğu, Oğuz-Səlcuq imperatorluğu, Osmanlı imperatorluğu, Qaraxanlı dövləti, Bulqar dövləti, Uyğur dövləti və b. məlumdur. Türk xalqlarından biri kimi, biz bu dövlətlərin, onların yaratdığı zəngin dövlətçilik mədəniyyətinin varisləriyik. Bununla yanaşı Şirvanşahlar dövləti, Ağqoyunlu dövləti, Qaraqoyunlu dövləti, Səfəvi dövləti kimi Azərbaycan dövlətləri mövcud olub. Bunların hər birinin milli dövlətçilik tariximizdə xüsusi xidmətləri olub.

Azərbaycan ərazisində mövcud olmuş Manna dövləti (eramızdan əvvəl IX-VII əsrlər), Atropatena dövləti (eramızdan əvvəl IV əsr-eramızın II əsri) də bu ənənəyə öz töhfələrini verib. Paytaxtı Qəbələ olan Qafqaz Albaniyası dövləti eramızdan əvvəl IV əsrdə yaranıb. Onu da əlavə edim ki, Sovetlər Birliyi dönəmində SSRİ-nin strateji müdafiə sisteminə daxil olan mühüm obyektlərdən biri – Qəbələ RLS qədim Qəbələ şəhərinin yerində tikilməli imiş. O zaman bu obyektin yeri Heydər Əliyevin kəskin etirazı ilə dəyişdirilmiş, qədim Qəbələnin qalıqları tarixi-mədəni abidə kimi qorunmuşdur.

Tarixdən məlum olduğu kimi, Azərbaycanın dövlətçilik ənənələri çox zəngindir. Tədqiqatçıların mülahizəsinə görə, "bu ənənələr öz başlanğıcını dili və mədəniyyəti ilə türk xalqlarına yaxın olan şumerlərdən götürür. Məşhur şumerşünas S.N.Kramer "Tarix Şumerdən başlanır" əsərində (1991-ci il) yazmışdır: "Bəşəriyyətin ən qədim tarixində "parlament demokratiyası" ilə rastlaşırıq. Şumer dövlətini parlament idarə edirdi: 1.Atalar – ağsaqqallar – senat sayılırdı. 2. Şəhər ərləri, orduda qulluq edənlər – parlamentin aşağı palatası hesab olunur" (1,3). Mütərəqqi dövlətçilik ənənələri sonrakı dövrlərdə də davam və inkişaf etdirilmişdir. "Azərbaycan dövlət qurumunun təxminən üç minillik tarixi vardır. Orta əsrlərdə Azərbaycan dövlətçiliyi daha rəngarəng olmuş və dövlətçiliyə dair müəyyən qanunlar yazılmışdır" (1,5).

Cəmiyyət həmişə sosial rifah və ədalətli idarəçilik haqqında düşünmüşdür. Xalqın düşüncə və arzuları ədalətli hökmdar ideyasını doğurmuşdur. Hər şeyi rəhbərindən gözləyən xalq bir çox hallarda onu müqəddəsləşdirmiş və mütləqləşdirmişdir. Bu düşüncələr də folklorda ifadə olunmuş, xalq içində də, saraylarda da dövlətçiliyin mənəvi məlumat dəstəyi, onu kamilləşdirən əsas faktor kimi çıxış etmişdir. Xalqın sonsuz sevgisi olduğu kimi, nifrəti də kükrəyəndə hüdudsuz olur. Bu özünü hakimiyyətlə xalq, elita ilə kütlə arasındakı

sosial məsafənin çoxalıb maksimum səviyyəyə çatdığı məqamlarda daha çox təzahür etdirir. Dövlətçiliyin sarsılması da məhz bu zaman başlanır. İdarəçiliyi mükəmməl olmayan hökmdarlar xalq yaradıcılığında "zalım padşah" kateqoriyasına aid edilir. Məsələn, Sultan Səncər "zülümkar", Şah Abbas "cənnətməkan" epitetləri ilə yaddaşlarda qalıb.

Dövlətçilik mədəniyyətimizi əks etdirən folklor qarışıq yazılı abidələr və ya xalis folklor nümunələri digər istiqamətlər ilə yanaşı həm də bu yönümdə məhz dövlətçiliyimizin monolitliyi naminə öyrənilməlidir.

# ORXON-YENİSEY ABİDƏLƏRİNDƏ DÖVLƏTÇİLİK

Qədim dövlətçilik mədəniyyətimizin əks olunduğu yazılı abidələrdən biri türkologiyada "Orxon-Yenisey yazıları" adı ilə məşhur olan daş kitabələrdir.

"552- ci ildə Göytürk imperiyası yaradıldı. Bu imperiya o vaxtadək Orta Asiyada qurulmuş dövlətlərin ən böyüyü idi. Bugünki məlumatlarımıza görə, türk dilinə aid xatirələr də Göytürk imperiyası dövrünə aiddir. Bu xatirələri başlıca olaraq qəbirüstü kitabələr təşkil edir. Bunlar Orxon və Yenisey kitabələri olmaq üzrə iki qismə ayrılır. Orxon kitabələri VIII əsrin yadigarıdır. Yeniseydəkilərin isə daha əvvəl, qüvvətli ehtimala, VII əsrdə yazıldığı təxmin edilir. Oğuz adına da ilk dəfə elə Yenisey kitabələrinin birində rast gəlirik" (2, 27). "Orxon-Yenisey kitabələri üç kitabadan ibarətdir. Onlarda türk Çin müharibələri təsvir olunur. Kitabın biri Göytürk hökmdarının vəziri Bilgə Tonyukuk tərəfindən 720-ci ildə yazdırılmışdır. Tonyukuk burada türk qəbilələrinin tarixini xatirələr şəklində qələmə alır. Abidələrdə Göytürk dövlətini yenidən qurub möhkəmləndirən Kutlıq xanın övladlarından Gültəkin və Bilgə Kağana ithaf edilmişdir. Gültəkin kitabəsi 732-ci ildə, Bilgə Kağana aid hissə isə 735-ci ildə yazılmışdır" (19,23). Abidələrin məzmunu daha çox dövlətçilik məsələlərini əks etdirir. "Yolluq Təkin Göytürk tarixini xatirələri şəklində əbədiləşdirir. O, yeri gəldikcə atalar sözləri və məsəllərdən də istifadə edərək qısa və aydın cümlələr işlədir. Bilgə Kağanın dilindən deyilən sözlər isə çox sadə, həm də xalq ruhuna uyğundur. Kitabədə türk bəylərinə və xalqına müraciət hissəsində isə hadisə və lövhələr canlı və həyəcanlı bir tərzdə verilir, keçmiş qəmli, acı əhvalatlardan isə kədərli bir dil ilə danışılır. Türk qəbilələrinin cəsurluğu və igidliyi ilə yanaşı, onun geriliyinin səbəbləri də göstərilir" (19,24). Hə-

min dövr türk cəmiyyətinin ictimai səciyyəsi belə xarakterizə olunur: "Bu kitabələrdə irqi mahiyyəti və siyasi səciyyəsi nə olursa-olsun, bütün siyasi və qövmi təşəkküllər budun (xalq – A. X.) kəlməsi ilə ifadə edilir: türk budunu, tabqaç budunu, kıtay budunu, oğuz budunu, qırğız budunu. Köçəri budunlar bir çox boylardan meydana gəlmişdir. Boylar da hər halda obalara ayrılırdı" (2,29). Tədqiqatların da təsdiqlədiyi kimi, "Göytürklərin etik münasibətləri, adət ənənələri, dövlət quruluşu, mədəniyyəti və dini haqqında əsas məlumatı Çin mənbələrindən, qismən də Orxon-Yenisey abidələrindən almaq olar. Göytürk dövlətinin taxtında oturan şəxs kağan "xaqan", onun arvadı katun "xatun" adlanır. Dövlətin idarəsi iki qola bölünür: dövlətin qərb budağını idarə edən adam yabğu (ərəb mənbələrində: cəbğu), şərq budağını idarə edən adam şad adlanır. Xaqanın oğulları (şahzadələr) tigin adlanır, onların arvadlarına isə kunçuy deyirlər. Xaqandan sonra ən böyük rütbə xan sayılır. Görünür, xan müəyyən qəbilə birliklərinin rəhbəridir. Orxon-Yenisey abidələrində xanlar barədə az danışılsa da, bəylər haqqında çoxlu məlumat vardır. Görünür, bəy əvvəllər hərbi işlərlə əlaqədar əmələ gələn rütbə adı olmuşdur, lakin sonralar bəylərə əmlak (adam,torpaq, ilxı, mal-qara və s.) ayrılmış, bəylik imtiyazları vərəsəlik yolu ilə keçmişdir. Abidələrdə bəzən bəylərə xaqan adı verilməsi haqqında fikirlərə də təsadüf edilir: "Bars bəg erti, kağan at bunta biz birtimiz- Bars bəy idi, xaqan adı burada biz verdik" (KT ş 20) (3,27). Türk cəmiyyətində bəylik institutu uzun müddət yaşamışdır. Cəmiyyətin siyasi, mənəvi, dini rəhbərindən zadəganlıq institutuna qədər dəyişmişdir. "Orxon – Yenisey yazılarından aydın olur ki, döyüşkən, cəsarətli oğuzlar Göytürk xaqanlığının əsas tayfalarından biri olmuşlar. Bunu oğuzların başçılarının daşıdığı yabqu ünvanı da təsdiqləyir. Özlərini ilk türk cahan dövləti quran əfsanəvi Oğuz Ataya bağlayan bu tayfa VII-VIII əsrlərdə Tula çayı ətrafında yaşamış, IX-XII

əsrlərdə Sır-Dərya və onun şimal çöllərinə gəlib, mərkəzi Yenikənd olmaqla oğuz yabqu dövlətini qurmuşlar. İyirmi dörd sancaq bəyindən ibarət olan bu yabqu dövləti təqribən XII əsrin əvvəllərində dağılmış, sonra oğuzların bir hissəsi Səlcuqların (kınıq tayfasının) başçılığı altında Xorasana, Azərbaycana, Anadoluya yürüşlər etmişlər. Monqolların yürüşünə qədər oğuzların əksəriyyəti Səlcuq cahan dövləti tərkibində yaşamışlar. Məhz bu dövrlər və monqol yürüşlərindən sonrakı dövr oğuzların dastan dövrüdür" (4,3).

Tarixin epikləşməsi folklor dilinin bütün sferalarda aktiv işləndiyini göstərir. "Gültəkin kitabələrində real tarixi hadisələr əksini tapırsa, digər yazılarda isə bunu görmürük. Sonuncularda əfsanəvi-fantastik ruh qüvvətlidir. Tonyukuk kitabələrində bütün hadisələr personajların mükaliməsi əsasında qurulmuşdur. Burada Tonyukuk əhvalatları danışsa da, başqa surətlər öz sözü və səsi ilə seçilir" (19,24).

Göytürk dövlətində hakimiyyətin varislik məsələsi haqqında tədqiqatlarda məlumat verilir: "Türk adətinə görə, türk dövlətinin şərq budağını (hissəsini) idarə edən kiçik xan, yəni vəliəhd hesab edilirdi; xaqan öldükdən sonra məhz şərq budağını idarə edən kiçik xan xaqanlıq taxtına çıxırdı" (3,27). Türklərdə özünəməxsus seçki mədəniyyəti də mövcud olmuşdur: "Türklərdə xanı taxta çıxarmağın qəribə adəti vardı. Xan seçiləcək adam keçə üstündə oturdulurdu, ətrafında doqquz dairə vurub oynayırdılar. Sonra xanı ata mindiridilər. Bu vaxt bir nəfər qəfildən ipək parçanı onun boynuna atır və boğurmuş kimi sıxır, eyni zamanda ona sual verirdi: "Bizə neçə il xanlıq edə biləcəksən?" Xan boğula-boğula istənilən rəqəmi deyirdi" (3,27). Göy türklərdən bəhs edən mənbələrdə onların cəsur və igid olmaları, onlar üçün namusun ən müqəddəs şey sayılması bildirilir (3,28). Qədim türklərdə ölkə əhalisinin yaşayışının, sosial rifahın təmin olunmasının dövlət vəzifəsi olduğu qeyd olunur. "Tenri yarlıkadukın üçün, özüm kutum bar

üçün kağan olurtım. Kağan olurıp yok çığay bodunığ kop kobartdım, çığay bodunığ bay kıltım, az bodunığ üküş kıltım. Azu bu sabımda igid borğu türk bəglər, bodun, esidin: türk (bodunığ ti) rilip il tutsıkının bunta utrım, yanqılıp üləsiginin yəmə bunta urtım nənq nənq sabım ersər, bengü taşka urtım" (3,71). Tanrının iradəsi olduğu üçün, özümün bəxtim olduğu üçün xaqan oldum. Xaqan olub yoxsul, kasıb xalqı bütünlüklə topladım, yoxsul xalqı varlı etdim, az xalqı çox etdim. Məgər bu sözümdə şişirtmə var? Türk bəyləri, xalqı eşidin: türk xalqının dirçəlib el tutacağını burada həkk etdim, yanılıb parçalanacağını da burada həkk etdim. Nə qədər sözüm varsa, əbədi daşa həkk etdim (3,77-78). Burada hökmdarın xalqa münasibəti ifadə olunur. Türk hökmdarının xarakteri belədir: "Türk xalqının adı, şöhrəti yox olmasın deyə, atam xaqanı, anam xatunu yüksəltmiş Tanrı, türk xalqının adı, şöhrəti yox olmasın deyə, özümü Tanrı xaqan etdi (3,80). Abidədə qeyd olunur ki, mən xaqan olanda xalq ac, yoxsul və çılpaq idi. Mən xalqın çox kasıb bir vaxtında xaqan oldum. Ata-babalarımızın, xalqımızın şöhrətinin itməməsi naminə kiçik qardaşım Kültiginlə məsləhətləşib gecə-gündüz çalışdıq, xalqı ağır vəziyyətdən çıxardıq, yoxsul xalqı zənginləşdirdik, xalqın sayını çoxaltdıq və s. (3,80-81). Türk dövlət başçısının xalq naminə və xalq üçün gördüyü işlər indi də dövlətçilik mədəniyyəti üçün örnək ola bilər. Abidələrdə türk dövlətinin rəmzi olan bayrağa tuğ, dövlət tədbirlərində, rəsmi mərasimlərdə və hərbi yürüşlərdə bayrağı aparan şəxsə bayraqdar anlamına gələn tuğtutar deyildiyi də məlum olur.

"Orxon-Yenisey kitabələri türkdilli tayfaların (türk xalqlarının – A.X.) bədii zövqünü, dini-mifoloji görüşlərini, türk şeirinin gözəlliklərini və ideya-mövzu qaynaqlarını öyrənmək üçün zəngin mateial verdiyi" (19,24) kimi, türk dövlətçilik fikrinin və təcrübəsinin də ən mükəmməl nümunələrini özündə birləşdirir. Burada dövlətçilik dərin humanizm

ideyaları ilə zəngindir və milli ruhu yüksəldən emosional effektə malikdir.

Türk xalqlarının dövlətçilik ənənələrini və düşüncələrini araşdırmaqda folklorla sıx şəkildə bağlı olan qədim "Fal" kitabı (VII-IX əsrlər), Mahmud kaşqarlının "Divani lüğət-it türk" kitabı (1072-1074), Yusif Balasaqunlunun "Kutadqu bilik" poeması (1069), Nizamülmülkün "Siyasətnamə" (1076), Nizami Gəncəvinin əsərləri (XII əsr), Nəsrəddin Tusinin "Əxlaqi-nasiri" (1232-1233), Rəşidəddinin "Cami ət təvarix" (Oğuznamə) (XIV əsr), Əbubəkr Tehraninin "Kitabi- Diyarbəkriyyə" (1470-1471) əsəri və Şah İsmayıl Xətainin "Divan"ı daha çox səciyyəvidir.

# “DİVANİ LÜĞƏT-İT TÜRK” DƏ DÖVLƏTÇİLİK

Dövlətçilik ideyalarının, türkçülük ideologiyasının və qədim türk mədəniyyətinin şah əsəri olan Mahmud Kaşqarlının (1008-1095) “Divani lüğət-it türk” (1072-1074) kitabı tədqiqatçıların qeyd etdiyi kimi bütün digər ehtiyatları ilə yanaşı, həm də zəngin folklor antologiyasıdır (5,9). Abidəni epoxal bir mədəniyyət hadisəsi kimi dəyərləndirən Y.Qarayev yazır: “ilk islam-türk ədəbiyyat dil abidələri ilk klassik islam-türk yarandı-Qaraxanlılar vaxtı: “Qutadqu bilik” (1069), “Divani hikmət” (XI əsr), “Ətabətül həqaiq” (XII əsr). Həmin əsrlərdə, təxminən eyni vaxtda meydana çıxan “Divani lüğət-it-türk”ü (1072-1074) isə artıq yalnız növbəti dil və fikir kitabəsi hesab etmək mümkün deyil, yox: Mahmud Kaşqarlı (1008-1095) türk dilində kitab yazmayıb, türk dilinin kitabını yazıb: özü də Avropada ilk Qamus yaradanlardan (“ensiklopedistlərdən”), Şərqdə Şəmsəddin Samidən, Rusiyada akademik Daldan və Ojeqovdan neçə əsr əvvəl! Daha doğrusu, o ilk dəfədir ki, şeirdən, beytdən, sətirdən yox, mənadan, semantikadan məsnəvi və divan yaradıb” (6,3). Abidəni çox yüksək səviyyədə və özünəməxsus üslubda dəyərləndirən alimə görə, “məhz düşüncədə cisimləşən yaddaşın dildə sənədinə çevrilən mənşə, tarix və coğrafiya burada vahid bir bilgi bankını təşkil edir. Üstəlik, canlı, şifahi və obrazlı dil vahidləri, məsəllər, atalar sözləri ilə bu bilgi öz hüdudlarını adi semantika (lüğət) çərçivəsindən qat-qat geniş çərçivəyə çıxarır. Nəhayət, onun öz “Lüğəti”i ilə türkcəni öyrətmək, yaymaq niyyətini açıq, proqram bir şəkildə qarşıya qoyduğunu bir də o sübut edir ki, Kaşqarlı bu məqsədi öz arzusu şəklində yox, peyğəmbərin mesajı və vəsiyyəti səviyyəsində bir çağırış kimi irəli sürür: “Yalavacımız qiyamət bəlgələrini, axır zaman qarışıqlıqlarını və Oğuz türklərinin ortaya çıxacaqlarını söylədiyi sırada

"Türk dilini öyrəniniz, çünki onlar üçün uzun sürəcək bir hakimiyyət vardır" – deyə buyurmuşdur (7,4).

Kaşqarlının türk xalqına, onun dilinə, folkloruna və mədəniyyətinə göstərdiyi xidməti diqqətə çəkən alim qeyd edir ki, "Kaşqarlı öz türk dil təbliğatını israrla və inadla, axıra qədər davam etdirir: "Dərdini dinlədə bilmək və türklərin könlünü almaq üçün onların dilləri ilə danışmaqdan başqa yol yoxdur". Sonrakı hakim qələm və qılınc sahibi türklərdən-səlcuqlardan, həmişə "atalarımız" deyə müraciət etdiyi oğuzlardan, osmanlılardan, əfşarlardan, qacarlardan ...fərqli olaraq lüğətçi alim türklüyün hətta adını ilahilik səviyyəsinə yüksəldir, "türk" kultunu Atatürkdən əvvəlki ən yüksək səviyyəyə kaşqarlı çatdırır: "Uca Tanrı, mənim bir ordum vardır, ona "türk" adı verdim. Onları Şərqdə yerləşdirdim. Bir xalqa qəzəblənsəm, türkləri o xalqın üzərinə müsəllət qılaram" deyir. Bax bu, türklər üçün bütün insanlara qarşı bir üstünlükdür. Çünki Tanrı onlara ad verməyi öz üzərinə almışdır, onları yer üzünün ən yüksək yerində, havası ən təmiz ölkələrində yerləşdirmiş və onlara "Öz ordum" demişdir. Bununla bərabər, türklərdə gözəllik, sevimlilik, şirinlik, ədəb, böyüklərə hörmət, sözünü yerini yetirmək, sadəlik, öyünməmək, igidlik, mərdlik kimi öyülməyə dəyər, saysız yaxşı cəhətlər görünməkdədir. Necə ki, bu şeirdə də deyilir:

Qaçan görsə anı Türk,
Budun anqa aydaçı
Munqar təqir uluğluk,
Munda naru kəslinür.

"Haçan bir türk görsələr, bu adam üçün böyüklük və ululuq yaraşır və ululuq bunda qurtarır, söyləyəcəkdir" (7, c. 1. 350-352; 6, 5). Türkün şəninə Qurani-Kərimin, peyğəmbərin dilindən müqəddəs hədisi də məhz Kaşqarlı "Lüğət"də türkün şərəfinə yenidən səsləndirir, misal gətirir və incələyir (6, 5).

Divan təkcə dövlətçilik düşüncəsini və mədəniyyətini əks etdirməklə məhdudlanmır, eyni zamanda onun ideoloji əsaslarını təqdim edir. Dövlət quruculuğunun mənəvi təməli dil, folklor, din və ədəbiyyat məsələləri önə çəkilir. Kaşqarlının türk ölkəsini başdan-başa gəzərək folklor toplamasının özü dövlətçiliyə, onun mənəvi resurslarının möhkəmləndirilməsinə ən böyük xidmətdir.

"Divan"da insan və cəmiyyət münasibətləri kültür epoxaları baxımından çoxlaylıdır. Paremiyalarda daha çox yer alan sosial struktur beq-bodun modelidir. Bununla yanaşı boy (tayfa) və toy (camaat) kimi sosial strukturlar da müşahidə olunur. Bodun (xalq) boylardan, toylardan və soylardan ibarətdir. Məsələn, Oguz bodun (Oguz xalqı) 24 boydan (bunlardan 22-si göstərilib) ibarətdir. Paremiyalarda sosial vahidlərin ər, kişi, yalnquk, qul kimi ümumi anlayışları ilə yanaşı onun təşkil olundugu qruplar da əks olunur. Cəmiyyətin strukturunda statusal dərəcələnmə də müşahidə olunur. Guc strukturlarında ərən, alp ər, alp ərən statusal mahiyyət daşıyır. Bunlar hərb işində böyük qəhrəmanlıq göstərmiş insanlara aiddir. Oxşar status mənəvi sahədə də mövcuddur. Belə ki, cəmiyyətdə yüksək mənəvi dəyərlərin daşıyıcıları özündə böyük hörmət məzmunu ifadə edən bilgə ərən adlandırılır "(8). "Divan" üzərindəki araşdırmalarımızda da qeyd etdiyimiz kimi, "cəmiyyətin siyasi təşkil modeli "el"dir" (8). Müşahidələrdən aydın olur ki, bu söz iki anlamda işlənir: "El (dövlət). Savlarda dövlətə çox böyük əhəmiyyət verilməsini, onun ailədən üstün və daha aktual hadisə olmasını göstərən fikir ifadə olunur. "Xan ışı bolsa, qatun ışı qalır" (7,c.,I, 410) (Xan işi olsa, xanım işi qalar) deyimi bunu aydın şəkildə göstərir. Dövlət işi ailə işindən daha vacib hesab olunur. Törü isə dövlətdən də üstün hadisə sayılır. "El qalır, törü qalmas" (7,c.,III, 221) (Dövlət süqut edə bilər, törü dagılmaz) deyimində dövlətin süqut etmək məcburiyyətində qaldıgı zamanda da cəmiy-

yətin mənəvi prinsiplərinin qorunub saxlanmasının zəruriliyi hökm olunur" (7).

M.Kaşqarlı bu sюzцn (7, ъ.,I,106; c.,II,18, 25;c.,III, 120,221) dцzən, nizam, adət, yaradılmaq mənalarının oldugunu izah etmişdir. "Тюрц" semantemi aşagıdakı paremiyalarda işlənmişdir: "El qaldı tюrц qalmas" (7, ъ.,II,25). (El qaldы tюrə qalmaz. Məmləkət atıla bilər, цsul, adət atılmaz. Bu sav adətə, tюrəyə gюrə iş gюrməsi istənilən kimsəyə sюylənilir)."Kцч eldin kirsə tюrц tцnlцktən чıqar" (7, ъ., II,18) (Gцc qapıdan girsə tюrц bacadan чıxar. Zцlm qapıdan girsə, haqq- ədalət, insaf bacadan чıxar) (7).

F.Bayat türk törəsini izah edərək yazır: "Тюrə- tюrəmək, doьulmaq sюzцndən olub, tюrəyişdən юlənə qədər tцrkцn əməl etməyə boclu oldugu pozulmaz qanun idi" (4,3). Bizə görə, "törə İslam öncəsi türk alplıq dönəminin həyat və yaşayış normalarını tənzimləyən etik yaşayış qaydalarını nəzərdə tutur. İslam чevrəsinə girdikdən sonra isə tюrə ilə şəriətin qoşalaşması baş verir. Тюrə prinsipləri daşlaşmış davranış qaydaları kimi etnik əxlaqı İslam əxlaqına transformasiya edir. Bundan sonra tюrц tцrk цчцn haqq-ədalət, insaf-mцrvət kateqoriyalarına цzvlənmiş olur. Тюrц prinsipi ilə yaşayış İslam mцhitində də davam edir. Etnopsixoloji davranış forması kimi tюrц aydın şəkildə əski savlarda əks olunur. Bu mənada tюrц təkcə bu terminin işləndiyi deyimlərlə məhdudlanmır. Əslində savlar tюrцnцn mцhafizəsini təmin edən əsas mцddəlar, hюkmlərdir" (8). Tədqiqatda o da qeyd olunur ki, "Orxon-Yenisey mətnlərində Kagan-Bodun modeli DLT-də Bəq-Bodun şəklindədir. Formal baxımdan həmin struktur müşahidə olunur. Burada keçən bəy həm sakral, həm də profan səviyyələrdə işlənmişdir. Sosial kontekstdə bəy toplumun başçısıdır. Bəzi deyimlərdə o kontekstdən asılı olaraq "qılavuz" və "çuvga"

ilə işarələnmişdir” (8). Xalq deyimlərində, atalar sözlərində işlənmiş bu sözlər başçı anlamını bildirir. “Qalın qaz qlavuz-suz bolmas” (7, c.,I, 487) (qaz qatarı başçısız olmaz), “Qalın qulan çuvgasız bolmas” (7, c., I, 424) (Heyvan sürüsü baş-çısız olmaz) kimi deyimlərdə başçının olmasının zəruri bir hadisə oldugu bəyan edilir. Deyimlərdəki məlumat zookon-tekstdə verilsə də burada toplumun idarə olunması üçün baş-çının zəruri funksiya daşıması diqqətə çəkilir. “Yer basruqı tag, budun basruqı bəq” (Yeri dag basar, xalqı bəy) deyiminin neqativ funksiyası ilə yanaşı pozitiv funksiyadan da məhrum deyil. Çünki dagın kult olması məlumdur; burada bəy dagla binar münasibətə daxil oldugundan onların arasında semantik paralellik mövcuddur. Deyimlərdə dövlət başçısı bəy və xan kimi vahidlərlə işarələnmişdir. El//İL-vətən. Paremiyalarda vətən anlayışı açıq kodla verilməmişdir. Kitabi Dədə Qorqud-dakı yurd anlayışına burada rast gəlinmir. Vətən də “el” anlayışı ilə ifadə olunur. Amma yurdsevərlik, vətənpərvərlik duyğusu başqa şəkildə də ifadə oluna bilir: Məsələn, “Tilkü öz yiniqə ürsə uzuz bolur” (7,c.,I,54-55;c., III,5) (Tülkü öz yuvasına hürsə qotur olar)” (8). Xalqın həmrəyliyini, birliyini ifadə edən və belə yüksək ictimai fikri daşıyan, yaddaşlara ya-yan müdrik xalq kəlamlarında dost- düşmən münasibətlərinin xarakteri də öz əksini tapır. Çünki bu dövlətçilik üçün çox əhəmiyyətli hadisədir. “Paremiyalarda türkün dost-düşmən münasibətlərinin struktur modelləri öz əksini tapır. Bu da öz növbəsində sabit, zamanla dəyişməyən dəyərləri ehtiva edir. “Yatnınq yaglıq tikisindən özninq qanlıg yuzruq yeq” (7,c.,III,43) (Yadın yaglı tikəsindən özünün qanlı yumrugun yaxşıdır) deyimində bu münasibətlər aydın şəkildə ifadə olunur. Eyni zamanda düşmənə qarşı münasibətdə ehtiyatlılıq, tədbirlilik, onun güc və imkanlarının düzgün qiymətləndiril-məsi tövsiyə olunur” (8).

Ëƒ‹яòäя?ààû ÷яêèëяí òƒðê ãяhðяìàíëûã òàðèõèíèí á‰jƒê яðяíëяðèíäяí áèðè Àëï Яð Òîíãààûð. Jяãèí êè, Ôèðäîâñèíè íяçяðäя òóòàðàã, Êàøãàðëû jàzûð êè, "èðàíëûëàð îíu êèòàáà ñàëìûøäûëàð". Ñîíðàäа яäяáè-áяäèè âя åëìè ìяíáяëяðäя äя Àëï Яð Òîíãà (Яôðàñèjàá) àäûíà ìƒíòяçяì ðàñò ...яëèðèê (6,5). "Alp Ər Tonqa eramızdan əvvəl VII əsrdə yaşamış görkəmli türk sərkərdəsi və hökmdarıdır. O, tarixdə daha çox Əfrasiyab adı ilə tanınır... Alp Ər Tonqa vaxtilə çox böyük bir əraziyə malik olan Turan kimi qüdrətli bir imperiyanın hökmdarı olmuşdur" (20,24-25). "Divan"da Alp Ər Tonqa ilə bağlı bir sıra məlumatlar, o cümlədən onun adının farslarda Əfrasiyab olması məlumatı vardır. Bundan başqa "Divan"ın müxtəlif yerlərində verilmiş şeir (dördlük) örnəkləri vardır. Tədqiqatlarada bu şeirlər 10 bənd dördlük olaraq qruplaşdırılmış və ağı mətni kimi səciyyələndirilmişdir (64). Bu dördlüklərdən birində deyilir:

Alp ər Tonqa öldimü
İsiz ajun qaldımu
Özlək öçin aldımu
Emdi yürək yırtılur (7, c.,I , 41)
(Alp Ər Tonqa öldümü?
Yaman dünya qaldımı?
Fələk öcün aldımı?
İndi ürək yırtılır! ) (5,132).

Bəzi mülahizələrə görə, bu mətnlər Alp Ər Tonqa dastanından parçalardır. N.Cəfərova görə, bu mətnlər dastan deyil, dastanlaşma prosesini keçməmiş dastan süjetləridir. Mətndə bu əfsanəvi dövlət başçısına çox böyük bir sevgi müşahidə olunur. Eyni zamanda onun adı dünya bəyi (ajun bəqi), ərdəm bəyi kimi epitetlərlə xatırlanır (5,133). M.Kaşqarlı bu əfsanəvi türk hökmdarını belə təqdim edir: Алп Яр Тонга-tцрклярин улусал гящряманы вя бюйцк хаганы (7, c., I, 41). O, "Divan"ın müxtəlif yerlərində bu adı izah edərək

yazır: “Яфрасийаб-tцрклярин “Тонга Алп Яр” дедикляри улусал вя яфсаняви гящряман вя бюйцк хаганын фарсъа ады” (7, с., I, 159, 343, 381, 395, 413, 466, 486; с.,III, 149, 150, 151, 157), “Тонга Алп Яр-Яфрасийабын Тцрклярдя ады” ( 7, с., I, 41; с., III, 149, 368). Müəllif bu adın etimologiyasını da verir: “Тонга -“бябир” дейилян щейванын ады олуб гящряманлара ад олараг верилир”.

Алп Яр Тонга адыna başqa яски абидялярдя də rast gəlinir. Kaşqarlının мцасири Йусиф Хас Щаъиб Баласагуни дя онун Яфрасийаб олдуьуну йазыр:

“Тцрк бяйляри арасында ады билэяли Тонга Алп Яр иди. О билиэи иля танынрды, билиэи эцълц, щцнярляри чох, аьылы иля дцнйада тяк иди. Таъикляр она Яфрасийаб дейирдиляр. Бу Яфрасийаб еллярини зянэинляшдирди” (21,31).Авестада Туранын Франграсиан кими адландырылан мифик падшащы. Туран халгынын щюкмдары. Иран мифляриндя, яфсаняляриндя вя “Шащнамя” епопейасында буна раст эялинир. Шярги юйрянян алимляр Яфрасийабын эенелоэийасын Тювратдакы Йафятин оьлу Тцрк иля баьлайырлар. Ят-Тябяридя (X яср) – «Фрасиаб бин Бяшянэ бир инат бин Ришман бин Тцрк», ибн Щялдунда (XIV яср) «Яфрасиаb бин Ашк бин Рцстям бин Тцрк» кими кечир. Яфрасийаб образы Тцрк яфсаня вя рявайятляриня трансформасийа олунараг сахланмышдыр. Бу образын “Оьузнамя”лярдя дя изляри мцшащидя олунур. Бу мянада Алп Яр Тонга-Яфрасийаб образы Оьузларын епик гящряманы статусуну дашымышдыр; X-XI-ясрлярин Тцрк Алплыьы дюняминдя щям халг ядябиййатынын, щям дя диван ядябиййатынын епик гящряманы кими эениш шякилдя ишлянмишдир (64, 168). Araşdırmadan məlum olur ki, “Алп Яр Тонга образы

иля баьлы эюркямли тцркolog Халиг Короьлунун Совет Тцрколоэиуасы журналында эениш арашдырмасы вардыр. Алп Яр Тонга Фирдовсинин "Шащнамя"синдя, Булгар дастаны "Шан гызында", Й.Х.Щ. Баласагунлунун «Гутадгу Билиэ»индя, «Дядя Горгуд китабы» кими Оьуз абидяляриндя мцхтялиф шякилдя мцшащидя олунур. Бунунла йанашы айрыъа «Алп Яр Тонга дастаны»нын да, яскилярдя мювъуд олмасы шцбщя доьурмур. ДЛТ-дя сахланмыш бу нцмуня щямин дастанын сон щиссяси олмалыдыр. ДГК-дяки «инди щаны дедийим бяй әрянляр» мятни мязмун вя мялумат бахымындан «Алп Яр Тонга юлдцмц»нцн давамыдыр; схем вя код сявиййяляри дя идентикдир" (5,168). Turan və turanlılar haqqında məlumatların məhdudluğunu izah edərək K.Hüseynoğlu yazır: "Bu onunla bağlıdır ki, turanlılar haqqında ilk məlumat zərdüştliyin müqəddəs kitabı sayılan "Avesta"da, daha sonralar isə həmin kitabdan asılı olan İran rəvayət və dastanlarında verilmişdir" (23,21). Kaşqarlı məqsədyönlü şəkildə türk dövlətçiliyinə xidmət etdiyindən "divan"da türkün özünəməxsus mədəniyyətini və folklorunu təqdim etmişdir. O, yad təsirlərdən yayınmış, farslara münasibəti isə müsbət olmamışdır. Qədim türk hökmdarı Alp Ər Tonqa haqqında əfsanə və rəvayətləri yazıya almaqla Kaşqarlı türk dövlətçiliyinin zəngin ənənəsinin, dövlətin və onu simvolizə edən hökmdarın qüdrətinin səciyyəsini təsvir etmiş, onu şifahi yaddaşdan yazılı abidəyə köçürmüşdür. Alp Ər Tonqa haqqında ağıdan məlum olur ki, türklər dövlət başçısının ölümünə böyük bir faciə kimi baxmış və ona ağır yas saxlamışlar. Digər tərəfdən isə bu mətn qədim yas mərasimi və ağı janrı haqqında təsəvvürləri genişləndirir. Abidədə türklərin qurban mərasimləri haqqında da məlumat verilir. Sonralar bu mərasim islami xarakter qazanmış və İsmayıl qurbanı

şəklində davam etmişdir. Tədqiqatçı alim K.Hüseynoğlu Novruz bayramının köklərini araşdırmış və onun Turanlıların Tura bayramından gəldiyi mülahizəsini irəli sürmüşdür. Bu bayramın qədim adı ilə çuvaş türklərində qaldığını diqqətə çəkən alim yazır: "Çuvaşların bayramları sırasında "günəşə, Tura allahına və əcdadlara qurbankəsmə bayramı xüsusi yer tutur. Bu bayram mart ayında keçirilir və bir neçə gün davam edir. Çuvaşlar oda, suya, günəşə, yerə ehtiram göstərir və baş allah Silt Tura başda olmaqla xeyir allahlarına və ruhlarına inanırdılar". Vaxtilə qədim Turan ərazisində məskunlaşmış bir sıra Sibir xalqlarının (şorslar, evenkilər) qədim təqvimində də mart ayının ortalarından aprel ayının ortalarına qədər olan müddətə "turan" ayı deyilir" (23,59). Qədim türklər müqəddəs saydıqları şeylərə ıduk deyiblər. Qurbanlıq heyvan da müqəddəs məqsəd üçün kəsildiyindən ona da ıduk deyilmişdir. Tədqiqatlarda göstərilir ki, "hunlar və sonradan göytürklər də ildə üç dəfə qurban verib bayram keçirirdilər. Bu qurbankəsmə mərasiminin və bayram törənlərinin ilin birinci, beşinci və doqquzuncu aylarında keçirilməsi və bunların da ardıcıllıqla bahara-22 marta, yaya-22 iyuna və payıza-24 sentyabra uyğun gəlməsi heç də təsadüfi deyildir. İyulun 20 və ya 22-sinə düşən qurbankəsmə mərasimi qutsal dağda, dövlət başçılarıyla isə Ötüken dağinda Tanrıya qurbanvermə və bayram şənlik törənləri şəklində gerçəkləşdirilirdi. Qurbanvermə mərasimini keçirmək dövlət ənənəsində kahin- hökmdar funksiyasını üzərinə alan kağanın haqqı idi. Tayfa, boy səviyyəsində Tanrıya həsr edilən qurbanları kəsən və ritualı keçirən boyun ən yaşlısı, ağsaqqalı olurdu. Göy tanrıya qurbanvermə mərasimi açıq havada keçirildiyi halda əcdad kultu ilə bağlı keçirilən törənlər mağaralarda gerçəkləşdirilirdi. Birinci ayda qurbanvermə mərasimi də bilindiyi kimi ata-baba mağaralarında keçirildiyindən əcdad ruhlarına verilən qurban mərasimi hesab olunurdu. Göy Tanrının şərəfinə bişmiş ət, əcdad kul-

tuna çiy ət verilirdi” (24, 87-88). Qədim türk cəmiyyətində bu mərasim çağdaş anlamda dövlət tədbiri idi. “Qurban mərasimləri sadəcə dini bir ayin olmayıb bir törən, bir şölən mahiyyəti daşımaqla, boyun fərdləri arasında anlaşmanı, yardımlaşmanı və bütünlüyü qorumaqdaydı. Bu baxımdan Göy Tanrıya verilən qurban törənləri dövlətin və millətin toxunulmazlığını zəmanət altına almaq məqsədi daşımaqdaydı” (24,89). Qədim türk cəmiyyətinin tanrıçılıq dini görüşlərini ictimai- mədəni və dini-mifoloji hadisə kimi araşdıran F.Bayat qənaətlərini aşağıdakı şəkildə ümumiləşdirir:

“1. Bu mərasim- ritual kütləvi xarakter daşıyır, boy, tayfa və xalqın iştirakı ilə həyata keçirilir.

2. Qurbanlıq heyvan ağ rəngli cavan qoç və ya boz rəngli at olur.

1. Qurbanlıq heyvanın erkək olması şərtdir.

2. Mərasimdə iştirak etmək haqqı və mərasimdə iştirak etmə statusları olmayanların, yeraltı ruhlara qamlıq edən qara şamanların mərasimə gəlmələri yasaqdır.

3. Mərasimi şaman deyil, Göy Tanrıya alqış-duaları bilən yaşlı bir nəfər (ağsaqqal) keçirir.

4. Mərasim qutsal dağın başında qayın ağacının yanında keçirilir.

5. Qurbanlıq heyvanın qanının yerə tökülməməsinə, sümüklərinin və dərisinin yandırılmasına diqqət edilir.

6. Mərasim Göy Tanrının simvolu olan ıduk qayın ağacının yanında, günün hərəkəti istiqamətində, ağacın ətrafına üç dəfə dolanmaqla, yanan ocağa baş əyməklə və Tanrı adını zikr etməklə, yəni kaçinlərdə Teer Teer, beltirlərdə Tigir Tigir deməklə başlayır.

7. Tanrıya qurbanvermə mərasiminin xüsusi alqış-dualardan ibarət mətni mövcuddur.

8. Bu qurban mərasimi başqa ruhlara verilən qurban mərasimlərindən qəti şəkildə fərqlənir.

Tanrıya həsr edilən qurban mərasimində məqsəd bütün canlı varlıqlar üçün törəmənin və yenidən törəmənin istənilməsi, zamanın durmadan axan axışı içində dövlətin əbədiliyini, millətin səfasını, fərdlərin ağrısız, acısız yaşamasını təmin etməkdir" (24,96). Dövlətin və xalqın asayişinə, salamatlığına, "azıb gələn qəza"dan qorunmasına və rifahına xidmət edən, yəni bu kimi məqsədlər üçün keçirilən mərasimlərin türk dövlətçilik ənənəsində xüsusi rolu olub. Digər dini tərəfləri ilə yanaşı mərasimlərin insanların həyatında oynadığı mühüm rollardan biri də hakimiyyət və xalqın həmrəyliyinin təsdiqidir. Bu təsdiq ildə bir neçə dəfə keçirilən mərasimlərdə öz əksini tapır. Məsələn, Qalın Oğuz elininn dövlət törəni olan "toy"da Dirsə xan və Alp Aruzla bağlı motivlər mərasimin nə qədər mühüm funksiya daşıdığını nümayiş etdirir. Burada üzə çıxan narazılıq birincidə (Dirsə xan) ailə səviyyəsində, ikincidə (Alp Apuz) dövlət səviyyəsində problemlər yaradır. Əslində qədim mərasimlər cəmiyyətin təşkilində və idarə olunmasında xüsusi rola malik olub. Bunlar qədim yazılı abidələrimizdə, o cümlədən "Divani lüğət-it türk", "Kitabi Dədə Qorqud" və başqa qaynaqlarda müşahidə olunur.

Abidədə qədim türk dövlətçiliyini əks etdirən folklor mətnlərindən biri də xaqan Şu haqqında rəvayətdir. Bu mətni arxaik türk dastanları sırasına daxil edənlər də vardır. N.Cəfərovun qənaətinə görə, "гЃдим тцрк дастанлары, ЃсасЃн, е.Ѓ. I миниллијин орталарында мејдана чыхмышдыр. Лакин епос ЃнЃнЃсинЃ уј‹ун олараг, даЋа гЃдим д‰врлЃрин ЋадисЃлЃри, и‡тимаи, етник-естетик ЃЋвал-руЋијјЃси дЃ онларда ‰з Ѓксини тапмышдыр. Апары‡ы овгат, дцнја…‰рцшц, етник-и‡тимаи емосија исЃ мЃЋз дастанларын формалашды‹ы д‰врЃ аиддир" (25,16).

МцЃллиф mülahizələrinə davam edərək qeyd edir ki, "гЃдим тцрк дастанлары" анлајышы шЃртидир, чцнки

онларын ЂЃ‡ми, мЃнзум, јахуд мЃнсур формада олмасы, дил-цслуб хцсусијјЃтлЃри барЃдЃ конкрет мЃлумат јохдур – мЃнбЃлЃрдЃ ЂЃмин ЃсЃрлЃрин, Ѓсасѓн, "гыса мЃзмуну" вЃ ја "сцжети" мцЂафизЃ олунмушдур. БелЃ мЃзмун вЃ сцжетлЃрин ‰зц дЃ бир сыра Ђалларда ја там дејил, ја да "мцасирлЃшдирилмиш", мцЃјјЃн мЃгамлары тЃЂрифЃ мЃруз галмышдыр. Чин вЃ Иран мЃнбЃлЃриндЃ мцЂафизЃ олунмуш гЃдим тцрк дастанларында (ЃслиндЃ, дастан сцжетлЃриндЃ) нЃинки бир сыра мотивлЃр, ЂЃтта адлар белЃ дЃјишиклијЃ мЃруз галмыш, тцрк адлары Чин вЃ Иран адлары илЃ ЃвЃз едилмишдир. Bu fikri inkişaf etdirən H.İsmayılov yazır: "Тцрк епосунун дифференсијасы контекстиндЃ етник-мЃдЃни чеврЃлЃри IX-XI ЃсрлЃр д‰врц цчцн Сибир, Тцркцстан (јахуд МЃркЃзи Асија), Урал-Волгабоју, ШЃрги Авропа, Гафгаз – Кичик Асија олмагла локаллашдыран Н.†ЃфЃров "ГЃдим тцрк епосу илЃ тЃхминЃн ејни д‰врдЃ тЃшЃккцл тапан вЃ тцркчцлцк тЃфЃккцрцнцн идеја-естетик Ѓсасыны тЃшкил едЃн танрычылык‹ы мцкЃммЃл идеоложи мЃнЃви систем кими дЃјЃрлЃндирир вЃ тцрк мЃдЃнијјЃтинин (о ‡цмлЃдЃн ЃдЃбијјатынын) ЂЃмин системдЃн кЃнарда изаЂ етмЃјин мцмкцн олмадык‹ыны" да гејд едир" (25,16; 85,291). Belə bir əlaqə özünü xaqan Şu ilə bağlı motivdə də göstərir. "Шу Хаган бирбаша "Шу" ады иля кечмяся дя бязи мянбялярдя, о ъцмлядян Н.Эянъявинин "Исэяндярнамя" ясяриндя, хцсусиля Хаган образында эюрцнцр. Бу образла баьлы мотивляр, демяк олар ки, ДЛТ аноложи мялуматлары иля идентикдир. Садяъя олараг бурада епик гящряманларын бири Чин Хаганы (Низамидя), диэяри ися Тцрк хаганы Шцдур (Kaşqarlıda); характерляр вя давранышлар да чох охшардыр. Бурадан о гянаятя

эялмяк олар ки, йа Низами М.Кашгарлнын «Диван»ындан истифадя едиб йа да онларын щяр икиси ейни информсийа мянбяйиндян (шифащи вя йа йазылы) гайнагланыб. Щяр щалда мятнлярин мящз мялумат сявиййясиндя мцгайисяси бу нятиъяйя эялмяйя ясас верир.

«Шу» иля баьлы диэяр диггяти чякян мясяля ися одур ки, бу адын чинъя мянасы «Ай»дыр. Бизим ялимиздя Оьуз епик комплексиня дахил олан мятнлярин яксяриййяти Оьуз хан вя онун бюйцк оьлу «Эцн» ханла баьлыдыр. Сосиал-сийаси шяраит оьузун диэяр ювладларынын ады иля баьлы епик мятнляри дя сой шяъяряси бахымындан деформасийайа уьрадыб. Мясялян, Байандырлар вя Салурлар Эюй ханын оьуллары олдуьу щалда, щямин сойдан олан Аьгойунлулар юзлярини Эцн ханын няслиня баьлайырдылар (Бах: «Тарихи Гызыллашан», Тарихи Дийарбякриййя). Сялъуглардан сонракы дюнямдя бунун бир нюв яняня щалыны алдыьы эюрцнмякдядир. Ай хан (оьуллары Үазыр, Дудурьа, Дцкяр) Оьуз епик янянясиндя чох зяиф шякилдя мцшащидя олунур. Бунун тябии ки, ъидди сосиал-мядяни сябябляри олмамыш дейилдир. Ялдя олан «Шу хаган» мятни «Оьуз хаган»ын Чин вариантынын галыьыдыр. Даща доьрусу Чин Тцркляринин епик йарадыъылыг юрняйинин реликтляридир. Неç təsadüfi deyildir ki, Nizaminin "İsgəndərnamə"sində İsgəndərin Çin xaqanına yazdığı məktubda ona "Çin türkü" kimi müraciət olunur (Məsələn, "Ey torke-çin çe dari to dər demağ"). Бу типли мялуматлары системляшдириб онларын цзяриндя ъидди тящлилляр апармаг мцмкцндцр. Бунунла Оьуз епик информасийасынын йайылма ареалларыны,

трансформатив тюрямялярини вя с. епик проблемляри айдынлашдырмаг олар" (5,169)."Divan"da Şu ilə bağlı müxtəlif əfsanə və rəvayətlər vardır. Kaşqarlı bunları ərəb dilinə tərcömə edərək kitaba daxil edib. Kaşqarlı bu adı belə izah edir: "Şu xaqan – bir türk xaqanının adı" (7, c., III, 413,416). Mətnin məzmunu özündə Makedoniyalı İsgəndərin Çinə yürüşü motivini əks etdirir. Mətndə diqqəti çəkən məsələlərdən biri dövlət başçısı Şunun ölkənin təhlükəsizliyi üçün ciddi təhlükə yarandığı bir şəraitdə nümayiş etdirdiyi davranışdır. Xaqana İsgəndərin ordusunun türk ölkəsinə yaxınlaşması xəbərini verəndə bunu soyuqqanlılıqla qarşılayır. Saray əyanlarına da səfərlərdə onun əyləncəsini təmin edən səyyar hovuzda üzən quşlara tamaşa etməyi məsləhət bilir. Digər tərəfdən də məlum olur ki, xaqanın xüsusi kəşfiyyat xidməti vardır. Çünki düşmən ordusunun yürüşünü sarayda heç kim bilməyəndə belə xaqan bundan xəbərdar imiş və zəruri tədbirləri görübmüş. Sarayda ona ögələrlə məsləhətləşməyin zəruriliyini bildirirlər. Kaşqarlı ögənin çox ağıllı, yaşlı adam, ulusun böyüyü anlamlarını izah edib. Bu təxminən sonrakı dövlətçilik ənənəsindəki vəzirin funksiyasına uygundur. Xaqan çətin situasiyalarda ögələrlə məsləhətləşərmiş. Məlumdur ki, qədim zamanlarda saraylarda bilikli, müdrik insanlar saxlanarmış və onların biliklərindən istifadə olunarmış. İsgəndərin sarayında filosofların, o cümlədən məşhur filosof Aristotelin olması faktı məlumdur. Çünki dövlətçilikdə bunun faydası böyük olmuşdur. Hərbi zəfərlər də təkcə güc faktorunun deyil, eyni zamanda ağlın gücü ilə əldə edilmişdir. Bu baxımdan türk ögəsi yunan filosofundan üstün mövqedədir. Çünki xaqanın dünyanın böyük bir hissəsini fəth etmiş İsgəndərə qarşı tətbiq etdiyi taktika onun ordusunu məhv olmaq təhlükəsi qarşısında qoyur. Gecə ilə bütün əhali ölkəni tərk edərək bozkırlara döğru çəkilir. Şübhəsiz ki, bu zaman arxada ərzaq ehtiyatı da saxlanıl-

mır. Çevik türk dəstələri isə İsgəndərin ordusuna gözlənilməz zərbələr endirirlər. Bu yürüşün uğursuzluğunu dərk edən İsgəndər xaqanla barışır, dağılmış şəhərləri yenidən tikdirir, abadlıq işləri görür. Şu xaqanın İsgəndər ordusuna tətbiq etdiyi hərbi taktika təxminən iki min il sonra rus sərkərdəsi Kutuzov tərəfindən Napaleon ordusuna tətbiq edilir. Əhali Moskvanı tərk edib boş şəhəri düşmənə təhvil verir. Ordu isə düşmənin ərzaq yolunu, arxa ilə əlaqəsini kəsir. Az müddətdən sonra Napaleon tələyə düşdüyünü anlayır və Borodino çölündə ağır məğlubiyyətə uğrayır. Türk dövlətçilik ənənələrin bəzi məqamlarını və qədim türk hökmdarının xarakterini göstərən bu rəvayətin başqa bir şəkli də Nizami Gəncəvinin “İsgəndərnamə” əsərində yer alır (27,256-286). Burada öncə xaqanla İsgəndər məktublaşır. Sonra elçi sifətində xaqan İsgəndərin düşərgəsinə gəlir. Xaqan türkün həm sülh, həm də hərb mədəniyyətini nümayiş etdirir. O, özünəməxsus danışıq yolu ilə İsgəndəri təzminat tələbindən yan keçdirir. Bu yolla ölkəni ağır bir zərərdən qurtarmış olur. Onun şəxsi cəsarəti, ağlı, yüksək mədəni davranışı, səmimiyyəti, sadəliyi və gücü İsgəndəri heyrətləndirir. Çinə düşmən kimi gəlmiş İsgəndər Çinin türk xaqanının zəkası və türklərə məxsus yüksək dövlətçilik mədəniyyəti ilə qarşılaşır , ona güzəştə getməyə vadar olur və bu ölkəni dost kimi tərk edir. İstər Nizamidə, istərsə də Kaşqarlıda verilmiş bu mətnlər hər şeydən öncə xalq yaradıcılığından qaynaqlanır. Mədəniyyətimiz tarixindəki bu böyük xidməti xarakterizə edən Y.Qarayev yazır: “ˆç ÷îõ‡èëäëè, ÷îõìèãjàñëû “Ëƒ‹əò”è èëə�Êàøãàðëı ìяhç Яð Òîíãà âя� Ôèðäîâñè èøèíè òƒðê êƒëòƒð òàðèõèíäя …‰ðäƒ: àíà òƒðê‡яjя�áяäèi ñàáèòëèê âя�äяjèøìяjяí, ì‰òяáəяð, ñƒðяêëè ñàkèòëèê …яòèðäè. Äƒíjàäà ñîí á‰jƒê ê‰÷яðè õàëãûí øèôàhè äèëèíäяêè áƒòƒí îòóðàã ñ‰zlər hàìûñû áèðëèêäə� áó äяôя àðòûã åëäяí-åëя, äèëäяí-äèëя jîõ, èëê äяôяäèð êè, ñahìàíëû-ñèñòåìëè øяêèëäə� òяëяôôƒçäяí jàçûjà, à‹ûçäàí

êà‹ûçà, øiôàhè, ê‰÷ÿðè ìÿêàíäàí îòóðàã ìÿêàíà ê‰÷ åëÿäè” (6,5). “Divan” həm Qaraxanlı, həm də Oğuz-Səlcuq dıovlətlərinin mədəni gerчəlkilərini əks etdirməklə yanaşı, onda toplanan folklor və etnoqrafik materiallarla чox qədim dıovrlərin həqiqətlərini də yaddaşlardan yazıya alaraq təqdim edir. Eramızdan əvvəlki minillikdə yaşadığı ehtimal olunan türklərin əfsanəvi hökmdarı Alp Ər Tonqa və Şu xaqan da bu silsilədən olan mətnlərə aiddir. Bununla heç şübhəsiz ki, Kaşqarlı dövlətçilik davranışının və milli ruhun yüksəldilməsinə, başqa sözlə, mövcud türk dövlətinin mənəvi əsaslarının möhkəmlənməsinə xidmət etmişdir.

# “KUTADQU BİLİK”DƏ DÖVLƏTÇİLİK

Qədim türk dövlətçilik fikrinin geniş əks olunduğu yazılı abidələrdən biri də Yusif Xas Xacib Balasaqunlunun “Kutadqu bilik” əsəridir. Kaşqarlı Mahmudun “Divan”ı ilə təxminən eyni vaxtda yazılmış “Kutadqu bilik” türk xalqlarının ədəbiyyatında ilk poema kimi xüsusi bir ədəbi mövqeyə malikdir. Yusif Balasaqunlu “bu əsəri on səkkiz ay müddətində yazaraq 1069-cu ildə doğma şəhəri olan Balasaqunda (Kuz-Orda) tamamlamışdır. Əsər Qaraxani hökmdarlarından olan Tafqaç Buqra Qaraxan əbu Əli Həsən ibn Süleyman Arslan Qaraxana həsr edilmiş və Xaqan da bu əsəri yüksək qiymətləndirərək onun müəllifinə “xas hacib” fəxri adı vermişdir” (19, 24).

Əsərin dil və üslub baxımından Kaşqarlı “Divan”ı ilə səsləşdiyini, Firdovsinin “Şahnaməsi” kimi əruzun mütəqarib bəhrində yazıldığını qeyd edən Ə. Səfərli və X. Yusifov yazır: “Kutadqu bilik” əxlaqi-didaktik əsərdir. Şair türk xalqlarının zəngin şifahi ədəbiyyatından, lətifə və məsəllərindən, rəvayət və dastanlarından istifadə etməklə öz əxlaqi-fəlsəfi mülahizələrini irəli sürmüş, öz dövrü üçün ədəbi-tərbiyəvi əhəmiyyətə malik olan bir əsər yaratmışdır” (19, 25). Əsər orta əsr ənənələrinə uyğun olaraq Allahın, peyğəmbərin və dörd xəlifənin tərifi ilə başlanır, dini-fəlsəfi baxışların ifadəsinə geniş yer verilir, Həsən Buğra xan tərif olunur. Münazirə şəklində qurulan poemada dörd personaj arasında söhbət gedir. “Bunlardan xaqan Gündoğdı ədaləti, qanunu, onun vəziri Aytoldı səadəti, Aytoldının oğlu Ögdülmüş ağlı, zəkanı, qardaşı Odqurmuş isə taleyi, aqibəti təmsil edir” (19,25). Şair ağıla, zəkaya,elmə, biliyə, xeyir əməllərə çağırır. Əsərin məzmunundan aydın şəkildə görünür ki, “təsvir olunan ayrı-ayrı hekayə və rəvayətlərdə, personajların mübahisə və məktublaşmalarında şairin zəmanəsini düşündürən bir sıra ictimai-siyasi və əxlaqi məsələlərə toxunulur. Dövlət və hökmdar, hökmdar və xalq, döv-

ləti idarə etmək üsulları, dünya nemətləri və onlardan istifadə etmək yolları və s. məsələlər haqqında mütərəqqi fikirlər irəli sürülür. Şərab içmək, qumar oynamaq, tiryək çəkmək, yalan danışmaq, ikiüzlülük, inadkarlıq və lovğalıq kimi mənfi sifətlər pislənilir. Bunların əksinə olaraq düzlük, xeyirxahlıq, təmizlik, sədaqət, fədakarlıq, mərdlik, nəciblik və s. kimi gözəl xüsusiyyətlər yüksək tutulur. Hər bir insanda bu keyfiyyətlərin olması zəruri sayılır. Balasaqunlu Yusif dövlət işlərində çalışan bəy, vəzir, hacib, sərkərdə, xidmətçi və başqalarının vəzifələrini aydınlaşdırır, onlara yol göstərir, ibrətamiz hekayə və misallarla öz fikirlərini möhkəmləndirir. Şairə görə, hökmdar hər şeydən əvvəl xalqın rəğbətini qazanmalı, xalqın ürəyinə yol tapmalı, qaçaq-quldurlarla mübarizə aparmalı, məmurları öz ləyaqətinə görə mükafatlandırmalı, bilikli və mərifətli adamlara arxalanmalı, cahil və namərdlərdən isə uzaqlaşmalıdır" (19,26-27). Yusif Balasaqunlunun əsərində yaradılmış hökmdar surəti xalq yaradıcılığındakı dövlətçilik düşüncələrindən qaynaqlanır və bu kimi əsərlərdə artıq ədəbiyyata daxil olur. "Yusifin ədalətli hökmdar surəti olan Xaqanı kimi Nizaminin İsgəndərini də təxminən eyni məsələlər düşündürür. Hər iki hökmdar bütün həyatları boyu səadət, xoşbəxtlik haqqında düşünüb-danışır, həqiqət axtarırlar. Şər qüvvələrə qarşı çıxaraq cəmiyyətin işıqlı qüvvələrinə pərəstiş edir, həyatın əsil mənasını bilik əldə etməkdə görürlər. Xaqan kimi Bəhram da ölkəni yaxşı idarə etmək üçün yollar axtarır və bu işdə ağıllı. tədbirli adamlara ehtiyac duyur, onlarla hesablaşır" (19, 27). Xalq yaradıcılığının və xalq müdrikliyinin zəngin örnəklərini özündə birləşdirən bu kitab qeyd olunduğu kimi, dörd əsas təməl üzərində qurulmuşdur. Bunlardan " birincisi ədalət, ikincisi dövlət, üçüncüsü ağıl, dördüncüsü isə qənaətdir. Müəllif bunların hərəsinə türkcə birər ad vermişdir. Ədalətə Gündoğdu Elik (hökmdar – tərc.) adını verərək, onu padşah mərtəbəsində tutmuşdur. Dövlətə Aydoldu

adını verib, vəzir məqamına qoymuşdur. Ağılı Öydülmüş adlandırıb vəzirin oğlu və qənaətə Odqurmuş adını verib, vəzirin qardaşı hesab etmişdir. Müəllif öz fikirlərini onlar arasında sual-cavab şəklində ifadə etmişdir ki, oxuyanın könlü açılıb müəllifi xeyir- dua ilə yad etsin" (22,3-4).

Kitab müdrik kəlamlar toplusunu xatırladır. Burada çoxlu sayda atalar sözü işlədilmişdir. Bununla müəllif xalqın dövlətçilik ənənəsinin təməlində dayanan mənəvi ehtiyatları bir daha səfərbər etmiş, onu hökmdarların istifadə etdiyi kitabında cəmləşdirmişdir. Kitab dövlət, dövlət başçısı, məmurlar, xalqı idarə etməyin humanist prinsipləri necə olmalıdır sualına çox geniş və dolğun şəkildə cavab verir. Burada dövlət başçısı bəydir. Bəy, başqa sözlə dövlət başçısı necə olmalıdır sualının cavabı belə verilir:

"Bəy nəcabətli nəsildən olmalıdır,
Bəy igid, cəsur, qəhrəman, şirürəkli olmalıdır.

Atası bəydirsə, oğul bəy doğular,
O da ataları kimi bəy olar!

Bəy bilikli və ağıllı olmalıdır,
Comərd və xoşxasiyyət də olmalıdır.

Bəylər biliklə xalqa baş oldular,
Ağılla elin işini gördülər.

Bəy adı bilik sözü ilə bağlıdır,
Biliyin lamı getsə bəy adı qalar" (22,158).

Kitabda dövlət başçısı olmağın zəruri xarakterik xüsusiyyətləri ilə yanaşı məqbul sayılmayan cəhətləri də göstərilir:

Sərvəti əldə etmək üçün xalq varlı olmalıdır,
Xalqın varlı olması üçün yaxşı qanunlar lazımdır.

Bunlardan biri unudulsa, dördü də puç olar,
Dördü də unudulsa, bəylik puç olar.

Adı- sanı yayılsın deyə bəy
Bu beş şeydən uzaq olmalıdır.

Birinci - tələsmək, ikinci - xəsislik, üçüncü - qəzəb,
Bunlara heç vaxt məğlub olma, müqavimət göstər.

Bəyə əsla yaraşmayan dördüncü şey inaddır,
Yaramaz şeylərin beşincisi isə yalançılıqdır" (22,165).

Elin, yəni dövlətin əsasının möhkəmliyi üçün verilən nəsihətlərdə deyilir:

Elin dirəyi, təməli və sağlamlığı,
Əsası və kökü iki şeyə bağlıdır:

Bunlardan biri xalq üçün yaxşı qanun,
Digəri isə xidmətçilərə verilən gümüşdür.

Xalq qanun sayəsində sevinc içində yaşamalı,
Pulu görən xidmətçilərin üzü gülməlidir.

Bu ikisi bəydən razı qalsa,
Bəyin eli nizamlı olar, bəy rahat olar.

Əgər bəy xalqa qanun verməsə,
Xalqı qorumasa, xalqı talasalar,
O bəy xalqın içinə od atmış olar,
El dağılar, bəyliyin təməli yıxılar.

Hansı bəy əsgərlərin sevindirməsə,
Onda qılınclar qından çıxmaz" (22, 170).

"Qutadqu bilik" əsərində xalq yaradıcılığından gələn xalqın dövlətçilik haqqında düşüncələrinin ən zəngin nümunəsini görürük. Kitabın əsas məqsədi və qayəsi də dövlətçilik tərbiyəsidir, dövlət başçısı, məmur və vətəndaş tərbiyəsidir. Əsər türk dövlətçiliyinin yüksək mənəvi-əxlaqi keyfiyyətlərini təbliğ edir.

## “SİYASƏTNAMƏ”DƏ DÖVLƏTÇİLİK

Türk dövlətçilik fikrinin və ənənəsinin geniş əks olunduğu qaynaqlardan biri də Nizamülmülkün “Siyasətnamə” əsəridir. “Əbu Əli Xacə Nizamülmülk (1017-1092) Tus vilayətində (indiki Şərqi İran ərazisindədir) anadan olmuş, səlcuq sultanlarından Alp Arslan (1063-1072) və Məlik şahın (1072-1092) vəziri olmuşdur. Onun otuz illik vəzirliyi dövründə Səlcuq türk dövləti çox güclənmişdi. Həmin dövrdə Azərbaycan da Səlcuq dövlətinin tərkibində idi. Nizamülmülkün sarayda vəzirliyi dövrü ölkədə apardığı düzgün islahatlar və təcrübəli məsləhətləri nəticəsində iqtisadi tərəqqi və hərbi qələbələr əldə edilmişdi və bütün bunlar onun nüfuzunu xeyli artırmışdı. Məlik şah hakimiyyətə gələndə 17 yaşında idi və təcrübəli vəzirin məsləhətlərinə daha çox ehtiyacı var idi. Bütövlükdə Nizamülmülk, dövrünün müdrik dövlət xadimi olmuşdur” (1,9). “Nizamülmülk Şərqin tanınmış, tədbirli,bacarıqlı vəzirlərindən biri idi. O, dövləti və ölkəni yalnız silahlı qüvvələrin gücü ilə deyil, eyni zamanda bilikli, təcrübəli dövlət xadimləri və din başçıları vasitəsilə idarə edirdi. Bunları tərbiyə edib hazırlamaq üçün elm ocaqlarının yaradılmasına çoxlu vəsait ayırırdı. Bağdadda və digər şəhərlərdə məktəblər təsis etməsi həmin məqsədə yönəldilmişdi. Bu məktəblər sonralar “Nizamiyyə” adı ilə məşhurlaşmışdır” (29,26). Məlumatlara görə, Nizamülmülkə xəlifə Müqtədi tərəfindən “Əmirəlmöminin” adı verilmişdir (30,17). Tədqiqatlardan məlum olur ki, “Nizamülmülk bu əsəri ömrünün sonlarında, hətta Məlikşahın arvadı Türkan xatunun intiriqası nəticəsində vəzirlik məqamından düşəndən sonra yazmışdır. Fəqət XVII əsr müəllifi Hacı Xəlifənin verdiyi məlumat bundan bir qədər fərqlidir. Onun qənaətinə görə Nizamülmülk bu əsəri 1076-cı ildə 30 fəsildə yazıb Məlikşaha təqdim etmişdir. Sonradan Əlyəmin adlı bir katib ona 15 fəsil əlavə etmiş və nəhayət, əsərə başqa katiblərin də əlavəsi olmuş, kitab 50 və ya 51 fəslə çatmışdır” (29,26). Əsər xalq yaradıcılığı örnəkləri ilə də zəngindir. Burada müdrik xalq deyim-

lərindən, atalar sözü və zərb məsəllərdən, əfsanə və rəvayətlərdən geniş istifadə olunmuşdur. Bunlar həm əsərin bədii- estetik cəhətdən zənginləşməsinə və bununla da siyasi ədəbiyyatın oxunaqlı olmasına öz müsbət təsirini göstərmiş, həm də xalq yaradıcılığından gələn dövlətçilik ideyalarını idarəçilik təcrübəsinə daxil etmişdir. "Göründüyü kimi, Nizamülmülkün bir çox nəsihətləri dövlət başçısının sarayda gördüyü işlərlə bağlıdır. Burada hökmdara səbrli olmaq, müqəssiri cəzalandırmaq üçün dərhal qərar qəbul etməmək, əliaçıq olmaq kimi məsləhətlər verilir. Müəllif yazır: "Rəvayətdə deyilmişdir ki, çörək süfrəsini xalq üzünə açıq saxlayan hökmdarın ömrü uzun, dövləti möhkəm, ölkəsi abad olar" ( 28, 115; 30, 12).

"Elə ki, rəiyyət itaət edib öz işləri ilə məşğul olmağa başladı, onları incitməməli, öz ədaləti nəticəsində rahat güzəran keçirmələrinə imkan yaratmalıdır. Lakin xidmətçilərdən və mənsəb sahiblərindən biri yenidən nalayiq işlərlə məşğul olub əliuzunluq etməyə başlasa, öyüd, nəsihət, qulaqburması ilə səhvini başa düşüb düzəlsə, onu həmin işdə saxlamaq olar, yox, qəflət yuxusundan ayılmasa, təxirə salınmayıb, dərhal layiqli bir şəxslə əvəz edilməlidir" (28, 32). Əsərdə xalq yaradıcılığından gələn ibrətamiz nümunələr çoxdur. Dövlət məmurlarının qayda-qanunlara riayət etmələrini izah edən yerdə deyilir: "Atalar yaxşı deyib ki, ət iylənəndə ona duz vurarlar, bəs duz iylənsə çarəsi nədir? Bütün zülmlər üçün qaziyə şikayətə gedirlər, bəs qazi zülm etdikdə kimə şikayətə getsinlər" (28,81).

"İndi Allah-Taala elə istəmişdir ki, keçmiş tarix yenidən təkrar edilsin, əvvəlki şahların rəftarı bərpa olunsun, xalq bundan əvvəlkilərin ağlına belə gəlməmiş bir xoşbəxtliyə çatsın, ona görə o, nəsli iki böyük nəslə (şah və üləma), ata-babası gedib Əfrasiyaba çatan, dünyanın hökmdarı və ən böyük sultanını yaratdı, onu dünyanın şahlarına nəsib olmamış kəramət və üstünlüklərlə bəzədi, şahlara nə lazımsa, gözəllik, xoşxasiyyət, ədalət, mərdlik, qoçaqlıq, at çapmaq, silah oynatmaq, bilik, bütün sənətlərdən is-

tifadə etməyi bacarmaq, şəfəqqət və mərhəmət, səxavət və sədaqət, nəzir vermək, ehsan paylamaq, dini doğru, etiqadı təmiz, ibadətçi olmaq, Allahın buyruğunu yerinə yetirmək, çox gecə namazı qılıb, artıq oruc tutmaq, elm damlarına hörmət edib zahidlərə əl tutmaq, əməlisaleh və hikmət sahiblərinə kəramət göstərmək, yoxsullara sədəqə, məzlumlara yaxşılıq, xidmətçilərlə xoş rəftar etmək, rəiyyəti zülm edənlərdən qorumaq – o, bunların hamısını ona bəxş etdi" (28, 33). Burada dövlət başçısının üzərinə düşən vəzifələr və onun mənəvi keyfiyyətləri yuxarıdakı örnəkdə təsvir olunmuşdur. "Dövlət küfr ilə dağılmaz, zülm ilə dağılar" (28,34) xalq kəlamı da bu tipli məsələlərin şərhində diqqətə çatdırılır. Müəllif dövlətçilik məsələlərini şərh edərkən tez-tez hekayət və rəvayətlərdən istifadə edir. Görünür bu ondan irəli gəlir ki, hələ qanunların bir çox məsələləri əhatə edə bilməməsi folklora müraciəti zərurətə çevirmişdir. Çünki xalq yaradıcılığında bütün situasiyalar üçün ədalətli davranış formulları mövcuddur. Dövlətçilik işlərində ondan aktiv istifadə olunduğu müşahidə edilir. Rəvayətlərdən birində deyilir: "Xalq üzərində hökmranlıq etmiş adamları məhşər ayağına əlləri boyunlarına bağlı gətirəcəklər, adil olublarsa, ədalət onların əllərini açacaq, behiştə gedəcəklər, zalım olublarsa, eləcə əlibağlı cəhənnəmə salacaqlar" (28,34). Başqa bir rəvayətdə deyilir: "Deyirlər Abdullah bin Ömər əl Xəttab (Allah onların hər ikisindən razı olsun) atası can üstə olarkən ondan soruşdu: "Ey ata, səni nə vaxt görəcəyəm?" Dedi: "O dünyada". Dedi: "Tez istəyirəm". Dedi: "Ya birinci, ya ikinci, ya da üçüncü gecə məni yuxuda görəcəksən". On iki il keçdi, lakin onu yuxuda görmədi. On iki ildən sonra onu bir dəfə yuxuda gördü və soruşdu: "Ey ata, sən deməmişdinmi ki, üç gecədən sonra səni yuxuda görəcəyəm?!" Dedi: "Başım qarışıq idi, Bağdadın ətrafında bir körpü uçulmuşdu, məmurlar isə onu təmir etməmişdilər. Bir qoyunun ayağı körpüdəki deşiklərdən birinə keçib sınmışdı. İndiyə qədər onun cavabını verməklə məşğul idim" (28,34-35). Musa peyğəmbərlə bağlı bir rəvayət də ibrətamiz məzmunu ilə diqqəti

çəkir: “Fironun süfrəsində hər gün dörd yüz qoyun, dörd yüz inək, iki yüz dəvə kəsilər və buna müvafiq olaraq müxtəlif xuruş, çərəz, şirniyyat və başqa şeyləri olardı. Misirin bütün əhalisi və qoşunu onun süfrəsindən xörək yeyərdi. O, dörd yüz il allahlıq iddiası edirdi. Həmişə də belə süfrə açırdı. Musa (ə.s.) dua edib dedi: “İlahi Fironu məhv et!” Allah Musanın duasını qəbul etdi və dedi: “onu suda batıracağam, bütün dövlətini, arvadlarını, qoşunlarını sənə və sənin ümmətlərinə bağışlayacağam” (28,115). Bu vədədən xeyli müddət keçməsinə baxmayaraq Allah Fironu məhv etmir. Peyqəmbər onun küfrünü davam etdirməsi haqqında Allaha yenidən müraciət edir. “Allah-təaladan nida gəldi ki: “Ya Musa, sənə lazımdır ki, nə qədər mümkünsə onu tez məhv edim, hər gün min bəndəyə lazımdır ki, onu saxlayım, çünki onun nemətini yeyir, onun sayəsində güzəran keçirirlər. And olsun mənim izzətimə, nə qədər ki, o, xalqa çörək verir, dövlətini əsirgəmir, onu məhv etməyəcəyəm”. Musa dedi: “Bəs sənin vədinin müddəti nə vaxt qurtaracaq?” Cavab gəldi: “O, çörək verməyi azaltdıqda bil ki, onun əcəli çatmışdır” (28,115-116). Dövlətin gələcək üçün görülmüş işlərə verdiyi əhəmiyyəti göstərmək üçün belə bir hekayət nəql olunur: “Deyirlər bir gün Nuşirəvan ata minib yaxın adamları ilə ova gedirmiş. Bir kəndin kənarından keçəndə doxsan yaşlı qoca bir kişinin qoz ağacı əkdiyini görüb təəccüb etdi, çünki qoz ağacı yalnız iyirmi ildən sonra bar gətirir. Dedi: “A qoca, qoz əkirsən?” Dedi: “Bəli, ağam”. Soruşdu: ”Nə qədər yaşamaq fikrindəsən ki, barını da yeyəsən?!” Qoca dedi: “Əkiblər yemişik, əkirik yesinlər!” Nuşirəvanın xoşu gəldi, dedi: “Afərin!” Dərhal xəzinəçiyə əmr etdi, qocaya min dirhəm versin...” (19,117). Əsərdə dövlətçiliyin xalq yaradıcılığından gələn dərin fəlsəfəsi vardır. Hər bir işin ağılla, haqq-ədalətlə, səbr və təmkinlə görülməsi təbliğ olunur. “Tələsmək şeytandan, təmkinlilik allahdandır”(19,119) kəlamı hökmdar davranışı üçün əsas keyfiyyətlərdən birini ifadə etməklə idarəçilikdə emosional yanaşmalara da müəyyən bir istiqamət verir.

## “XƏMSƏ”DƏ DÖVLƏTÇİLİK

Folklor və dövlətçilik məsələlərinin geniş yer aldığı yazılı mənbələrdən biri də Nizami Gəncəvinin əsərləridir. “XII əsrdə yaşamış dahi mütəfəkkir Nizami Gəncəvi (1141- 1209) siyasi xadim olmasa da, onun şah əsərlərindən biri olan “İsgəndərnamə” poemasında və “Xəmsə”yə daxil olan digər dörd əsərdə dövlətçiliyə dair məsələlər geniş şərh edilmişdir” (1,16). T.Kərimlinin də yazdığı kimi, “Nizami yaradıcılığında ideal ədalətli hökmdar probleminin aparıcı rolu nizamişünaslıq elmi üçün hələlik mübahisəedilməz bir faktdır. Bütövlükdə Nizami humanizmindən və məzlum xalqa qarşı ürəyiyananlıqdan, qayğıkeşlikdən irəli gələn bu ideyanın köklərini harada axtarmaq lazımdır? Yəqin ki, ilk növbədə Nizami humanizminin demokratizmində və bununla bağlı olaraq əsrlər boyu folklorda kök salmış ədalətli hökmdar ideyasında. Çünki Nizami başlıca olaraq şahların həyatını təsvir etsə də, əslində. xalq şairi idi; xalqın düşünən beyni və susmayan dili idi. “Xəmsə” boyu şirin və ibrətamiz xalq nağıllarından sevə-sevə istifadə edən Nizami, xalqın ədalətli hökmdar haqqındakı arzularını özü üçün yaradıcılıq amalına çevirmişdi” (31,153). Nizami yaradıcılığının qaynaqlarından birinin folklor olduğunu qeyd edən S.Rzasoya görə, “Nizaminin istifadə etdiyi folklor mətni hansısa əsərin folklorlaşmış variantı, yaxud yazılı abidə folklor süjetinin, əsatiri-xronik hədisin müəllif tərəfinədn bədiiləşdirilmiş varintı ola bilərdi. Məsələn, Firdovsi “Şahnamə”sinin böyük bir hissəsi İran teokratik dövlətçilik ənənəsinin mifoloji mətnlər əsasında nəzmə çəkilməsindən ibarətdir. Və bu halda Firdovsi şifahi ənənənin yazılıya dəyişdiricisi kimi çıxış edir. Sasani xronikası ənənə baxımından Firdovsidə çox qüvvətlidir. Nizamidə isə bu xronikanın ənənə sərhədləri zəifləyir və xronik vahidlər “Yeddi gözəlin” konkret ideyasının verilişi üçün qurum materiallarına çevrilir” (32,37-38). “Ədalətli hökmdar problemi şairin ilk poeması

olan “Sirlər xəzinəsi”ndən Nizami yaradıcılığında özünü qabarıq şəkildə göstərməyə başlayır. Poemadakı iyirmi məqalətdən yalnız doqquzunda hökmdarlardan, hökmdar təbiətinin müxtəlif çalarlarından və təzahür formalarından söhbət açılır. Bunların üçü mifik hökmdar, üçü-ümumiyyətlə adsız-ünvansız hökmdar və yalnız üçü real tarixi şəxsiyyətdir... Poemadakı mifik hökmdarlar – Süleyman, Cəmşid və Fridundur. Tarixi şəxsiyyətlər isə Ədalətli Nuşirəvan, Harun ər-Rəşid və Sultan Səncərdir. Konkret adı çəkilməyən hökmdarlar Nizami tərəfindən “Ümidsiz padişah, Zülmkar padişah və Cavan şahzadə” adlandırılmışdır” (31,153-154). Y.Qarayevə görə, “Nizami dühası bəzən Renesans qəhrəmanlarını da qabaqlayır: “İsgəndərnamə”dəki utopik cəmiyyət Tomas Morun, Kampanellanın yaratdığı ideal cəmiyyətdən daha demokratikdir; burada qullar və siniflər yoxdur. Qərb humanistləri hər cür mənəvi, dini və mistik buxovdan birinci növbədə real təcrübi məişəti, mənəvi duyğuları, Nizami isə ruhu, ürəyi və mənəviyyat aləmini azad etməyə çağırır. Nizami epoxa və yol ayrıcında dayanan Dante libaslı bir müsafir də deyil. Onun idealları nə “orta əsrlərin” sonu, nə də “yeni dövrə” keçidi başlayan dönüşün əvvəli demək deyildi. Burada dahinin öz dövrünə, öz əsrinə saldığı nəzərin yeniliyindən və ucalığından danışmaq olar” (33, 160). Nizami yaradıcılığında fərdi və ictimai mənəviyyat məsələlərinə diqqət yetirən müəllifə görə, “sonralar ən dahi humanistləri düşündürmüş mənəvi mətləblər Nizamini də düşündürüb: şəxsiyyətin ziddiyyətləri, ictimai ədalət problemi, dövlət quruluşu, tragik sevgi, fərdi əxlaqi cavabdehlik! İnsanın həm şəxsi, həm də ictimai səadətinin sorağında şair bizə ideal şah surətləri, hətta ideal şahsız, qullarsız və quldarlarsız ideal cəmiyyət quruluşu təsvir edir! Şah hüzuruna kəfən geyib gələn qocanın, Sultan Səncəri ittiham edən qarının, “Yeddi gözəl”dəki yeddi məhbusun şikayəti, şah zülmündən məmnun qalan iki bayquşun söhbətləri – şairin sənətkar və mütəfəkkir təlaşı ilə faş etdiyi bütün bu ictimai haqsızlıq

faktlarının əsasında çox aydın bir dünyagörüşü, poetik-fəlsəfi bir təlim dayanmışdır" (33,164). Heç şübhəsiz ki, bu təlim xalqın etnik-mədəni dəyərlərindən, mənəvi resurslarından və bunları özündə birləşdirən folklorundan qaynaqlanır. Şərq və türk dövlətçilik ənənələrinin xalq yaddaşında yaşayan dəyərlərini yazılı mədəniyyətin materialına çevirən Nizami hər yerdə bu dəyərlərə sadiq mövqe nümayiş etdirir. Nizami üçün dövlətin ədalətlə idarə olunması ən mühüm məsələdir. Bunun bir daha təsdiqi üçün o, türk folklor ənənəsində mövcud olan ictimai mənafenin fərdi və ya ailə mənafeyindən üstün tutulması faktlarından faydalanır. Məlumdur ki, Oğuz xan atası Qara xanı dini baxışlarına görə öldürür və ya Dirsə xan oğlu Buğacı ictimai əxlaqı pozduğuna görə (yalan motivi sonradan aşkarlanır) ölümcül yaralayır. Varislik ənənəsindəki belə kəskin motivlər Nizamidə bir qədər yumşaldılır. Burada islam görüşlərinin və şəriət qaydalarının rolu öz təsirini göstərir. "Yəzdigürdün ölümündən sonra, Bəhramın da atası kimi zalım olacağından ehtiyatlanan iranlılar özlərinə "tacidar nəslindən" olan bir qocanı şah seçirlər. Bəhram İrana hücum çəkir, şərt əsasında iki şirə qalib gəlib, öz qanuni tacına yiyələnir. Bundan sonra o "atasının zülmünə son qoyur, İranda hətta Allahın belə rəğbət və səxavətinə səbəb olan Kosmik Sahman yaradır" (32,39). Nizami bütün hallarda öz qəhrəmanlarını xeyir və şər qütbləri arasında bölür. Bununla yanaşı bu qütblər arasında hərəkət edən qəhrəmanlar da yaradır. Haqqın və nahaqqın Allah tərəfindən hər birinin öz əməlinə uyğun qiymətləndirilməsini göstərmək üçün müəllif bu yolu seçir. Bəhram da öz fəaliyyətinə görə belə mənfi və müsbət arasında dəyişən bir qəhrəman kimi səciyyələnir. "Bəhramın atası zalımdır və Nizaminin onu bu cür təsvir etməsində tarixi bir həqiqət var. Belə ki, 399-421-ci illərdə İran taxtına oturmuş I Şah Yəzdigürd zərdüşt kahinlərinə yox, xristianlara arxalanır. O, bununla da sərbəst siyasi hakimiyyətə malik yerli əyan və kahinlərin nifrətini qazanır. Lakin sonralar get-

gedə artan bu narazılıqdan və xristianların Bizansla artan əlaqələrindən qorxuya düşüb siyasətini dəyişir" (32,41). Tarix və folklor münasibətlərini türk dövlətçiliyi ilə əlaqəli şəkildə araşdıran H.İsmayılova görə, tarix bu və ya başqa şəkildə folklorda öz əksini tapır:"Tarixi qaynaqlardan anlaşılır ki, Məlikşahın hakimiyyəti imperatorluğun inkişafının son mərhələsi olmuşdur. Onun ölümündən sonra oğulları arasında hakimiyyət uğrunda bir neçə il mübarizə getmişdir. Böyükyarığın və qardaşı Məhəmmədin zamanında dövlət ərazisi iki hissəyə parçalanmış, Sultan Məlik şahın üçüncü oğlu Sultan Səncərin zamanında (1118-1157) dövlət tənəzzül etmiş və onun ərazisi bir neçə yerə bölünmüşdür (34,292). Bununla bağlı pis hökmdara xalq münasibətindən doğan neqativ məzmunlu örnəklər yaranmışdır. Bunlardan biri də N.Gəncəvinin "Sultan Səncər və qarı" hekayəsinə mövzu vermişdir" (35,80). Nizaminin digər əsərlərində də dövlətçilik fikri və kamil dövlət ideyası dini və milli-mənəvi dəyərlərin səfərbərliyi ilə yaradılan kamil insan obrazından qaynaqlanır. Y.Qarayevin gəldiyi qənaətə görə, "Nizaminin sosial utopiyası bilavasitə Nizamini yetirən xalqın öz sosial-demokratik ənənələri ilə şərtlənib və Nizamiyə qədərki farsdilli ənənə ən yaxşı halda ideal monarxiya zirvəsindən yüksəyə qalxa bilməyib" (33,161). Nizami xalq yaradıcılığından yaradıcı şəkildə istifadə etməklə türk dövlətçilik ənənələrini əsərlərində geniş şəkildə əks etdirib. "Nizami eləcə də ümumbəşəri dövlət yaradılması məsələsini ortaya atır və hesab edir ki, bəlkə belə bir dövlət dünyada zülmə son qoya bilər. Nizaminin "İsgəndərnamə"ni yazmaqda əsas məqsədi insan səadəti yollarını axtarıb tapmaq idi. Və Nizami bu nəticəyə gəlir ki, insan xoşbəxtliyi yalnız dost insanların yaşadığı ədalətli cəmiyyətdə ola bilər. Buna görə də həm bu əsərində, həm də digər dörd irihəcmli poemasında Nizami hökmdarları ədalətli olmağa dəvət edir və azad, xoşbəxt insan cəmiyəti yaratmağı geniş təbliğ etmişdir. İdeal hökmdar konsepsiyası isə "İsgəndərnamə" poemasında

daha geniş planda işlənmişdir" (1,16). Nizami əsərlərinin və bu əsərlərdəki ideyaların xalq ruhuna yaxınlığı isə hər şeydən öncə onun folklor motivləri üzərində qurulmasıdır. Çünki burada xalq yaddaşında yaşayan əfsanə, rəvayət, atalar sözü və məsəllər, nağıl süjetləri və nağıl üslubu geniş işlənmişdir. Məsələn, "İsgəndərin zülmətə getməsi" əhvalatı İsgəndərlə bağlı xalq əfsanələrindən biridir. Fatehliyə xalq münasibəti İsgəndərin dəfni ilə bağlı başqa bir əfsanədə qalmaqdadır. Burada İsgəndərin əlinə torpaq tökəndən sonra onu normal dəfn etmək mümkün olur. Bu kimi bir çox əfsanələr "Xəmsə"də olmasa da xalq yaddaşında qorunmuşdur. "Nizaminin "İsgəndərnamə" əsərində azadlıq, bərabərlik və ədalət ideyaları geniş təbliğ olunur. Bu ideyaların tərənnümçüsü kimi Nizami şahlara və hökmdarlara ədalət prinsiplərini müdafiə etməyi nəsihət edir və məsləhət görürdü. Nizaminin "Xosrov və Şirin" poemasında "ədalətli hökmdar haqqında şaha nəsihət" adlı xüsusi bir bölmə də vardır" (1,21). Türk dövlət başçıları xalq ənənəsindən gələn dövlətçilik məsələlərinə böyük diqqətlə yanaşmış və saraylarda saxladıqları müdrik insanların məsləhətlərini daim dinləmişlər. Nizaminin özü də dövrünün böyük hökmdarı Alp Arslan tərəfindən daim diqqət və qayğı ilə əhatə olunmuşdur. Nizami şahın məclisinə gələrkən şahın onu ayağa qalxaraq necə səmimi qarşılaması haqqında da "Xosrov və Şirin" əsərində məlumat verir (1,21).

Nizaminin əsərlərində təsvir olunan dövlətçilik düşüncəsi çağdaş qloballaşan dünyanın mütərəqqi ideyaları ilə səsləşir və bir çox məqamları ilə hətta onu üstələyir. Çünki Nizami xalqın xəyallarındakı dövləti gerçəklik kimi görmək istəyib. Xəyallar və xalq təxəyyülü isə həmişə gerçəklikdən çox irəlidə olur. "Nizami Gəncəvi dünya söz sənətinin dahi təkləri sırasına daxildir. Elə dahi təkləri ki, sənəti sabaha və əbədiyyətə aparan yolda indi də bizdən səkkiz əsr əvvəldə yox, səkkiz əsr qabaqda, irəlidə addımlamaqda davam edirlər. Tarix, bəşəriyyət keçmişdən uzaqlaşdıqca onlara yaxınlaşır" (33,154).

## “ƏXLAQİ-NASİRİ”DƏ DÖVLƏTÇİLİK

Orta əsrlər türk dövlətçilik fikrinin əks olunduğu mənbələrdən biri də Nəsirəddin Tusinin (1201-1274) “Əxlaqi-nasiri” əsəridir. “Əxlaqi-nasiri” Tusi tərəfindən ən azı üç dəfə yenidən işlənmişdir. Birinci dəfə o, 1232-33-cü illərdə Möhtəşəmin təkidi ilə onun adına yazılmış, ikinci dəfə təxminən 21-22 ildən sonra (1254-55-ci illər) ismaillilər darmadağın edildikdən və moğollar hakimiyyət başına keçdikdən sonra, üçüncü dəfə isə Əbdül Əziz Nişaburinin arzusu ilə, təqribən 1272-73-cü illərdə yenidən nəzərdən keçirilmişdir” (37,12). Əsər adından da göründüyü kimi hər şeydən öncə əxlaq kitabıdır. “Mənəvi təmizliyə, əxlaq saflığına, vicdan billurluğuna son dərəcə böyük əhəmiyyət verən Tusi hər şeydən əvvəl uşaqların və gənclərin mənəvi-əxlaqi tərbiyəsi ilə məşğul olmağı, onları düzlüyə, doğruluğa, bir sözlə, vicdanlı olmağa öyrətməyi, sonra isə başqa tərbiyə işləri ilə məşğul olmağı məsləhət verir” (37,17). Tusi cəmiyyətin gələcəyini əxlaqi təkamüldə görür. Ona görə də kitabında əsas aparıcı xətt də əxlaq tərbiyəsidir. Kitab müqəddimədən sonra birbaşa “əxlaqın saflaşdırılması haqqında” fəsillə başlanır. Əsərdə “o zaman yunan, ərəb və fars dillərində son dərəcə böyük şöhrət tapmış Əflatun, Ərəstun, İbn-Sina, Qəzali, Biruni kimi alimlərin fəlsəfə və əxlaqa aid kitablarından, “Kəlilə və Dimnə”, “Ərdəşir Babəkan”, “Ənuşirəvanın vəsiyyətləri” kimi xalq müdrikliyi ilə dolu olan dastan və folklor ədəbiyyatından “Siyasətnamə”, “Mərzbannamə” kimi tərbiyə, siyasət və dövlət məsələlərinə həsr edilmiş kitablardan da yeri gəldikcə “Əxlaqi-nasiri”yə daxil etmişdir” (37,13). Tusi əsərdə əsas məqsəd kimi cəmiyyətin mənəvi tərbiyəsi məsələsini qoyur. Bu “məqsədə çatmaq, cəmiyyətdə vicdanlı, namuslu, bacarıqlı, xeyirxah, işgüzar adamların tərbiyə edilib hazırlanması üçün, döyülüb-danlamaq da daxil olmaqla bütün üsulların tətbiq edil-

məsini mümkün hesab edir, lakin tərif, təhsin, mükafat, şirnikləndirmələrə üstünlük verir" (37,17). Əsərdə dövlətçilik ənənələrinin təsvirinə və təbliğinə geniş yer verilir. Belə ki, kitabda üçüncü məqalənin dördüncü fəsli "ölkə dolandırmaq siyasəti və şahların xisləti" adlanır. Burada deyilir ki, şah siyasəti iki cür olur: "Birinci - fazilə (fəzilətli) siyasət, buna "imamət" də deyilir. Bunun məqsədi xalqı kamilləşdirmək, nəticəsi də səadətə çatdırmaq olar. İkinci-naqis( nöqsanlı) siyasət, buna zorakılıq da deyilir. Bunun məqsədi xalqı qul halına salmaq, nəticəsi isə bədbəxtlik və məzəmmət olar" (36, 209). Cəmiyyətin maddi və mənəvi ehtiyaclarının ödənməsində dövlətin və dövlət başçısının üzərinə böyük vəzifələr qoyulur. Əgər hökmdar fazil siyasət aparsa onda xalqın güzəranı da yaxşı olar. Dövlətçilik üçün xalqın da üzərinə düşən vəzifələr aydınlaşdırılır: "Xalqın xeyri əmin-amanlıq, sakitlik, bir-birinə kömək, dostluq, ədalət, sədaqət, iffət, mehribanlıq və bu kimi işlərdə olar. Xalqın zərəri qarışıqlıq, iztirab, qorxu, vahimə, iğtişaş, dava-dalaş, zülm, əziyyət, paxıllıq, riyakarlıq, xəyanət, təhqir, qeybət və bu kimi işlərdə olar. Hər iki halda camaat gözlərini hökmdara dikər, özlərini onlar kimi aparmağa çalışarlar. Buna görə deyiblər ki, "insanlar ata-babalarından çox şahlarını təqlid edər, keçmişlərin deyil, öz zəmanəsinin adamı olmağa çalışarlar" (36, 209). Xalq dövlətçilik ənənələrinə görə dövlət başçısı olmağın vacib şərtləri vardır. Əsərdə bunlar "yeddi xislət" kimi səciyyələndirilmişdir: "Birinci-atalıq. Bu, hər kəsin özünə görə münasibət, xalqın ürəklərinə yol tapmaq, hamıya mehribanlıq göstərmək, hirs və qəzəbini uda bilmək vasitəsi ilə asanlıqla əldə edilə bilər. İkinci-alicənablıq. Bu nəfsani qüvvələri tərbiyə edib saflaşdırdıqdan, "əsəb" qüvvəsini mülayimləşdirdikdən, "şəhvət" qüvvəsini məhv etdikdən sonra əmələ gələr. Üçüncü-mətinlik. Bu, qəti nöqteyi-nəzər, fitri-iradə, dərin mühakimə,

ciddi mübahisə, düzgün fikir, böyük təcrübə və keçmişdəkilərin tərcümeyi-hallarından ibrət dərsi götürməklə ələ gələr.

Dördüncü – tam əzm. Buna kişilik əzmi, şahlar əzmi də deyilir. Bu, düzgün rəy tam iradənin birləşməsindən əmələ gələn mürəkkəb bir fəzilətdir. Heç bir fəzilətə sahib olmaq, heç bir rəzilətdən can qurtarmaq bu fəzilətsiz mümkün deyil. Bu fəslin əsas məqsədi də məhz bu fəzilətin məziyyətlərindən danışmaqdır, çünki şahların hamıdan çox buna ehtiyacı vardır. Beşinci-səbrli olmaq. Bu, ağır və çətin günlərdə, ümidsiz anlarda, çıxılmaz vəziyyətdə davam gətirə bilməyə deyilir, bütün mətləblərin açarı səbrdir deyiblər. Altıncı – var-dövlət. Bu, xalqın amalına göz dikməmək və tamah salmamaq üçün lazımdır. Yeddinci – sadiq və əməlisaleh köməkçilər" (36,209-210). Digər bir yerdə isə dövlətin tənəzzülünün mənəvi məsələləri diqqətə çəkilir: "Dövlətin inkişafdan dayanması və inhitata uğramasının bir səbəbi də hökmdarların mal toplamağa, sərmayə yığmağa, vəzifə tutmağa aludə olmalarıdır. Dövlət düşkünlüyü get-gedə bunların artmasını tələb edər. Elə ki, öyrəşdilər, adətkərdə oldular (hər halda kəmağıllar tapılar və belə şeylərə rəğbət göstərərlər), bu xasiyyət başqalarına da sirayət etməyə başlayar, onlar da öz əvvəlki təbiətlərini dəyişdirib varlanmağa, müxtəlif yollarla mal toplamağa, eyş-işrətlə məşğul olmağa həvəslənərlər, silahları yerə qoyar, müdafiə qüvvəsini zəiflədər, döyüş vərdişlərini unudar, zəhmətsevərliyi əldən verər, rahatlıq axtaran, yeyib-yatan, ətalət əsiri olan tənbəllərə çevrilərlər. Belə halda zəif bir düşmən də onlara hücum etsə, bu camaatı məğlub etmək onlara asan olar" (36,211). İdarəçiliyin əsas prinsipləri belə şərh olunur: "Rəiyyəti ədalət, fəzilət və hikmət qanunları əsasında idarə etmək lazımdır. Bədən-təbiətlərin, təbiətlər – nəfsin, nəfs-əqlin sayəsində möhkəmləndiyi kimi, şəhərlərin möhkəmliyi şaha, şahın möhkəmliyi siyasətə, siyasətin möhkəmliyi isə hikmətə bağlıdır" (36, 215). Göründüyü kimi burada ən mü-

hüm cəhət hikmət sayılır. Bunun üçün müəllif xalq hikmətlərini dövlətçilik işinə səfərbər edir, onların əsasında bu mükəmməl əsəri yazır. Heç şübhəsiz ki, Nəsirəddin Tusi Şərqin müdrik bir şəxsiyyəti idi və onun yazdığı yuzə qədər əsər də xalq yaradıcılığının müdriklik çeşməsindən qaynaqlanır. Əslində o, özünəqədərki əxlaqi dəyərləri və dövlətçilik düşüncələrini bir məcmu halına gətirib, sistemləşdirib və mükəmməl bir əsərə çevirib. Onun Şərqdə və türk dünyasında çox geniş yayılmış xalq lətifələrinin qəhrəmanının prototipi olması ehtimalı da təsadüfi deyil (38,118;39,219; 40,16; 41;42 və b.). Çünki Tusi Şərqin Farabi, Biruni, İbn Sina, Bəhmənyar kimi dahi mütəfəkkirlərindən biri idi.

Tədqiqatlara görə, "adı dillər əzbəri olan Molla (xoca) Nəsrəddin mənşəsiz olub bu qədər şöhrətlənə bilməzdi. Bu şöhrətli şəxsin adındakı "Nəsrəddin", şübhəsiz XIII əsrdə Xacə Nəsrəddin Tusidən başqa bir adamla bağlı deyildir. Müəllif göstərir ki, Xoca Nəsrəddinə istinad edilən alimlik, məşhurliq, hazırcavablıq və s. bu kimi yüksək sifətlər məhz Xacə Nəsrəddin Tusidə vardır. O da istedadlı münəccim, ağıllı dövlət xadimi, hazırcavab müəllim, xalqın hörmətini qazanmış alimlər alimi və hikmət sahibi filosof idi. Yalnız belə bir məşhur şəxsiyyət ağızlara düşə bilər və gözəl-gözəl lətifələrin sahibi kimi qələmə verilə bilərdi" (39,219). Məmmədağa Sultanovun bu fikirləri Təhmasib Fərzəliyev tərəfindən bir daha diqqətə çatdırılır. Oxşar fikirlərə M. Təhmasibin araşdırmalarında da rast gəlinir (40,16). Məhz lətifələrin özündən çıxış edən M. Təhmasib yazır: "Bizcə Molla Nəsrəddin lətifələrinin əsası XIII əsrdə onun prototipi olan Mövlanə Xacə Nəsrəddin Tusi ilə əlaqədar olaraq yaranmışdır" (40,16).

## “OĞUZNAMƏ”LƏRDƏ DÖVLƏTÇİLK

Türk dövlətçilik ənənələri orta əsrlərdə geniş yayılmış “Oğuznamə”lərdə də əks olunub. Məlumdur ki, “Oğuznamə” oğuzların kitabı deməkdir. Bu kitab orta əsrlər oğuz ənənəsinə uyğun olaraq özündə zəngin folklor irsini əks etdirir. Bununla yanaşı bu kitablarda oğuzların dövlətçilik tarixləri və ənənləri də geniş yer alır. Əski “Oğuznamə”lərdən biri haqqında “1309-1340-cı illərdə Misirdə yaşamış oğuz-səlcuq mənşəli Əbubəkr ibn Abdullah ibn Aybək əd-Dəvadari özünün ərəb dilində yazaraq 1309-cu ildə tamaladığı “Dürər ət-tican və təvarix qürər əz-zəman” (“Şöhrətləndirilmişlərin tarixindən bir inci”) adlı kiçik həcmli tarix əsərində məlumat verir və ilk dəfə “Oğuznamə” sözünü də o işlədir. Onun göstərdiyinə görə Sasani hökmdarı Ənuşirvanın (hakimiyyət illəri: 531-573) Mərvdən Buzurq Mihr Baxtanq Farsiyə məxsus orta fars dilində yazılmış həmin kitab Əbu Müslüm Xorasaninin (755- ci ildə öldürülmüşdür) xəzinəsindən tapılmışdır. Aybək Dəvadarinin haqqında danışdığı əsər çox güman ki, türkcə yazılmış bir qəhrəmanlıq dastanı olmuş və 826-cı ildə Bağdadda yaşayan suriyalı həkim Cəbrayıl Bəhşi tərəfindən ərəb dilinə tərcümə olunmuşdur. Həmin nüsxədən istifadə edən Aybək Dəvadari kitab haqqında yazır: “Mən istəyirəm bu tayfanın (türklərin – İ.O.) haradan gəldikləri və onların sələfləri haqqında bunların özlərinin doğma dillərində (uyğur dilində) yazılmış “Ulu xan Ata Bitiqçi” adlı kitablarına əsaslanaraq danışım. Bunun adının mənası “Böyük hökmdar- Ata haqqında kitab” deməkdir. Bu elə bir kitabdır ki, qədim türklərdən monqollar və qıpçaqlar bununla sevinir və məmnun olurdular, bu kitabın onların yanında böyük hörməti vardı. Həmçinin digər türklərin “Oğuznamə” adlı bir kitabları vardır. Onu əldən-ələ gəzdirirlər. Onda onların başına gələn rəvayətlər və ilk hökmdarları haqqında məlumat vardır” (43, 5-6). F. Ba-

yata görə, "Oğuznamələrin tarixi xronikalarda geniş yer alması, daha doğrusu salnamələrin özündə mifik səciyyəli Oğuz şəcərəsini əritməsi, oğuznamə motivlərinin türk mədəniyyətində eninə və dərininə yayılmasını göstərir. Türk dastan ənənəsinin tarixi xronikalara keçməsi, epik yaradıcılığın "tarixləşməsi" etnokulturoloji baxımdan eyni informasiyanın müxtəlif yönlərdən təqdimi idi. Bu informasiyanın özəyində fütuhatçılıq ideyası dururdu. Oğuznamə motivlərinin türk epik ənənəsində geniş yayılmasına səbəb də bu idi" (4,5-6). K. V. Nərimanoğlu və F.Uğurlu "Oğuznamə"ni böyük bir mədəniyyət hadisəsi kimi səciyyələndirərək bu şəkildə xarakterizə edirlər:

"Oğuznamə – türk xalqının həyatını, mübarizəsini, mənəviyyatını əks etdirən ədəbi-tarixi qaynaqdır.

Oğuznamə – oğuz eposudur.

Oğuznamə – oğuz tarixidir.

Oğuznamə – oğuz mədəniyyətinin nəsildən keçə-keçə yaşayan həyat kitabıdır" (56,3). Oğuznamələrin materialını təşkil edən atalar sözləri, əfsanə və rəvayətlər özlərində dövlətçilik ənənlərini daşıyan zəngin məlumata malikdir. Burada mif və tarix bir-birinə qovuşmuş, gerçəklik əfsanələşmişdir. Amma bu əfsanəvi tarix oğuzlar tərəfindən yaşadılmış və orta əsrlərin sonlarında da gerçək bir tarix kimi qəbul olunmuşdur. Buna Əbül Qazi xan Xivəlinin "Şəcəreyi tərakimə"sində də rast gəlirik. Oğuz dövlət başçıları öz nəsil şəcərələrini Nuh peyğəmbərdən, əfsanəvi Oğuz xandan və onun böyük oğlu Gün xandan başlayırlar. Məlumdur ki, XI əsr oğuzların dövlətçilik tarixlərində mühüm bir dövrdür. "XI əsrdə Azərbaycana gəlmiş oğuzlar burada kifayət qədər kompakt yaşayan türkdilli yerli əhali ilə qarşılaşdılar. Gəlmə oğuz-qıpçaqların artıq Azərbaycanın əsl əhalisinə çevrilmiş Hun mənşəli türklərlə etnik yaxınlığı çoxsaylı faktlarla təsdiqlənir. Məsələn, tarixi əsərlərdə və eposda Oğuz xanın Hun hökmdarı Mete ilə

eyniliyi haqqında çox deyilmişdir. Oğuzların 12 sağ, 12 sol ( yaxud İç və Daş oğuzlar) qanada bölünmüş 24 oğuz tayfası hunların bölgüsünə (tümənbaşı ümumi adını daşıyan 24 hun ağsaqqalı) tam uyğun gəlir. Şərq tərəfin knyaz və başçıları Şərqdə, Qərb tərəfin knyaz və başçıları Qərbdə yerləşmişdilər. S.P.Tolstov belə hesab edir ki, hun tarixi ənənəsi X-XI əsrlərdə onların xələfləri olan oğuz tayfaları tərəfindən qəbul edilmişdi" (45, 14-15). Bu ənənənin davam etdirilməsi "Oğuznamə"lərdə (56;57;58) tam aydınlığı ilə görünməkdədir. Tədqiqatlarda oğuzların mifoloji əcdadı Oğuz xan haqqında müxtəlif fikir və mülahizələr mövcuddur (46; 47; 48; 49; 50; 51 və b.). Bu tipli araşdırmalar əsasən tarix və folklor münasibətləri çərçivəsində aparılır. Folklorşünas alim B. Abdulla Oğuz xanla bağlı fikirləri belə ümumiləşdirir: " N.Y. Biçurin xeyli araşdırma aparmaqla hökm vermişdir ki, Mete ilə Oğuz xan elə bir adamdır. Ziya Göyalp Oğuz xanı gah Mete, gah da "Kitab"ın ( Kitabi Dədə Qorqud nəzərdə tutulur – A.X.) birinci boyundakı Dirsə xanın oğlu Buğac bilmişdir. Ə. B. Ərcilasun da bu fikrə tərəfdar durmuşdur. Böyük türkoloq V.V. Rodlovun fikrinə görə, maniliyi öz dövlətinin rəsmi dini səviyyəsinə ucaldan Begü Teqin, yaxud Begü Xaqan gerçək olaraq elə Oğuz xandır, R. Nura görə, Oğuzun mənası "öküz"dür, yunan hökmdarı İsgəndər Zülqərneyn (qoşabuynuzlu) də buynuzludur. Deməli, Oğuz xan Makedoniyalı Filippin oğlu İsgəndərdir ki, var. Q.N. Potanin Oğuz xanla monqol əfsanələrində adı keçən Kirey xanla, Uxur-Bama xan arasında oxşarlıq, uyğunluq aramışdır. Alman şərqşünası İ. Morquart Oğuz xanı Çingiz xanla bir bilmişdir" (36, 5-6). F. Bayata görə, "cahan dövləti qurmaq ideyası Oğuz adı ilə bağlı olub türk mədəniyyətində bir neçə dəfə müxtəlif tarixi və mifoloji obrazlara transformasiya olunub. Bu baxımdan Çin mənbələrinin təqdim etdiyi Mete kompleksi türk-islam salnaməçilərinin oğuznamələrinə tam adekvatdır. Oğuz-Mete para-

lelliyi hər şeydən əvvəl Metenin də cahan dövləti qurması, hunların xilaskarı olması, hun ordu, inzibati, idarə institutlarının yaradıcısı kimi verilməsi ilə ilişgilidir. Belə bir yaxınlıq N.Biçurinə Mete ilə Oğuzu eyniləşdirməyə imkan vermişdir, çünki türklərin xilaskarı və el quran hökmdarları bu və ya digər dərəcədə Oğuza bənzəyirdi və ya bənzədilirdi" (4,6). Məlumdur ki, Oğuz xan oğuz türklərinin mifoloji əcdadı, soybaşçısıdır. Oğuz dövlətçiliyi də Oğuz xandan başlanır. Bu özünü hökmdar nəslinin şəcərələrində də göstərir. Oğuzların tarix səhnəsinə çıxdıqları zamandan Oğuz haqqında əfsanə və rəvayətlər də yaranmışdır. Yazı mədəniyyəti dövründə isə oğuz tarixi folklor yaddaşından yazıya alınmışdır. Bu səbəbdən də bu əfsanəvi bir tarixi xatırladır". Mövcud elmi fikrə görə əski çağlardan Oğuz dastanları şərq (Türkistan, Uzaq Şərq) və qərb (Azərbaycan və Ön Asiya) variantlarında mövcud olmuşdur. Bu variantlardan biri bizə qədər N.Biçurinin tərcüməsində gəlib çatan Çin qaynaqlarının Mete haqqında verdikləri yarıtarixi əfsanədir. Qərb variantına "Oğuz kağan" dastanı, Rəşidəddinin (XIV əsr), Yazıçıoğlu Əlinin (XV əsr), Hafiz Abrunun (XV əsr), Mahmudoğlu Həsən Bayatlının (XV əsr), Xandəmirin (XVI əsr), Salır Baba Qulalı oğlunun (XVI əsr), Əbül Qazinin (XVII əsr) və b. tarixçilərin əsərləri daxildir" (4,7). Fəzlullah Rəşidəddinin "Oğuznamə"si yazılı mənbələrdən götürülmüşdür. "Fəzlullah Rəşidəddin Həmədani Qazan xanın (hakimiyyət illəri: 1295-1304) əmri ilə 1300/01-ci ildə yazmağa başladığı "Cami ət-təvarix" (Tarixlər toplusu) adlı məşhur əsərini Olcaytu xan (hakimiyyət illəri: 1304-1316) dövründə – 1310-cu ildə tamamladı" (43, 6). Rəşidəddinin "Cami ət-təvarix" əsəri iki hissədən ibarətdir. Birinci hissə monqolların, ikinci hissə isə türklərin tarixinə həsr olunmuşdur. Əsər Hülakilərin zamanında və onların sifarişi ilə hazırlandığından monqol tarixi əvvəldə verilmişdir. "Oğuzların və türklərin tarixi" adlı hissədə Oğuzun doğulması,

uşaqlığı, Tanrıya iman etməsi, evlənməsi və zəfər yürüşləri nəql olunur. Eyni zamanda oğuz cəmiyyətinin sosial strukturu, mərkəzi hakimiyyət və onun qolları, tamqa və onqonları, yəni əski dövlət rəmzləri haqqında müfəssəl məlumatlar verilir. "Cami ət-təvarix"də oğuzların mənşəyi fəslində yazılır ki, 24 bou bərabər sayda olmaq üzrə Oğuz xanın altı oğlundan törəmişdir. Ancaq daha diqqətəlayiq cəhət budur ki, damğaları ayrı-ayrı olduğu halda hər dörd boy bir müştərək onqona malikdir. Bu fakt 24 oğuz boyunun da qədim zamanlarda altı boy halında yaşadığını göstərir. Bu altı onqonun hamısı meşə zonalarında yaşayan yırtıcı quşlardır" (2,28). Hakimiyyətin mütənasib şəkildə bölgüsünü humanist dövlətçilik ənənələri ilə əlaqələndirən T.Hacıyev bu dəyərlərə yüksək qiymət verərək yazır: "Qədim türk cəmiyyətində kamil humanizm təsadüfi deyil. Bu, mükəmməl dövlətçiliklə bağlıdır. Təsəvvür edək ki, kapitalizmin yaranması zamanı parlament idarə üsulunu yüksək demokratiya faktı kimi qiymətləndirirlər. Bu parlamentdə sağlar və sollar olur ki, demokratizmi şərtləndirən də bu palatalar arasındakı ictimai-sosial "duetlərdir". Buyurun qədim Oğuzda həmin iki palatalı sistem – dibdə – ortada seçmə (xas) bəylər, sağ tərəfdə sağlar, sol tərəfdə sollar, eşikdə də qaydaya-intizama nəzarət edən yaxınlar:

Sağda oturan sağ bəylər,
Solda oturan sol bəylər,
Eşikdki inaqlar,
Düpdə oturan xas bəylər" ( 52, 93).

Oğuzların "Cami ət-təvarix" də verilmiş əfsanəvi tarixlərindən dövlətə başçılıq edən yabqular haqqında məlumat var. Burada yabqulardan bir çoxunun adı çəkilmişdir. Yabqular qışda Sır-Dəryanın mənbəyi yaxınlığında yerləşən Yeni-Kənddə yaşayırdılar. Yabquların bizə məlum olan aşağıdakı məmurları vardı: sübaşı, yəni ordu komandanı. Səlcuq dövründə sübaşı ünvanı bölgələrin hərbi valilərinə verilirdi. Yab-

quların yüksək məmuru Kül-ərkin idi. Kül-ərkin yabqunun naibi və ya vəkili deməkdir. Türkiyə səlcuqlarında bir səltənət naibliyi vəzifəsi mövcud olmuşdur. Bundan əlavə, türkmən hökmdarlarının, bəylərinin də naibləri olduğu məlumdur. Oğuz yabqu dövlətində tarxan və yınal ünvanlarını daşıyan şəxslər də olmuşdur. Lakin bunların sadəcə olaraq əsilzadə titulları, yoxsa məmur ünvanları kimi işləndiyi bilinmir. Türkiyə səlcuqlarında mövcud olan bəylərbəyi vəzifəsinin yabqular dövlətində olub-olmadığı məlum deyil (2,72).

Yabquların möhür və fərmanlarına tuğraq (tuğra) deyilməsi haqqında məlumat vardır. Sonralar Səlcuq dövlətində tuğralıq (nişançılıq) adlı bir məmur vəzifəsi də olmuşdur. Oğuzların divanı, vergi yığan məmurları, orduda ovçubaşı, əmir-axur kimi məmurları, çavuşları (təşrifat məmurları), bəkçiləri (mühafizəçilər) olması haqqında da bilgilər verilir (2,72). O da məlum olur ki, "oğuzlar işlərini məclislər quraraq məsləhət (gənəşmə) yolu ilə həll edərdilər. Oğuz sübaşısı Ətrək tarxan, yınal kimi oğuz başçılarını çağıraraq xəlifənin nümayəndə heyətinə qarşı necə davranmaq barədə onlarla məsləhətləşmişdi. Oğuz yabqu dövləti X əsrin birinci yarısında müstəqil və qüdrətli bir dövlət idi. O heç bir zaman bu və ya digər dövlətə, qövmə tabe olmamışdır" (2,72-73). Türk dövlətçiliyi islam dönəmində yeni keyfiyyətlər qazanır. Burada bəy, xaqan, yabqu, xan deyil, sultan və əmirlər dövləti idarə edirlər. Padşah, vəzir, vəkil idarəçiliyi isə bundan sonrakı dövrlərə aiddir. Türkiyədə sultanlıq, Azərbaycanda isə şahlıq idarə sistemləri uzun müddət saxlanmışdır. Ağqoyunlular dönəmində dövlət başçısı bəy və ya padşah, Səfəvilər dövründə isə şah adlanırdı.

## “KİTABİ-DİYARBƏKRİYYƏ”DƏ DÖVLƏTÇİLİK

1470-1471-ci illərdə Əbubəkr Tehrani tərəfindən yazılmış “Kitabi- Diyarbəkriyyə” o dövrün iki Azərbaycan dövləti – Ağqoyunlu və Qaraqoyunlu dövlətləri haqqında məlumat verir və dövrün sosial-mədəni həyatını təsəvvürlərdə canlandırmağa imkan verir. “Kitabi-Diyarbəkriyyə” istər həcminə, istərsə də məzmununa görə Ağqoyunluların və bütövlükdə dövrün tarixinə dair ən mühüm və ən qiymətli mənbə kimi dəyərləndirilməlidir. Əvvəla, o, Ağqoyunlu sülaləsinin iki ən parlaq nümayəndəsinin, Ağqoyunlu dövlətinin qurucusu olan iki görkəmli tarixi şəxsiyyətin – Qara Yülük Osmanın (1403-1435) və Uzun Həsənin (1457-1478) siyasi və hərbi fəaliyyətini dolğun şəkildə əks etdirir. Yəni Ağqoyunluların təqribən bir əsrlik gerçək tarixinin səksən ili burada öz inikasını tapmışdır. Özü də bu zəngin məlumatları ehtiva edən material geniş tarixi fonda, Ağqoyunluların, Qaraqoyunlular, Teymurilər, Anadolu bəylikləri, Osmanlılar və Məmlüklərlə siyasi münasibətləri kontekstində verilmişdir. Digər tərəfdən, əsərin müəllifi Uzun Həsənin sarayında xidmət etmiş, necə deyərlər, birinci əldən informasiya almaq imkanına malik bir şəxs olmuşdur” (55,3). Əsərdə türk dövlətçiliyinin bir çox məqamları öz əksini tapıb. Burada verilən bəzi məlumatların Rəşiddəddinin “Cami ət-təvarix”indən götürüldüyü şübhəsizdir. Amma bununla yanaşı müəllif digər mənbələrdən də istifadə edib. “Kitabi Diyarbəkriyyə”nin bilavasitə giriş hissəsindən sonra gələn fəsli əsərin strukturunda özünəməxsus yer tutur. “Həzrəti Sahibqranın əcdadı və əsl-nəsəbi haqqında” adlanan və kitaba bir növ müqəddimə təsiri bağışlayan həmin fəsildə Ağqoyunluların rəsmi genelogiyası verilir. Əbubəkr Tehrani “mötəbər müəlliflərin etibarlı ravilərin yoxlanılmış və dəqiq məlumatlarına” istinad edərək, göstərir ki, Uzun Həsəndən “bəşərin atası” Adəm peyğəmbərə qədər yetmiş nəsil gedib

çıxır, yəni Uzun Həsən sülalənin yetmiş birinci nümayəndəsi kimi təqdim olunur” (55,18). Bu genelogiyada Bayandur xan Oğuzun oğlu Gün xanın oğlu kimi təqdim olunur. Rəşidəddinin verdiyi şəcərədə isə Bayandur Oğuzun oğlu Göy xanın oğludur. Burada müşahidə edilən bəzi dəyişikliklər təsadüfi olmayıb müəyyən məqsədə xidmət etmişdir. Çünki Orta əsr türk dövlətçilik ənənəsində soy, nəsil şəcərəsinin ciddi rolu olmuşdur. Yaddaşlarda yaşayan ənənəyə görə Oğuz xan hakimiyyətin varisliyini oğlu Gün xana və onun başçısı olduğu sağ qola və ya boz oqlara vermişdir. Buraya Gün, Ay və Ulduz xan daxildir. Oğuzun digər üç oğlu- Göy, Dağ, Dəniz isə sol qola və ya uç oqlara aiddir. Ali hakimiyyət bozoqlara vəsiyyət olunduğundan sonrakı şəcərələrdə hökmdarlar özlərini mütləq onlara bağlamağa çalışırdılar. Başqa halda hakimiyyətin legitimliyi şübhə altında qalırdı. Bu tipli şəcərə tərtibi bir növ norma halını almışdı. Çünki bu variant sonralar da başqa müəlliflər tərəfindən verilirdi. Məsələn, XVI əsrin sonu XVII əsrin əvvəllərində yazılmış “Qızılbaşlar tarixi”ndə (Tarixi-Qızılbaşan) Ağqoyunlulular barədə deyilir: “Bayandur xan ki, bu tayfa özünü onun nəsli hesab edir, Gün xan ibn Oğuz xanın oğludur və Oğuz xan Həsən padşahın əlli birinci babasıdır” (64,7). “Kitabi- Diyarbəkriyyə”yə görə isə Oğuz xan Uzun Həsənin əlli beşinci babası olaraq göstərilir. Həmin dövrdə digər türk sülalələri (Teymurilər, Qaraqoyunlular, Osmanlılar və s.) də bu bu cür yarımmifik şəcərələrdən istifadə edirdilər (55,19). Belə folklor-mifoloji məlumatla yanaşı Əbubəkr Tehrani Uzun Həsəni tamamilə real bir insan, müdrik və ədalətli dövlət xadimi, ağıllı və uzaqgörən siyasətçi, cəsur və şücaətli bir sərkərdə kimi təqdim edir, hətta onun ağır anlarını, o cümlədən, maddi çətinliklə üzləşdiyi çağları da qələmə alır, Buna uyğun olaraq, müəllif uzun Həsənin siyasi rəqibləri, xüsusən Cahanşah və Əbu Səid barədə təhqiramiz ifadələrə yol vermir, onlara kifayət qədər loyal və eh-

tiramla yanaşır. Uzun Həsən ilk dəfə Təbrizə daxil olarkən, Cahanşahın və onun övladlarının qəbrini ziyarət etməsini də müəllif, fikrimizcə, məhz öz düşüncəsinə və əxlaqına uyğun gəldiyi üçün yüksək sözlərlə təqdir edir" (55,15). Cənub şərqi Anadoluda Oğuz-türkmanların hakimiyyəti dövründə xalq ədəbiyyatı inkişaf edir. Əski ozan boyları, atalar sözləri və oğuz alpları hakkındakı ötgülər oğuznamələrə daxil olurdu. "Oğuzların qəhrəmanlıq dastanları dövlətçilik ideologiyasının məhsulu kimi meydana çıxdı. Bunu oğuzçuluq hərəkatı da təsdiq edir. Oğuzçuluq quru söz təbliğatı deyil, qopuzun sədaları altında ifa etdiyi dastanlaşmış bir təbliğat idi. Bu sənət əsərlərinin böyüklüyü də məhz ideoloji təməlin türkçülüyə, dövlətçiliyə dayanmasında idi" (4, 94). Oğuzdilli xalq ədəbiyyatının inkişafı, dastan şəklinin bu çevrəyə daxil olması, əfsanə, rəvayət, hekayət və mənqəbəvi tarixin qovuşuğunda yaranan oğuznamələrin yeni silsiləsinin meydana çıxması səlcuqlardan sonra sürətli bir xarakter almağa başlayır. Mifoloji məzmundan, əsatiri xatirələrdən başqa tarixi gerçəkləri də özündə əks etdirən yeni tipli dastanlar kütləşmiş yaddaşları oyadır, oğuzları türk törəsinə dayanan dövlət qurmağa ruhlandırırdı. Monqol yürüşləri oğuzçuluğun inkişafına təkan verdi. Bundan dolayı səlcuqlar dönəmində geniş yayıla bilməyən oğuzçuluq hərəkatı, köçəri maldar dövləti olan Elxanilər zamanında hərtərəfli qorundu. Bu zamandan da oğuz dastanlarının salnaməlaşmə ənənəsi başlandı (4, 94; 35, 800-801). Bu dövrün siyasi gerçəkliyinin folklorda izlərini müşahidə edən H.İsmayılovun yazdığına görə dönəmin mədəni prosesləri folklora da öz təsirlərini göstərir. Əfsanəvi xalq qəhrəmanı Koroğlunun ən yaxın silahdaşı kimi Dəli Həsənin folklor düşüncəsinə daxil olması, Əmir Teymurla xoş münasibətin Dəmirçioğlu adında əks olunması gerçəkliyin bədii qavranılmasından doğmuş özəl düşüncə modelləri kimi özünü göstərir. Diqqəti " Kitabi Dədə Qorqud"dakı Qazan xan haqqında

söylənmiş “Amit soyunun aslanı” ifadəsinə yönəldən müəllif qeyd edir ki, Qazan Elxaniləri simvolizə edir. Bizə gəlib çatan əlyazma da XV əsrə aid olduğundan məhz Amitin (Diyarbəkirin) himayəçisi kimi Qazan (və ya həmin ifadə- A.X.) bura daxil edilmişdir (35,801). Məlumdur ki, Diyarbəkir Ağqoyunlu dövlətinin paytaxtı olmuşdur. Amit də Diyarbəkirin əski adıdır.

Səlcuqlarla başlanan türk dövlətçilik ənənəsində fasilə yaranmır. Bunun davamı olaraq Ağqoyunlu və Qaraqoyunlu dövlətləri, Osmanlı imperatorluğu yaranır. Səlcuq oğuzlarının varisləri olan Oğuz-türkman bəyləri Qaraqoyunlu və Ağqoyunlu dövlətinin yerində Səfəvi dövlətini qururlar.

# XƏTAİ VƏ DÖVLƏTÇİLİK

1499- cu ildə İsmayılın rəhbərliyi altında başlanan şiə-qızılbaş hərəkatı Səfəvilərin əvvəlki çıxışlarından (Cüneud, Heydər, Soltan Əli) əhəmiyyətli dərəcədə fərqlənirdi. İ.P. Petruşevski yazırdı: ”Əgər Şeyx Heydər yalnız Azərbaycanı birləşdirməyi öz qarşısına məqsəd qoymuşdusa, İsmayılın müridlərinin və tərəfdarlarının məhz qonşu ölkələrdə fəal çıxışları onun qarşısında daha geniş vəzifələr qoydu. O, Azərbaycanı birləşdirdi (1502-ci il üçün) və öz hüdudlarına bir sıra ölkələri də daxil edə biləcək böyük şiə dövləti yaratmağa səy göstərən məsləkdaşlarının arzularını da yerinə yetirməyə məcbur oldu” (59,46). O.Əfəndiyev yazır ki, “hekayə üslubunda olan mənbələr qızılbaşlar hərəkatının ideologiyası, yəni onun iştirakçılarının ictimai və siyasi məramı haqqında mühakimə yürütməyə imkan vermir. Bu cəhətdən Şah İsmayıl Xətainin öz divanı (şeirlər külliyatı) böyük əhəmiyyət kəsb edir... Xətainin “Divan”ında öz əksini tapmış qızılbaş nəzəriyyəsinə görə, Xəlifə Əli Allahdır və kim bunu qəbul etmirsə o, kafirdir. Məhəmməd yalnız peyğəmbərdirsə, Əli “Allah həqiqətinin təzahürüdür” (“məzhər-i həqq” dir). İsmayıl özünün Əli və Fatimədən başlanan “mənşəyi” ilə fəxr edir. O Əlidə ilahi mahiyyətin başqa şəklə düşdüyünə inanır. Əvvəlcə o, (İsmayıl) Allahla (Əli ilə) bir olmuş, indi isə onun simasında təcəssüm etmişdir” (59,47). Qeyd olunur ki, “o, bu dünyaya “Allahın nuru” (nuri xoda), “peyğəmbərlərin möhürü” (ənbiya xətmi), “kamil rəhbər” (mürşüd-i kamil), “aparıcı imam” (imam-i rahnemə), mütləq həqiqət-Allah (həqq-i mütləq) kimi gəlmişdir” (59,47). V.A.Qordlevskiyə istinadən O.Əfəndiyev yazır: “əhl-i həqq” (“həqiqət əhli”) təriqətinin təlimini nəzərdən keçirərək belə bir maraqlı nəticəyə gəlir ki, “mücərrəd fəlsəfi ideyalar yalnız xalq içərisində Əlinin ilahiləşdirilməsi formasında öz ifadəsini tapa bilərdi. Məlum olduğu kimi, XX

əsrə qədər Kiçik Asiyada ifrat şiə "Əli ilahi" ("əliallahilər", "Əlini ilahiləşdirənlər"), yaxud "əhl-i həqq" ("həqiqət əhli") təriqətinin tərəfdarlarını qızılbaşlar adlandırırdılar" (59, 47). Şah İsmayıl ilahiləşdirilmiş bir şəxsiyyət idi. Qızılbaşlar onu çox sevir, xalq ona xilaskar, imam Mehdi sahib əz-zaman kimi inanırdı. Xalqın ona olan sonsuz sevgisi və inamı onun hərbi yürüşlərdə qazandığı zəfərlərin əsas qüvvəsi idi. Şah İsmayıl bir çox əski türk dəyərlərini, dili, mədəniyyəti və dini milliləşdirmişdi. Türkcə rəsmi dil idi. Sufilik dövlətin ideologiyası səviyyəsinə yüksəlmişdi. Çünki qızılbaşlıq ideologiyasının əsasında dincə islam, məzhəbcə şiəlik, təriqətcə əhlihəqlik dayanırdı. Ölkənin problemləri bəylərin toplandığı şah divanında müzakirə olunurdu. Divan dövlətin parlamenti funksiyasını yerinə yetirirdi. Şah İsmayılın dövlətçiliyimiz və folklor irsimiz üçün göstərdiyi misilsiz xidmətlərdən biri də onun xalq mədəniyyətini, musiqisini, şeirini, sözünü və sənətini, dilini və inamını xalqın özünə qaytarması idi. Aşıq sənətinin təşəkkülü də onun adı ilə bağlıdır. Türk kökü və türk ruhu ustundə köklənmiş sazı da saraya o daxil edir.H. İsmayılova görə Şah İsmayılın divanı "baş divani" saz havası ilə açılıb, "ruhani" havası ilə bağlanarmış. Bu havanı Səfəvi dövlətinin himni də saymaq olar. Bu ənənə sonralar aşıqlar tərəfinədn məclislərdə davam etdirilir. Professor A. Attar türk tarixində Səfəvilərin yerini belə səciyyələndirir: "Səfəvi dövləti idari, əsgəri, siyasi, mədəni strukturuyla bir türk dövləti olmuşdur. Şərqi Anadolu, İran, İraq, Azərbaycan, Orta Asiyanın bir hissəsini içinə alaraq toplam 2 milyon kvadrat kilometrdən çox bir ərazini içinə alaraq Yaxın və Orta Şərqin mərkəzində bir imperatorluq qurmuş olan Səfəvilər 200 ildən çox bir müddətdə bölgənin tarixi taleyinə hökm etmişdir. Siyasi səviyyəsi nəzərə alındığından Osmanlı, Baburlu və Şeybanilərlə birlikdə dönəmin dörd böyük türk dövlətindən biri olmuşdur. Bu baxımdan bəzi Qərb tarixçiləri XVI əsrə

Türk Əsri adını verməkdədirlər. Səfəvilər dönəmində ilk dəfə türkcə İranda sarayda geniş şəkildə işlənmiş və bir xanədan dili səviyyəsinə gəlmişdir. Sənət sahəsində isə, özəlliklə rəsm və memarlığın ən böyük əsərləri bu dönəmdə yaradılmışdır. İsfahan o dönəmin ən böyük yadigarlarından biri olaraq canlılığını bu gün də qorumaqdadır. Türk milli dəyərləri önə çəkildiyindən İran bir türk ölkəsi halına gəlmiş və 1925- ci ilə qədər türklər bölgənin ən yetkin etnik qrupu kimi özünəməxsusluqlarını qorumuşlar. Bu gün də İranın əhalisinin önəmli bir hissəsinin türklərdən ibarət olması Səfəvilərin apardığı siyasət sayəsində gerçəkləşmişdir.Dolayısıyla, Səfəvi tarixi hər yönüylə türk tarixində bir zirvə olmuşdur" (60,1-2). Səfəvilər dövrünün folklor gerçəkliyi, Xətai yaradıcılığının folklorla əlaqələri və Şah İsmayılın xalq mədəniyyətinə verdiyi böyük önəm tədqiqatlarda yüksək qiymətləndirilir (61;62;63 və b.). F.Bayatın yazdığı kimi, oğuzçuluq ideologiyası nəticəsində Azərbaycanda və Ön Asiyada Qaraman bəyliyi, Qaraqoyunlu və Ağqoyunlu, nəhayət Səfəvilər dövləti kimi köçəbə - maldar prinsipli dövlətlər yarandı (4,94). Müəllifin müşahidələrinə görə Səfəvilərin təbliğ etdikləri şiəlik də əski türk şamançılığına çox yaxın idi... inamla demək olar ki, Şah İsmayıl şiəlikdə şamanlığı əridib, dövlətdə türk törəsini bərpa edirdi (4,95). "Göründüyü kimi, Xətai bütün siyasi və ədəbi şəxsiyyəti ilə Oğuz-Türk varlığından qopmuş, bu varlığın daşıyıcısı olmaqla onun mövcudluğu, yaşarılığı uğrunda mücadilə etmişdir. Mücadilənin etnopsixoloji mayasında oğuzçuluq dururdu. Oğuzçuluq isə bir ideologiya kimi Oğuz türklərinin ulu əcdadı Oğuz Kağanla bağlı oğuznamə mətnlərinə dayanırdı. Bu isə birbaşa olarak Oğuz türklərinin folklor yaddaşı, epos yaddaşı demək idi. "Xətai və folklor" münasibətləri ən geniş baxış müstəvisində "Xətai və epos (etnik yaddaş, etnoepik ənənə)" deməkdir (61, 260). Xətai və folklor münasibətlərini bu şəkildə xarakterizə edən S.Rzasoya görə "folk-

lor Xətai üçün bir tərəfdən hərəkət enerjisi aldığı etnoepik yaddaş, digər tərəfdən davranış formulları aldığı düşüncə qaynağı olmuşdur. Xətai Oğuz-türk törəsinə əsaslanan Azərbaycan etnopolitik varlığının qurulmasında davranış formullarını folklordan almışdır. Bu baxımdan, Xətainin dayandığı, söykəndiyi folklor onun təmsil etdiyi etnosun tarixi statusunda olmuşdur. Xətai öz politik, ictimai, ideoloji, təsəvvüfi-irfani, ədəbi, kültürəl fəaliyyəti ilə təkcə folklordan qidalanmamış, eyni zamanda folkloru qidalandırmışdır (onun adı epikləşmiş, dastanlaşmışdır)" (61, 260-261).

Xalqımızın yaddaşında yaşayaraq ən əski zamanlardan çağdaş dövrə qədər gəlib çatan dövlətçilik ənənəsi öz növbəsində milli ruhu və milli ideyanı folklorun sonsuz enerjisi hesabına qidalandırıb və artıq XX əsrin əvvəllərində mükəmməl bir ideologiya kimi formalaşıb. Ayrı-ayrı zamanlarda türkçülük, oğuzçuluq, islamçılıq kimi ictimai və rəsmi dövləti meyllər mövcud olmuşdur. Nəhayət bu meyllər mədəni türkçülük kimi meydana gəlir.

Mədəni Türkçülük öz prinsip və müddəalarını aşağıdakı istiqamətlər üzrə formalaşdırır:

Türk millətinin bütövlüyü, bir millət olmasının əsasını təşkil edən soykökün dərk olunması.

– Milli şüur və milli vicdanın aktivləşdirilməsi.

– Türk milləti və Türk dili anlayışlarının həm rəsmi, həm də kütləvi şəkildə qəbul edilməsi.

– Türk tarixinin vahid bir millətin tarixi kimi öyrənilməsi.

– Türk xalqlarının ortaq ədəbiyyatının yaradılmasını.

– Türk xalqlarının vahid əlifbasının qəbul edilməsi.

– Türk xalqları arasında mədəni əlaqələrin qurulması.

– Türkcənin sadələşdirilməsi, təmizlənməsi və inkişaf etdirilməsi.

XX əsrin əvvəllərində formalaşan bu ideyaya görə Turançılıq türkçülüyün son həddi sayılır. Bu hədəfə doğru gedən yolu türkçülük fikrinin böyük mütəfəkkirlərindən biri olan Z.Göyalp üç mərhələdə görürdü: Türkiyəçilik, Oğuzçuluq, Turançılıq. Siyasi türkçülük isə müstəqil türk dövlətlərinin yaradılmasını nəzərdə tuturdu. O dönəmdə Azərbaycanda Məmməd Əmin Rəsulzadə, Türkiyədə Mustafa Kamal Atatürk, Krımda Seyidəhməd Krımər türkçülüyün siyasi məfkurəsini, ideoloji əsaslarını hazırlayan böyük liderlər idi.

Bütün türk dünyasında tanınan və türkçülük ideyasını hazırlayan və yayan görkəmli ideoloqlar isə Azərbaycanda Əli bəy Hüseynzadə, Krımda İsmayıl bəy Qaspıralı, Türkiyədə Ziya Göyalp olmuşdur. Türkiyədə cümhuriyyətin qurucusu Atatürkün yaratdığı ideoloji sistem özündə bunları ehtiva edir: cümhuriyyətçilik, millətçilik, dövlətçilik, dünyəvilik, inqilabçılıq, xalqçılıq. Atatürk milli ideoloji görüşlərini belə ifadə edirdi: "Biz Türk millətiyiz. Bunu bilməliyiz ki, milli mənliyini bilməyən millətlər başqa millətlərə yem olur. Bir millətin ruhu zəbt olunmadıqca, o millətə hakim olmaq imkanı yoxdur (53, 78-79). Azərbaycan Xalq cümhuriyyəti dövründə rəsmiləşmiş Azərbaycan milli ideologiyası türkçülüyü, islamlığı və müasirliyi özündə birləşdirir. Bayrağımızın göy rəngi türklüyümüzü, qırmızı rəngi müasirliyimizi, yaşıl rəngi isə müsəlmanlığımızı rəmzləşdirməkdədir.

## AZƏRBAYCANLILIQ VƏ AZƏRBAYCANÇILIQ

Azərbaycanın sürətli iqtisadi inkişaf dinamikası sosial-mədəni institutların, milli-mənəvi dəyərlərin aktivləşdirilməsi, cəmiyyətin sabitliyi və həmrəyliyinin daha optimal təşkili üçün əlverişli şərait yaradır.Belə şəraitdə cəmiyyət daha çox milli-mənəvi dəyər konseptini özündə ifadə edən milli ideya ətrafında birləşir. Cəmiyyətin daha sağlam mənəvi əsaslarla birliyinə nail olmaq üçün ümummilli lider Heydər Əliyevin başladığı milli inkişaf strategiyası Azərbaycan Respublikasının Prezident İlham Əliyev tərəfindən ardıcıl və sistemli şəkildə davam etdirilir və konseptual əhatəsini genişləndirir. Humanitar elmlər də öz növbəsində cəmiyyətin sabit və davamlı inkişafının sosial-mədəni əsaslarını möhkəmləndirmək üçün ardıcıl araşdırmalar aparırlar. Müəyyən edilir ki, Azərbaycanda milli ideya zəngin inkişaf yolu keçib və vətən konsepti üzərində sabitləşərək Azərbaycançılıq adı altında identifikasiya olunmuşdur.Bu baxımdan Azərbaycançılıq özünün səciyyəvi cəhətləri ilə milli ideyanın Azərbaycan modelini əks etdirməkdədir. Akademik Ramiz Mehdiyevin “Bakinski raboçi” qəzetinə verdiyi müsahibədə Azərbaycan milli ideyasının keçdiyi tarixi yol təhlil edilmiş, müasir cəmiyyətin qarşısında duran perspektiv inkişaf təmayülləri araşdırılmışdır. Müsahibədə, əsasən, milli ideyanın yaxın keçmişə aid olan dövründən bəhs olunur və azərbaycançılıq ideyasının formalaşmasının xarakterik xüsusiyyətləri aydınlaşdırılır.

Qeyd edim ki, müsahibə geniş bir tədqiqatın nəticələrini özündə ehtiva edir və daha çox müasir cəmiyyət quruculuğunun, sosial-mədəni, ideoloji və mənəvi aspektlərini nəzərdə tutur, perspektiv inkişafın prioritetlərini müəyyənləşdirir.

Müasir fəlsəfi araşdırmalarda milli ideyanın struktur komponentləri həm diaxron, həm də sinxron planda araşdırılmışdır. Buradan görünür ki, milli ideya azərbaycançılıq

mərhələsinə qədər dövrdən və şəraitdən asılı olaraq etnik və dini komponentin özünüidentifikasiyanın əsas forması kimi dominant mövqelərini dəyişərək inkişaf etmişdir.

Milli ideyanın keçmişdə də strukturu təkkomponentli olmamışdır. Qədim türklər üçün Tanrıçılıq əsas mənəvi qaynaq rolunu yerinə yetirmiş və toplumu birləşdirən dominant element olmuşdur. Türk fütuhat ideyasının əsasında da tək Tanrı ideyasını yaymaq kimi bir missiya dayanmışdır. Etnik komponent olan türklük (VI-XI əsrlər), oğuzluq (XI-IV əsrlər), türkmanlıq (XIV-XVI əsrlər), müvafiq olaraq türkçülük, oğuzçuluq və türkmanlıq kimi ideoloji təmayülləri üzündə ehtiva etmiş, XVI-XVIII əsrlər təsəvvüf dövrünün dini-mistik ideyalarının cəmiyyətdə dominant ideoloji mövqeyə keçməsi ilə məzhəb (şiəlik) və təriqətin (səfəvilik) sintezində qızılbaşlıq ideologiyası formalaşır. Bu ideologiya özünüidentifikasiya forması kimi qeyri-türk elementini də vahid ideyada birləşdirir və milli kimlik şüurunun aktiv hissəsinə daxil edir. Şiəlik, səfəvilik və qızılbaşlıqdan keçən milli kimlik düşüncəsi XIX əsrdə din komponentinin aktivləşməsi ilə müsəlmanlıq formasında özünün ifadəsini tapır. Bu komponent toplumun hər bir üzvünü "Məhəmməd ümməti" kimi ümumi bir kateqoriyada birləşdirir. Bu tipli dini komponent cəmiyyətin qeyri-müsəlman hissəsini identifikasiya edə bilmir. Beləliklə, cəmiyyət həm etnik, həm də dini komponentin dominant olduğu dönəmdə ideyasını maksimum səviyyədə milliləşdirə bilməmişdir.

Orxon-Yenisey yazılarında oxuduğumuz Türk bodun (Türk xalqı), "Oğuznamə"lərdə Oğuz eli (oğuz xalqı), Ağqoyunlu və Qaraqoyunlu dövlətləri dönəmində "türkman", Səfəvi səltənətində "qızılbaş", daha sonra "müsəlman ümməti" və s. kimi anlayışlar da bu tarixi-mədəni gerçəkliyi göstərməkdədir. Bunların hər biri özünüidentifikasiyanın müəyyən mərhələ üçün aktiv komponenti rolunu yerinə yetirmişdir. Bu prosesdə etnik və dini komponentin birinin digərini üs-

tələməsi müşahidə olunur. XIX əsrin əvvələrində Azərbaycanın bir hissəsinin Rusiya tərəfindən işğal olunmasından sonra bu ölkənin xalqı daha çox özlərini müsəlman kimi identifikasiya edirlər və toplum olaraq "ümmət" kimi birləşirlər. İşğalçı yad idarəçilər tərəfindən isə onların tarixi nifrət duyğusu ilə xatırladıqları "tatar" adı ilə adlandırılırlar. Milli-mənəvi dəyərləri ləkələyən Rus müstəmləkə rejimi bir çox institutları, o cümlədən zadəganlığının spesifik türk variantı olan "bəyliyi" deformasiyaya uğradaraq sıradan çıxartdı. Azərbaycan cəmiyyətinin sosial strukturunda çox ciddi yeri olan bəyliyin iflası baş verir və dərəbəylik başlanır. Bu da toplumu etnik-mənəvi enerjidən məhrum edir və milli ideyanın əsas etnik komponentini kökündən zədələyir.

XIX əsrin müstəmləkə rejimində zadəganlıq institutu mövqeyini itirdikdən sonra "ruhani" institutunun aktivləşdirilməsi baş verir. Cəmiyyətin dünyəvi işlərinə daha çox müdaxilə nəticəsində ruhani institutu da özünün mövqeyini itirir. Bu dönəmdə cəmiyyətin içində əsas söz sahibi "riyakar müsəlman" zümrəsi olur.

XIX əsrdə Avropa və Rusiyanın universitetlərində təhsil alan azsaylı Azərbaycan ziyalılarının başladıqları maarifçilik hərəkatı Azərbaycanda mütərəqqi hadisələrin, mədəniyyətdə, ədəbiyyatda və ictimai fikirdə pozitiv təmayüllərin əsasını qoyur. Azərbaycançılıq milli ideyasının ilkin rüşeymləri də bu ziyalıların başladığı fəaliyyətin nəticəsində yaranır. XX əsrin əvvəllərində hələ milli ideya etnik komponent olan türkçülükdən və dini komponent olan müsəlmanlıqdan ibarət olmaqla cəmiyyəti birləşdirən vahid bir konseptə çevrilməmişdi.

Azərbaycançılıq ideyası ilk olaraq Azərbaycan xalq Cümhuriyyətinin qurucuları tərəfindən vahid milli ideya kimi təklif olundu. Bu zaman cümhuriyyətin qurucuları millət və milliyyət anlayışlarını fərqli kateqoriya olaraq şərh etdilər. Çoxlu milliyyətlərin yaşadığı Azərbaycanda Azərbaycançılıq

millət ideyası kimi təklif olundu. Burada əsas yenilik vahid məkan kateqoriyasının özünüidentifikasiya vasitəsinə çevrilməsi, vahid vətən anlayışının milli ideyanın struktur komponenti kimi dominant mövqedə təqdim olunması idi. İki illik Cümhuriyyət dönəmində çox işlər görülsə də belə mühüm və əhəmiyyətli ideyaların cəmiyyətdə sabitləşməsi üçün zaman kifayət etməmişdi. Ona görə də bu ideya cəmiyyətin ziyalı hissəsini əhatə edə bilmiş və ümumxalq düşüncəsində özünə yer tuta bilməmişdi. Sovet dönəminin "sovet milləti" ideyası kifayət qədər milli əsaslardan məhrum və süni xarakterli olduğundan cəmiyyətdə özünü təsdiq edə bilmədi. Cümhuriyyət dönəmindən başlanmış və axıradək reallaşmamış Azərbaycançılıq ideyası ümummilli lider Heydər Əliyev tərəfindən müstəqil Azərbaycan dövlətinin əsas milli ideyası kimi qəbul edildi və 1993-2003-cü illər arasında cəmiyyətdə sabitləşdi. Azərbaycanlılıq özündə vahid vətən anlayışını və vahid sosial-mədəni dəyərlər sistemini ehtiva etməkdədir. Etnik komponent, Azərbaycan xalqının bütün tərkib hissəsi milli varlığı zənginləşdirən dəyərlər kimi anlaşılır. Polietnik tərkib mədəniyyət zənginliyi kimi özünü göstərir və vahid Azərbaycan mədəniyyətinin əlvanlığını təmin edən vasitələrdən biri kimi çıxış edir.

Milli ideyanın cəmiyyətdə inkişaf dinamikasını izləyən akademik haqlı olaraq qeyd edir ki, "Müasir milli ideyanı zənginləşdirən odur ki, vətəndaş özünü dövlətin bir hissəsi hesab edir, özündə dəyişikliklər üçün qüvvə görür, güclü dövlətin və güclü, iradəli liderin varlığına ehtiyac duyur". Burada ifadə olunan fikirdə vətəndaş, dövlət və lider sosial-mədəni kateqoriya kimi özünü cəmiyyətin müasir reallığı kontekstində bir-biri ilə üzvi əlaqədə və vəhdətdə olan vahid tamın və bütövün tərkib hissələri kimi təsdiq edir. Belə qarşılıqlı əlaqə və vəhdəti təmin edən sosial-mənəvi münasibətlər sisteminin inkişaf dinamikasını, perspektivlərini və prioritetlərini öyrən-

mək ictimai və humanitar elmlərin üzərinə ciddi məsuliyyət qoyur. Çünki, akademikin də qeyd etdiyi kimi, "Millətin öz strateji inkişaf proqramı, milli ideyası-dövlətin və millətin mövcudluğunun mənası, inkişafın məqsədləri və prioritetləri olmalıdır". Bunların müəyyənləşməsində ictimai-humanitar elmlər, o cümlədən millətin mənəvi dünyasını öyrənən, milli ideyanın mənəvi qaynaqlarını araşdıran Folklor İnstitutu da aktiv iştirak etməlidir.

Dərin təhlillər və araşdırmalardan əldə edilən nəticə belə ifadə olunur: "Kollektiv özünüidentifikasiya forması kimi etnik komponentin prioritet kimi müəyyən edilməsi və onun bazis komponent kimi milli ideyanın yeganə forması kimi təklif edilməsi neqativ nəticələr doğurmuşdur. Azərbaycan millətinin formalaşması təcrübəsinin vahid, bütöv sosial-siyasi orqanizm kimi onun tərkibinə daxil olan bütün etnoslar kontekstində öyrənilməsi humanitar elmimizin qarşısında duran ən mühüm vəzifədir. Biz milli prinsiplərin yeni komponentləri haqda, milli mədəniyyətin kənar hücumlardan, daxili zəifləmə və dağılmadan müdafiəçisi kimi vətəndaş millətçiliyi haqda açıq danışmaqdan çəkinməməliyik. Azərbaycan milləti Azərbaycan ərazisində yaşayan bütün etnosların tarixi yolunun vəhdətini əks ertdirən qaynar qazan kimi formalaşmışdır. Burada güclü türk təməli ilə yanaşı İran, ərəb başlanğıcları, alban layı, digər qədim etnoslar mövcud olmuş, onlar əsrlər boyu təbii şəkildə vahid xalq kimi assimilyasiya olmuş, azərbaycanlıların milli identikliyinə xas cizgilər, komponentlər kəsb etmişlər. Qətiyyətlə demək olar ki, hər bir azərbaycanlı müasir Azərbaycanın ərazisində yaradılmış qədim dövlətlərin varisidir. Azərbaycanlıların damarlarında bizim bu qədim əcdadlarımızın da qanı axır. Bu, reallıqdır".

Azərbaycançılıq ideyasının müasir cəmiyyətimizə uğurlu tətbiq modelinin müəllifi ümummilli lider Heydər Əliyevin azərbaycançılığa verdiyi tərif belədir: "Azərbaycançılıq öz

milli mənsubiyyətini qoruyub saxlamaq, milli-mənəvi dəyərlərini qoruyub saxlamaq, eyni zamanda onların ümumbəşəri dəyərlərlə sintezindən, inteqrasiyasından bəhrələnmək və hər bir insanın inkişafının təmin olunması deməkdir".

Buradan belə bir nəticə çaxarılır ki, "Kim özünü azərbaycanlı kimi hiss edirsə, o, azərbaycanlı sayıla bilər" tezisi təkcə azərbaycanlılar kimi doğulanlar üçün deyil, həm də etnik bağlılığı olmadığı halda bu ölkənin vətəndaşları olanlar üçün aktualdır. Son illərdə Azərbaycan bütün azərbaycanlıların Vətəninə çevrilmiş və universal dəyərlərin daşıyıcısı statusu qazanmışdır".

Müasir cəmiyyətdə gedən innovasiyalı modernləşmə Azərbaycanı dünyanın qabaqcıl ölkələri sırasına çıxarmaqdadır. Heydər Əliyevin strateji inkişaf konsepsiyasını uğurla tətbiq edən Azərbaycan Respublikasının prezidenti İlham Əliyev ölkəni uğurla gələcəyə doğru aparır.

Ölkədəki inkişaf dinamikasını fəlsəfi təhlildən gəlinən nəticədə qeyd olunur ki, "Bu illər ərzində milli ideya milli müstəqillik – suveren dövlət formulunda qəti inkişaf mərhələsinə çatmışdır. Bu gün azərbaycanlılar minilliklər boyu bu ərazidə mövcud olmuş bütün dövlətlərin və orada məskunlaşmış xalqların obyektiv xələfləri və varisləri olan Azərbaycan Respublikasının vətəndaşlarıdır. Etnik müxtəliflik Azərbaycan xalqının zəngin sərvətidir. Bu sərvəti qorumaq lazımdır. Azərbaycançılıq ideologiyasının təməli olan güclü birləşdirici başlanğıc hər bir vətəndaşın öz vətəninə görə keçmiş və gələcək nəsillər qarşısında məsuliyyət daşıyıcısı olması üçün əlverişli şərait yaradır". Prezident İlham Əliyev elə siyasət həyata keçirir ki, orada milli ideya özündə həm siyasi məkanın demokratikləşməsini, mütərəqqi və hərtərəfli iqtisadi inkişafı, dünya birliyinə inteqrasiyanı, həm də milli ruhu və özünəməxsusluğu qoruyub saxlamağı ehtiva edir.

Akademik müsahibəsində 2004-cü ildə Prezident İlham Əliyevin söylədiyi bu fikri də diqqətə çatdırır: "İqtisadi artım və cəmiyyətin demokratikləşdirilməsi siyasətimizin əsas elementləridir, bunların biri olmadan digəri mümkün deyildir. İqtisadi cəhətdən güclü olmaq olar, lakin əgər demokratiya, şəffaflıq yoxdursa, insan hüquqları qorunmursa, uğur gözləməyə dəyməz".

Hazırda Azərbaycanda milli inkişaf strategiyası Azərbaycançılıq üzərində qurulur. Bu strategiyada müasir cəmiyyətimizi mənəvi cəhətdən inkişaf etdirmək və milli varlığı dünyada gedən neqativ təmayüllərdən qorumaq, vahid Azərbaycan naminə bütövlüyümüzü və tamlığımızı həm sosial anlamda, həm də mənəvi kontekstdə daha da inkişaf etdirmək üçün bütün imkanları səfərbər etməyi nəzərdə tutur.

## DÖVLƏTÇİLİK VƏ MƏRASİM FOLKLORU

İctimai-mədəni həyatımızın elə sahəsi yoxdur ki, orada Heydər Əliyevin qurucu fəaliyyətinin fundamental nəticələri aydın şəkildə görünməsin. Belə sahələrdən biri də ümummilli liderin mərasim mədəniyyəti sahəsindəki quruculuq fəaliyyətidir.

Əlbəttə, mərasim kifayət qədər geniş bir sahədir və onun praktik aspektləri ilə yanaşı nəzəri məsələləri də mövcuddur. Bir çox mərasimlərin çox əski tarixi-mədəni kökləri vardır və zamanla bir sıra dəyişikliklərə məruz qalaraq günümüzə qədər gəlib çatmışdır. Mərasimlərin digər bir hissəsi isə yeni dövrlə bağlıdır. Müstəqil dövlətçilik dövrünün də mərasim mədəniyyəti mövcuddur və bu məqam daha çox qlobal inteqrasiya prosesləri içərisində gerçəkləşməkdədir.

Mərasim etnik-mədəni davranışın mühüm bir tərkib hissəsi olaraq milli mədəniyyətin təməllərindən birini təşkil edir. Çünki mərasim davranışı fərqli bir davranışdır və bu davranışda millət rəsmən özünü mikro dövlətçilik modelində təsdiq etmiş olur. Ona görə də mərasim mədəniyyəti dövlət anlayışı və millət davranışı üçün mühüm əhəmiyyət daşıyır. Çünki dövlət təşkil olunmuş idarəçilik, millət təşkil olunmuş xalqdır; hər ikisində mütəşəkillik mühüm prinsipdir. Mərasim insanları mütəşəkkillik mədəniyyətinə alışdırır və ictimai mədəniyyətin əsaslarını möhkəmləndirir.

Xüsusilə, polietnik və polikonfessional cəmiyyətlərdə mərasim ictimai birliyin, milli həmrəyləyin və sosial harmoniyanın mənəvi əsaslarının möhkəmləndirilməsində aktiv iştirak edir. Çünki sosial davranışın məzmununa mərasim mənəvi dəyər konsepti kimi daxil olur və onu daxildən zənginləşdirir, eyni zamanda tolerantlığın güclənməsini təmin edir. Burada müxtəliflik bütün formaları ilə vahid məcraya gəlir və ümumi bir axara çevrilir. Müxtəlif etnik qruplar, müxtəlif dini görüşlər vahid mərasim mədəniyyəti içində birləşir və eyni davranışın daşıyıcısına çevrilirlər.

İctimai davranış mərasimdən kənarda adiləşir və onu bir bütövə çevirən mənəvi nüvənin cazibəsindən uzaqlaşır. Ona görə də intensiv olaraq cəmiyyətin mərasimdən keçməsi, cəmiyyətdəki müxtəlif qrupları birləşdirən sakral enerji ilə zənginləşməsi vacib sayılır. Burada sakrallaşma arxaik ritualın tam eynisi olmasa da müasir dövrün mərasim mədəniyyəti də mənəvi dəyər konseptlərinin aktivləşdirilməsi ilə birləşdirici və ümumiləşdirici rol oynamaqdadır. Bu baxımdan müasir dövrün mərasimləri də sosiallaşma və ya sosiallaşdırma prosesində aktiv iştirak edir və cəmiyyətdəki müxtəlif qrupları vahid mənəvi dəyərlər ətrafında birləşdirmək üçün mühüm vəzifələri yerinə yetirir.

Mərasimin mədəniyyətdəki yerini, rolunu və dəyərini dərindən bilən ümummilli lider Heydər Əliyev mərasim mədəniyyətinə xüsusi diqqət edirdi. Mərasim mədəniyyətini təşkil edən və onun fasiləsizliyini təmin edən əsas komponentləri və prosesi ümummilli liderin ifadəsilə belə xarakterizə olunur:

"Hər xalqın öz adət-ənənəsi var, öz milli-mənəvi və dini dəyərləri var. Biz öz milli-mənəvi dəyərlərimizlə fəxr edirik. Bizim xalqımız yüz illərlə, min illərlə adət-ənənələrimizi, milli-mənəvi dəyərlərimizi yaradıblar və bunlar indi bizim mənəviyyatımızı təşkil edən amillərdəndir". Burada ənənəvi mədəniyyətin, ənənənin və milli varisliyin rolu diqqətdə saxlanılır.

"Milli mədəniyyətin və milli mənlik şüurunun inkişaf qanunauyğunluqlarından biri mənəvi irsin varisliyidir. Məlum olduğu kimi, mədəniyyət insanların maddi və mənəvi fəaliyyətinin nəticələrində təcəssümünü tapmış sosial təcrübədir. Bu isə, birincisi, o deməkdir ki, burada bu və ya digər xalq, millət təmsil olunur, deməli onların dünya və ətraf mühiti dərk etməsi, xalqın ideya-psixoloji baxışları ehtiva edilir. İkincisi, mənəvi irs təkcə insanların təcrübəsi, bilikləri və fəaliyyətini deyil, həm də xalqın tarixi yaddaşını, onun dərk olunmuş mənafelərini və məqsədlərini əhatə edir. Xalqı vəh-

dətdə birləşdirən bu subyektiv amillər onun milli inkişafının mühüm müqəddəm şərtləridir. Bu mənada Vətən amalından söhbət gedərkən milli mədəniyyət və milli mənlik şüuru, milli təfəkkürün mental xüsusiyyətləri nəzərə alınmalıdır. Bu ideya Heydər Əliyevin fəlsəfəsində mühüm və gərəkli metodoloji təhlil mexanizmi kimi çıxış edir" ( 91, 110).

Milli köklərə bağlılıq milli xüsusiyyətlərin və milli adətlərin qorunması ilə mümkün olur. "İnsan gərək heç vaxt öz milli kökünü, torpağını, vətənini, öz dilini unutmasın. Öz dilini yaddan çıxarmasın. Öz milli-mənəvi ənənələrini unutmasın. Özü də bir var ki, onu unutmuram, mənim xatirimdədir, hafizəmdədir, bəli, bu, mənim millətimin xüsusiyyətidir, millətimin bu adəti var, bir də var ki, onu yaşatsın". Heydər Əliyev üçün əsas məqsədlərdən və milli mənəvi hədəflərdən ən başlıcası həmrəylik məsələsi olmuşdur. Ona görə də o, deyirdi ki, "azərbaycanlılar həmrəy olsunlar, bir-birinə dayaq olsunlar, bir-birinə yardım etsinlər, bir-birinin dərdinə yansınlar və bizim milli adət-ənənələrimizi, milli dəyərlərimizi birlikdə gözləsinlər, milli bayramlarımızı qeyd etsinlər. Təkcə müstəqillik bayramını, Novruz bayramını deyil, bütün başqa bayramları da qeyd etsinlər". Bütün bu mərasim mədəniyyətinin zənginliyi cəmiyyətdə mənəvi sağlamlıq yaradan vasitə kimi diqqətə çatdırılır.

"Mənəvi sağlamlıq çox vacibdir. Bizim xalqımızın milli-mənəvi ənənələri, mədəni, milli dəyərləri həmişə, əsrlər boyu xalqımızı yüksək mənəviyyat ruhunda tərbiyə edib, böyüdüb, yaşadıbdır. Biz fəxr edə bilərik ki, milli, dini, mənəvi ənənələrimiz, dəyərlərimiz daim ən yüksək mənəviyyatı əks etdiribdir. Biz çalışmalıyıq ki, bu mənəvi dəyərlərə həmişə sadiq olaq. Hər bir gənc öz kökünə sadiq olmalıdır, milli kökünə, mənəvi kökünə sadiq olmalıdır. Bizim o kökümüz çox sağlam kökdür və biz onunla fəxr edə bilərik" (93, 40).

N.Cəfərov Heydər Əliyev haqqında yazdığı çoxsaylı əsərlərindən birində yazır: "Heydər Əliyev tamamilə doğru

olaraq göstərir ki, Azərbaycan mədəniyyətinin tarixi özünəməxsus (milli!) əlamətlərlə ümumbəşəri əlamətlərin dialektikasının, qarşılıqlı əlaqəsini nümayiş etdirir. Və Azərbaycan xalqının tipologiyası bizə məlum olan mədəniyyəti göstərir ki, o, içinə qapılmış, özünü dünyadan təcrid etmiş bir xalqın mədəniyyəti deyildir – Azərbaycan mədəniyyəti həmişə dünyaya açıq bir xalqın mədəniyyəti olmuşdur"(91).

Heydər Əliyevin ideoloji konsepsiyası biri-birini tamamlayan sistemlər şəklində idi. Ölkə içində əsas milli ideoloji xətt azərbaycançılıq seçilmişdi. Qeyd edim ki, bu ideologiyanın mükəmməl əsasları vardır. Hələ XX əsrin əvvəllərində Əli bəy Hüseynzadə, Məmməd Əmin Rəsulzadə, Mirzə Bala Məmmədzadə kimi böyük milli ideoloqların əsərlərində və ictimai-siyasi fəaliyyətlərində bu ideologiya mükəmməl şəkildə işlənib hazırlanmışdı. Özündə türkçülüyü, çağdaşlaşmanı və islamı birləşdirən Azərbaycan milli ideologiyası çağdaş demokratik dəyərlərə söykənirdi. Heydər Əliyev Azərbaycan tarixini, onun mədəniyyət və mənəviyyat resurslarını dərindən bilən bir şəxsiyyət idi. Ona görə də mənəvi quruculuq işini mükəmməl təşkil etmək üçün vətəndaş həmrəyliyinə aparan ən qısa yolu – azərbaycançılığı seçdi (90).

"Mədəni toplumun tarixi təsdiqi və milli özünüdərk prosesi, tarixin inkişaf stixiyasında obyektiv zərurət kimi hansı mədəni-tarixi formada ifadə olunması və tarixin gedişatını hansı istiqamətlərdə müəyyənləşdirməsi yaranmış tarixi şəraitdən asılıdır. Müxtəlif zaman və məkanlarda yaranan tarixi şəraitlərdə vahid bir substansiyaya – mənəvi başlanğıca malik xalqlar yaratdıqları mədəniyyətin bətnində yaşayan azadlıq, müstəqillik idealının ən yüksək sosial-siyasi təzahürü olan milli dövlət quruculuğu uğrunda mübarizəyə atılır və baş vermiş ictimai-siyasi hadisələrin axarında xalqın əsrlərdən keçib gələn intellektinin üzə çıxması və misli görünməmiş bəşəri dühaların meydana gəlməsi üçün şərait yaranır" (87, 8). Belə

bir şəraitdə Heydər Əliyev Azərbaycan tarixinin müasir dövrünə daxil olur və onun gedişatını xalqın xeyrinə olan məqsədyönlü bir məcraya yönəltməyə nail olur.

Ümummilli liderin müxtəlif mərasimlərdə, görüşlərdə və başqa tədbirlərdə etdiyi çıxışları, söylədiyi nitqləri, verdiyi fərmanlar və göstərişlər üzərində müşahidələrdən aydın olur ki, bu böyük şəxsiyyətin milli-mənəvi quruculuq siyasəti mükəmməl konseptual əsaslara malikdir; onun strategiyası və taktikası mövcuddur.

Müqəddəs dəyərlərin qorunmasında dini bayramların rolunu dəqiq müəyyənləşdirən Heydər Əliyev Qurban bayramının mənəvi dünyamızdakı yerini aydınlaşdırır: "Ulu babalardan, Həzrəti Məhəmməd peyğəmbərdən qalmış müqəddəs kitabımız Qurani-Kərim tərəfindən tövsiyə olunmuş Qurban bayramını azad və sərbəst şəraitdə qeyd edirik və beləliklə, Azərbaycan xalqının həm müstəqilliyini, həm milli azadlığını, həm də öz tarixi ənənələrinə sadiq olduğunu bütün dünyaya bir daha nümayiş etdiririk" (89,18).

Ulu öndərin mərasim mədəniyyətimizlə bağlı geniş və strateji xarakterli fəaliyyətinin dörd mühüm istiqamətini qeyd etmək olar:

1. **Mərasimlərin bərpası.** Məlumdur ki, bizim müstəqilliyimizi itirdiyimiz dövrdə mərasim mədəniyyətimiz ağır itkilərə məruz qalmışdır. Müstəqil dövlət olmayanda rəsmi təsisatlar və rəsmi mədəni institutlar da olmur. Çünki bu idarə olunan bir mexanizmdir. Adətlər şəklində icra olunan mərasimlər isə öz miqyasına və təntənəsinə görə məhdud çevrəni əhatə edir. Başqa deyilişlə, el bayramları ev bayramları şəklində qeyd olunur. Bunları biz yaxın keçmişimizdə görmüşük. Heydər Əliyevin mərasim mədəniyyətimizə verdiyi töhfələrdən biri milli mərasimlərimizin bərpasıdır. Əlbəttə, bu bərpa məsələsi kifayət qədər mürəkkəbdir və uzun bir prosesi əhatə edir. Amma dövlət

rəhbərinin təqvimi və rəqəmləri rəsmiləşdirməsi bu prosesin başlanması üçün vacib olan yaşıl işığı yandırmış olur.

Heydər Əliyev respublikaya rəhbərlik etdiyi dövrlərdə milli mərasim və bayramlar maneəsiz olaraq keçirilib. 1970-1980-ci illərdə toylar aşıqsız, yaslar mollasız olmayıb. Milli (məsələn, Novruz bayramı) və dini bayyramlar (məsələn, Ramazan, Qurban) dünyəvi bayramlarla (məsələn, Yeni il, 8 Mart qadınlar bayramı, 1 May zəhməkeşlərin həmrəylik günü və s.) eyni mütəşəkkillikdə qeyd olunub. Amma Sovet bayramları (7 Noyabr İnqilab günü, 23 Fevral ordu günü, Konstitusiya günü və s.) xüsusi olaraq rəsmi səviyyədə geniş təşkil olunmurdu və bir növ simvolik xarakter daşıyırdı. Moskvaya həmin günün Azərbaycanda da qeyd olunduğu haqqında məlumat göndərmək üçün bu da kifayət edirdi.

**2. Mərasim yaradıcılığı.** Heydər Əliyev mərasim mədəniyyətinin bərpası ilə yanaşı bu mədəniyyəti daha da inkişaf etdirmiş, onu yeni-yeni mərasim formaları ilə zənginləşdirmişdir. Sovet dönəmində tarla düşərgələrində keçirilən "Məhsul bayramları" insanları yeni-yeni əmək qələbələrinə ruhlandırırdı. Belə mərasimlər yüksək təntənə ilə qeyd olunduğundan insanların həyatına nikbin ovqat gətirir və onların ruhi-mənəvi durumuna pozitiv təsir göstərmiş olurdu.

Heydər Əliyevin xüsusi diqqət verdiyi sahələrdən biri peşə bayramları idi. O istəyirdi ki, hər bir peşə zümrəsinin öz bayramı olsun və onlar bu günü həmrəylik nümayiş etdirərək birgə keçirsinlər. Belə bayramların artıq bir hissəsi (məsələn, müəllim günü, həkim günü və s.) cəmiyyətdə oturuşub və müntəzəm xarakter alıb.

**3. Mərasimlərin təşkili.** Heydər Əliyev həm Respublika rəhbəri kimi, həm də dövlət başçısı kimi mərasimləri yüksək səviyyədə təşkil edirdi. Ümumxalq bayramları və peşə bayramlarının əksəriyyətində Heydər Əliyev şəxsən iştirak edirdi və bununla da bayramın təşkilini daha mütəşəkkil və

möhtəşəm olmasını təmin etmiş olurdu. Çünki dövlət başçısının bayram mərasimində iştirakı onun ən yüksək səviyyədə hazırlanması üçün kifayət edirdi.

Ümummilli lider Heydər Əliyev bədnam qonşuların işğalı nəticəsində yurd-yuvasını itirmiş qaçqın və didərgin vətəndaşlarımızın yaşadığı çadır şəhərciklərində keçirilən toy mərasimlərində iştirak edirdi. Və bu iştirakı ilə həmin insanlara sonsuz sevinc bəxş edirdi. Onun diqqətindən heç nə yayınmır, heç kim unudulmurdu. Ayrı-ayrı el sənətkarlarını birbaşa qəbul edir, onların ad günlərini təbrik edir, xidməti olanları müntəzəm olaraq orden və medallarla təltif edirdi. Belə həssas diqqəti və qayğını görən hər kəs indi onun haqqında həyəcansız danışa bilmir.

**4. Mərasim davranışı.** Heydər Əliyevin mərasim mədəniyyətinin inkişafındakı misilsiz xidmətlərindən biri də onun göstərdiyi şəxsi davranış nümunəsidir. Onun mərasim hərəkətləri, yerişi, duruşu, mimikası, jestləri, çıxışı, nitqi, söylədiyi hər kəlmə nümunəvidir, böyük və zəngin bir məktəbdir. Bu bizim mərasim mədəniyyəti tariximizdə ən parlaq səhifəni təşkil edir. Müstəqil dövlətçilik mədəniyyətinin mərasimi əsaslarının formalaşmasında Heydər Əliyevin misilsiz xidmətləri vardır. Rəsmi dövlət mərasimlərinin təşkili ilə yanaşı bu mərasimdə iştirakın ən mükəmməl rəsmi nümunəsini göstərən Heydər Əliyev əslində yeni dövr dövlət mərasim mədəniyyətimizin əsaslarını müəyyənləşdirdi.

Ümummilli liderin müxtəlif mərasimlərdə, görüşlərdə və başqa tədbirlərdə etdiyi çıxışları, söylədiyi nitqləri, verdiyi fərmanlar və göstərişlər üzərində müşahidələrdən aydın olur ki, bu böyük şəxsiyyətin milli-mənəvi quruculuq siyasəti mükəmməl konseptual əsaslara malikdir; onun strategiyası və taktikası mövcuddur. Onun milli-mənəvi quruculuq siyasəti azərbaycançılıq ideologiyasına əsaslanır. Azərbaycan vətəndir və bizi birləşdirən müqəddəs dəyərdir. Heydər Əliyev milli ideologiyamızın təməl pinsiplərinə milli-mənəvi dəyərlərimizi, o sıradan

adət və ənənələrimizi də aid edirdi. Milli adətlərə, mərasimlərə və dini bayramlara da çox diqqətlə yanaşan Ulu Öndər Qurban bayramı haqqındakı mülahizələrini belə aydınlaşdırırdı:

"Qurban bayramı İslam aləminin bizə yadigar qoyduğu müqəddəs bayramdır. Bu bayramı dünyada bütün müsəlmanlar qeyd edirlər. İndi biz milli ənənələrimizi, adətlərimizi, dinimizi, mədəniyyətimizi bərpa etmişik. Azərbaycan xalqı milli azadlığa nail olub, özü öz taleyinin sahibidir. Ulu babalardan, Həzrəti Məhəmməd Peyğəmbərdən qalmış müqəddəs kitabımız Qurani-Kərim tərəfindən tövsiyə olunmuş Qurban bayramını azad və sərbəst şəraitdə qeyd edirik və beləliklə, Azərbaycan xalqının həm müstəqilliyini, həm milli azadlığını, həm də öz tarixi ənənələrinə sadiq olduğunu bütün dünyaya bir daha nümayiş etdiririk". Bu nümunədə Heydər Əliyevin mili-mənəvi dəyərlərimizə, adət və ənənələrimizə, bayramlarımıza və bütün mərasimlərimizə verdiyi önəm aydın şəkildə ifadə olunmuşdur. Burada bizim mərasim mədəniyyətinin perspektivləri üçün zəruri müddəalar da öz əksini tapmışdır. Bu sahədəki mədəniyyətimizin strateji inkişaf istiqamətləri həmin müddəaların fəlsəfi əsaslarını müəyyənləşdirən yuxarıdakı fikirlərdə ifadə olunmuşdur. Çünki bu nümunələrdə məsələyə Heydər Əliyev baxışı, Ulu Öndər yanaşması vardır və bu bizim milli-mənəvi inkişaf konsepsiyamızın strategeji əsaslarını təşkil edir.

Ulu öndər Heydər Əliyevin Azərbaycan mərasim mədəniyyəti tarixindəki xidmətləri misilsizdir. Onun bərpa etdiyi, inkişaf etdirdiyi, təşkil etdiyi və yaratdığı mərasimlər xalqımızın həyatında ənənə şəklində yaşamaqdadır. Heydər Əliyev siyasi kursunun davamçısı möhtərəm prezidentimiz İlham Əliyev ulu öndərin bu istiqamətdəki quruculuq fəaliyyətini davam və inkişaf etdirməkdədir. Milli bayram mərasimlərinin təşkili, təntənənin miqyasının və bayram tətillərinin genişləndirilməsi bu sahədə aparılan mədəni quruculuq işinin uğurlu davamı kimi böyük mədəni və mənəvi dəyər daşımaqdadır.

# NƏTİCƏ

Xalqımız milli müstəqil, hüquqi, demokratik dövlət quruculuğu prosesini yaşayır. Dövlətimizin və dövlətçiliyimizin möhkəmləndirilməsi üçün milli dövlətçilik ənənəmizin tarixinə və onun folklorda gerçəkləşən mənəvi məsələlərinin təsvirinə və təhlilinə də diqqət artırılmalıdır. Bizim araşdırmaya cəlb etdiyimiz qaynaqların hər biri məhz bu problem üzrə müstəqil bir tədqiqatın mövzusu ola bilər və olmalıdır. Gələcək tədqiqatlarda bu problemlərin daha geniş araşdırmalara cəlb edilməsi də nəzərdən qaçırılmamalıdır.

Tarixdən türklərin qurduğu böyük Hun imperatorluğu, Xəzər xaqanlığı, Göytürk imperatorluğu, Oğuz-Səlcuq imperatorluğu, Osmanlı imperatorluğu, Qaraxanlı dövləti, Bulqar dövləti, Uyğur dövləti və b. məlumdur. Türk xalqlarından biri kimi, biz bu dövlətlərin, onların yaratdığı zəngin dövlətçilik mədəniyyətinin varisləriyik. Bununla yanaşı Şirvanşahlar dövləti, Ağqoyunlu dövləti, Qaraqoyunlu dövləti, Səfəvi dövləti kimi Azərbaycan dövlətləri mövcud olub. Bunların hər birinin milli dövlətçilik tariximizdə xüsusi xidmətləri olub.

Dövlətçilik tarixi-ictimai mədəniyyətin ən yüksək formasıdır. Bu mədəniyyətə sahib olmayan xalqlar milli varlıqlarını qoruya bilməmişlər. Bu mədəniyyətin və ənənənin qorunmasını isə folklor, yaddaş, xalqın mənəvi bütövlüyünü təşkil edən ehtiyatlar təmin edir. Bu mənada folklor və dövlətçilik bir-birinə sıx surətdə bağlı, üzvi vəhdət təşkil edən məsələlərdir. Əgər məsələyə geniş prizmadan baxılsa dövlətçilik də xalq yaradıcılığının bir forması götürülə bilər. Cəmiyyət dünyəvi qanunlara zaman-zaman uyğunlaşır, amma milli əxlaqa, milli ənənəyə və milli davranışa zidd olmayan qanunlar ictimai münasibətlərdə dərhal öz təsdiqini tapır. Cəmiyyət həmişə sosial rifah və ədalətli idarəçilik haqqında düşünmüşdür. Xalqın düşüncə və arzuları ədalətli hökmdar ideyasını

doğurmuşdur. Hər şeyi rəhbərindən gözləyən xalq bir çox hallarda onu müqəddəsləşdirmiş və mütləqləşdirmişdir. Bu düşüncələr də folklorda ifadə olunmuş, xalq içində də, saraylarda da dövlətçiliyin mənəvi məlumat dəstəyi, onu kamilləşdirən əsas faktor kimi çıxış etmişdir.

# QAYNAQLAR

1. İsmayılov İ. Azərbaycanda dövlətçilik fikri oçerkləri.B., Maarif, 1996,148 s.

2. Sümər F. Oğuzlar. B., Yazıçı,1992, 432 s.

3. Rəcəbov Ə. Məmmədov Y. Orxon-Yenisey abidələri. B., Yazıçı, 1993, 400 s.

4. Bayat F. Oğuz epik ənənəsi və "Oğuz Kağan" dastanı. B., Sabah, 1993,194 s.

5. Xəlil A. Mahmud Kaşqarlının "Türk dillərinin divanı kitabı"nda ədəbi mətnlər. B., Səda, 2001, 181 s.

6. Qarayev Y. Türkün təməl və əməl kitabı/ Xəlil A. Mahmud Kaşqarlının "Türk dillərinin divanı kitabı"nda ədəbi mətnlər. B., Səda, 2001, s.3-8.

7. Äèâàíè ëƒ‹�ò-èò-òƒðê (чevirən B. Atalay), Àíêàðà, 1992.

8. Xəlil A. Mahmud Kaşqarlının "Divani lüğət-it türk kitabı"nda paremioloji vahidlərin struktur-semantik təhlili. Namizədlik dissertasiyası.Bakı, 2000.

9. Xəlil A. Мащмуд Кашгарлы: шяхсиййяти вя ирси. «Интернет вя Интеллект» журналы, №1, Бакы, Сяда, 2001,

10. Xəlil A. Паремиоложи мятнин структуруна даир («Дивани лцьяти тцрк»дя паремиоложи мятнляр цзря) Структур-семиотик арашдырмалар, №2, Бакы, Сяда, 2002.

11. Xəlil A. Мащмуд Кашгарлынын елми фяалиййятиндя фолклоршцнаслыьын йери. «Дядя Горгуд» журналы, №4, Бакы, Сяда, 2002.

12. Xəlil A. Мащмуд Кашгарлынын фолклоршцнаслыг фяалиййяти. Азярбайъан шифащи халг ядябиййатына даир тядгигляр, №11, Бакы, Сяда, 2002.

13. Xəlil A. ДЛТ-дя паремиоложи мятнлярин тядгигиня даир. Азярбайъан шифащи халг ядябиййатына даир тядгигляр, №13, Бакы, Сяда, 2002.

14. Xəlil A. ДЛТ-дя паремиоложи ващидлярин семиотик-структуруна даир. Азярбайъан шифащи халг ядябиййатына даир тядгигляр, №14, Бакы, Сяда, 2003.

15. Xəlil A. «Дивани лцьят ит-тцрк»дя тцркчцлцк идейасы. "Ортаг Тцрк Кечмишиндян Ортаг Тцрк Эяляъяйиня" II Улуслararасы фолклор конфрансынын материаллары, Бакы, 2004.

16. Xəlil A. "Дивани лцьят ит-тцрк"цн паремиоложи фонду вя тяркиб елементляри. Азярбайъан шифащи халг ядябиййатына даир тядгигляр, №16, Бакы, Сяда, 2005.

17. Cahangir Ə. Qədim türk ədəbiyyatının linqivistik poetikası. B., Elm, 2001, 166 s.

18. Hüseynoğlu K. Azərbaycan şeir mədəniyyəti. B., Ozan, 1996, 88 s.

19. Səfərli Ə. Yusifov X. Qədim və orta əsrlər Azərbaycan ədəbiyyatı. B.,Maarif, 1982, 387 s.

20. Həbiboğlu V. Türk dünyasının qüdrətli hökmdarları, xaqanları, sərkərdələri. B., Örnək, 1995, 324 s.

21. Hacib Has Йусиф . Кутадгу Билиэ. Анкара, 1959, с. 31.

22. Balasaqunlu Yusif. Qutadqu bilik-xoşbəxtliyə aparan elm. B., Azərnəşr, 1994, 492 s.

23. Hüseynoğlu K. Qədim Turan: mifdən tarixə doğru/ Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər (on yeddinci kitab), B., Səda, 2005, s. 21-69.

24. Bayat F. Türk dini-mifoloji sistemində tanrı (semantik funksiyası və etimologiyası) / Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər (on yeddinci kitab), B., Səda, 2005, s.70-106.

25. Cəfərov N. Епосдан китаба. Б., 1999. с.

26. İsmayılov H. Göyçə aşıq mühiti: təşəkkülü və inkişaf yolları. B., Elm, 2002, 404 s,

27. Gəncəvi Nizami. İsgəndərnamə (Şərəfnamə) (tərcümə edəni Abdulla Şaiq). B., Azərbaycan SSR Elmlər Akademiyası nəşriyyatı, 1964, 427 s.

28. Nizamülmülk Əbu Əli Həsən ibn Əli Xacə. Siyasətnamə (farscadan tərcümə, əsər və müəllif haqqında qeydlər R. Sultanovundur). B., Elm, 1989, 212 s.

29. Məmmədzadə H. Bir neçə söz / Nizamülmülk Əbu Əli Həsən ibn Əli Xacə. Siyasətnamə (farscadan tərcümə, əsər və müəllif haqqında qeydlər R. Sultanovundur). B., Elm, 1989, s.26- 28.

30. Sultanov R. Nizamülmülkün həyat və fəaliyyəti haqqında /. Nizamülmülk Əbu Əli Həsən ibn Əli Xacə. Siyasətnamə (farscadan tərcümə, əsər və müəllif haqqında qeydlər R. Sultanovundur). B., Elm, 1989, s. 3-25.

31. Kərimli T. Nizami və tarix. B., Elm, 2002, 244 s.

32. Rzasoy S. Nizami poeziyası: mif və tarix konteksti. B., Ağrıdağ, 2003, 212 s.

33. Qarayev Y. Tarix: yaxından və uzaqdan. B., Sabah, 1995, 712 s.

34. Azərbaycan tarixi. B., 1994.

35. İsmayılov H. Tarixdə və folklorda Diyarbəkir. I Uluslararası Oğuzlardan Osmanlılara Diyarbəkir Sempozyumu. Diyarbəkir, 2004, s. 799-802.

36.Tusi Xacə Nəsirəddin. Əxlaqi-nasiri. (Azərbaycan dilinə tərcümə, müqəddimə və şərhi R. Sultanovundur) B., Elm, 1989, 256 s.

37. Sultanov R. Nəsirəddin Tusi və onun “Əxlaqi-nasiri” əsəri/. Tusi Xacə Nəsirəddin. Əxlaqi-nasiri. (Azərbaycan dilinə tərcümə, müqəddimə və şərhi R. Sultanovundur) B., Elm, 1989, s. 3- 31.

38. Fərzəliyev T. “Nəsrəddin” adı ilə bağlı lətifələrin nəşri və tədqiqi/ Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər. İkinci kitab, B., AEA nəşriyyatı, 1966, s.77-123.

39. Sultanov M. Molla Nəsrəddinin prototipi kimdir? / “Azərbaycan” jurnalı, sayı 10, 1961, s.217-220.

40. Anekdotı Mollı Nasreddina. İzdatelstvo AN Azerb. SSR, B., 1958,

41. Fərzəliyev T. Şərq xalqları folklorunun komik qəhrəmanları/ Şərq xalqlarının lətifələri. B., Yazıçı,1982, s.3-6.
42. Şərq xalqlarının lətifələri. B., Yazıçı,1982, 199 s.
43. Osmanlı İ. Ön söz / Rəşidəddin. Oğuznamə. B., Azərbaycan Milli Ensiklopediyası, 2003, s.5-11.
44. Rəşidəddin. Oğuznamə. B., Azərbaycan Milli Ensiklopediyası, 2003, 108 s.
45. Koroğlu X. Oğuz qəhrəmanlıq eposu. B., Yurd, 1999, 243 s.
46. Abdulla B. Salur Qazan (tarix, yoxsa mif...). B., Ozan, 2005, 224 s.
47. Ərcilasun Ə. Salur Qazan kimdir? / Dədə Qorqud, toplu, 2003, sayı 2.
48. Ögəl B. Türk mitolojisi. Ankara, 1989.
49. Şerbak A. M. Oquz-name. Muxabbet-name. Pamyatniki drevnouyqurskoy starouzbekskoy pismennosti. M., 1959.
50. Ögəl B. Böyük hun imperiyası. I kitab, B., Gənclik, 1992.
51. Kononov A.N. Rodoslavnaya turkmen. Soçinenie Abul Qazi Xivinskoqo. M.-L., 1958.
52. Hacıyev T. Dədə Qorqud: dilimiz, düşüncəmiz. B., Elm, 1999, 216 s.
53. Kəngərli A. Azərbaycan romantiklərinin yaradıcılığında türkçülük. B., Elm, 2002, 332 s.
54. Tehrani Əbubəkr. Kitabi-Diyarbəkriyyə. (Fars dilindən tərcümə edən, ön söz və şərhlərin müəllifi Rahilə Şükürova). B., Elm, 1998, 336 s.
55. Şükürova R. Əbubəkr Tehrani və onun Kitabi-Diyarbəkriyyə əsəri/ Tehrani Əbubəkr. Kitabi-Diyarbəkriyyə. (Fars dilindən tərcümə edən, ön söz və şərhlərin müəllifi Rahilə Şükürova). B., Elm, 1998, s.3-31.
56. Oğuznamələr. İşləyib çapa hazırlayanlar: K. V. Nərimanoğlu və F. Uğurlu. B., 1993
57. Raşid-ad – Din F. Djami at-Tavarix. B.,1957.

58. Rəşidəddin F. Oğuznamə.Fars dilindən tərcümə, ön söz və şərhlərin müəllifi R. M. Şükürovanındır. B., 1992.
59. Əfəndiyev O. Azərbaycan Səfəvilər dövləti. B., Azərnəşr, 1993, 301 s.
60. Attar A. Şah İsmayılın kültür mirası/ Birinci Uluslararası Şah İsmayıl Xətai simpoziumunun materalları. Ankara, 2004, s.1-11.
61. Rzasoy S. Xətai şeirinin folklor qaynaqları / Birinci Uluslararası Şah İsmayıl Xətai simpoziumunun materalları. Ankara, 2004, s.260-263.
62. Xəlil A. Xətai şeirinin arxetipləri/ Birinci Uluslararası Şah İsmayıl Xətai simpoziumunun materalları. Ankara, 2004, s.147-150.
63. Hüseynova N. Şah İsmayıl Xətai yaradıcılığında xalq ədəbiyyatı növlərindəki şeirlərin sənət özəllikləri/. Birinci Uluslararası Şah İsmayıl Xətai simpoziumunun materalları. Ankara, 2004, s.155-161.
64. Qızılbaşlar tarixi (Tarixi Qızılbaşan). Fars dilindən tərcümə və şərhlər M. Ə. Məhəmmədinindir. B., 1993.
65. Kitabi Dədə Qorqud (nəşrə hazırlayanlar F.Zeynalov, S.Əlizadə). B., 1988.
66. Nəbiyev B. Əxlaqi və estetik məziyyətlər xəzinəsi/ Kitabi Dədə Qorqud (Məqalələr toplusu). B., Elm, 1999, s. 5-15.
67. Cəfərov N. "Kitabi-Dədə Qorqud" və türk epik təfəkkürü: qaynaqlar və köklər/ Kitabi Dədə Qorqud (Məqalələr toplusu). B., Elm, 1999, s. 16-20.
68. Nəbiyev A. "Kitabi – Dədə Qorqud" həqiqətlərinin izi ilə/ Kitabi Dədə Qorqud (Məqalələr toplusu). B., Elm, 1999, s. 67-74.
69. Kazımoğlu M. Folklorda obrazın ikiləşməsi. Bakı, 2011.
70. İslamzadə A. Qazan xan epik düşüncə və tarixi gerçəklikdə (Məlum oğuznamələr əsasında mülahizələr) / Dədə Qorqud jurnalı, 2005, sayı 2, s. 20- 27.

71. Rzasoy S. Oğuz mifinin paradiqmaları, B., Nurlan, 2004.

72. Məmmədov S. XIII əsrdə Azərbaycanda türk adət hüququnun bəzi hərbi-hüquqi müddəaları haqqında/ Dədə Qorqud jurnalı, 2005, sayı 2, s. 78-84.

73. Kərimov M. Müasir dünya və ortaq türk dəyərləri/ Dədə Qorqud jurnalı, 2004,

74. Məmmədov S. Qədim hunlarda dövlət və hüquq/ Tarix və onun problemləri, B., 2004, sayı 2.

75. Özdək R. Türkün qızıl kitabı (üç cilddə). B., Yazıçı, 1996, 1997, 1998.

76. Biçurin N. Sobranie svedeniy o narodax, obitavşix v Sredney Azii v drevnie vremena. t. I, M., -L., 1950.

77. Bartold V. V. Rabotı po istorii i filoloqii tyrkskix i monqolskix narodov. t. V, M., Nauka, 1968.

78. Əsgər Ə. Qıpçaq M. Türk savaş sənəti. B., Yazıçı, 1996.

79. Vernadski G. V. Çingiz xanın Ulu yasasının quruluşu haqqında (tərcüməçi və ön sözün müəllifi Əsgər Ə.) B., Ağrıdağ, 2001.

80. Kitabi-Dədə Qorqud Ensiklopediyası. I-II kitab, B., Yeni Nəşrlər Evi, 2000.

81. Alptekin C. Selcuklarda insani değerler ve hükuk. Tarih boyunca türklerde insani değerler ve insan hakları. Başlanğıçtan Osmanlı dönemine kadar. I kitap, İstanbul, Türk kültürüne hizmet vakfı, 1992.

82. К‰прцлц F. Тцрк едебиjjатында илк мцтасаввифлар. Диjанет ишлери башканлы‹ы jajынлары. Анкара, 1991, с. 20-21.

83. †аферо‹ly А.. АзЃрбаj‡ан едебиjаты. s. 140-217, Тцрк дцнjасы едебиjаты I, Тцрк дцнjасы араштырмалары вакфы, 1991, с. 140.

84. Əliyev H. Xalqların dostluğu – ədəbiyyatların dostluğudur (Yazıçıların Ümumittifaq yaradıcılıq konfransında məruzə) / “Kommunist” qəz., 29 oktyabr,1980.
85. Əliyev H. Tarixi köklərimiz bir dilə, bir mənəviyyata, bir dinə bağlı olduğuna görə çox dərindir // H.Əliyev. Ədəbiyyatın yüksək borcu və amalı. B.,Ozan, 1999, s.337-345.
86. Mehdiyev A. Heydər Əliyev Azərbaycan alimlərinin ilhamvericisidir // Milli Elmlər Akademiyası bizim milli sərvətimizdir – onu qoruyub saxlamalıyıq. “Elm” qəzetinin xüsusi buraxılışı, 2003, s.53-59.
87. Kərimov M. Heydər Əliyev fenomeni // Milli Elmlər Akademiyası bizim milli sərvətimizdir – onu qoruyub saxlamalıyıq. “Elm” qəzetinin xüsusi buraxılışı, 2003, s.8-46.
88. Əliyev Q. Heydər Əliyev və milli mentalitet fəlsəfəsi. B., Qismət, 2003, 248 s.
89. Əliyev R. Heydər Əliyev, din və mənəvi dəyərlər. B., İrşad, 1998, 76 s.
90. Cəfərli M. Heydər Əliyev: xalqın güvənc yeri və milli iftixarı // Heydər Əliyev və milli-mənəvi dəyərlərimiz. B., Səda, 2003, s.20-24.
91. Cəfərov N.Azərbaycanşünaslığa giriş. B., AzAtaM, 2002, 600 s.
92. Hacıyev T. “DQK- 1300” – tarixi dövlət tədbiri // Heydər Əliyev və milli- mənəvi dəyərlərimiz. B., Səda, 2003, s.8-11.
93. Qafarlı R. Heydər Əliyev və qədim türk mifoloji-folklor irsi // Heydər Əliyev və milli mənəvi dəyərlərimiz. B., Səda, 2003, s.52-70.
94. Əkbərov R. Heydər Əliyev və Nizami Gəncəvi irsi// Heydər Əliyev və milli-mənəvi dəyərlərimiz. B., Səda, 2003, s.12-19.
95. Quliyev E. H. Əliyev və Cənubi Azərbaycan milli-mənəvi dəyərləri // Heydər Əliyev və milli-mənəvi dəyərlərimiz. B., Səda, 2003, s.40-51.

96. Xavəri S. Azərbaycan Milli Elmlər Akademiyasının Folklor İnstitutu. "Elm" qəzeti, 25 may 2005-ci il, sayı 13-14 (738-739).

# BAŞLIQLAR

Orta çağ türk yazılı abidələrində folklor və dövlətçilik...... 3
Orxon-Yenisey abidələrində dövlətçilik............................ 7
"Divani lüğət-it türk"də dövlətçilik.................................. 12
"Kutadqu bilik"də dövlətçilik........................................... 27
"Siyasətnamə"də dövlətçilik............................................ 31
"Xəmsə"də dövlətçilik...................................................... 35
"Əxlaqi-nasiri"də dövlətçilik........................................... 40
"Oğuznamə"lərdə dövlətçilk ........................................... 44
"Kitabi-Diyarbəkriyyə"də dövlətçilik ............................... 50
Xətai və dövlətçilik......................................................... 54
Azərbaycanlılıq və azərbaycançılıq.................................. 59
Dövlətçilik və mərasim folkloru....................................... 66
**Nəticə.............................................................................. 74**
**Qaynaqlar....................................................................... 76**

**Ağaverdi Xəlil.**
**Folklor və dövlətçilik.**
Bakı, Elm və təhsil, 2014.

Nəşriyyat direktoru:
**Prof. Nadir Məmmədli**

Kompyuterdə yığdı:
**Ruhəngiz Əlihüseynova**

Korrektoru:
**Vüsal Abıyev**

Kompyuter tərtibçisi və
texniki redaktoru:
**Aygün Balayeva**

Kağız formatı: 60/84 16/1
Mətbəə kağızı: №1
Həcmi: 84 səh.
Tirajı: 300

Kitab AMEA Folklor İnstitutunun
Redaksiya-nəşr bölməsinin Kompyuter
Mərkəzində yığılıb səhifələnmiş, «Elm və təhsil»
NPM-də hazır depozitivlərdən ofset üsulu ilə
çar olunmuşdur.



**AĞAVERDİ SƏRXAN OĞLU XƏLİL** – filologiya üzrə fəlsəfə doktoru, dosent.

1962-ci il avqustun 30-da Kürdəmir rayonunun Həmzəli kəndində anadan olmuşdur. 1979-cu ildə Bakıda orta məktəbi, 1986-cı ildə Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsini bitirmişdir.

"Mahmud Kaşqarlının "Türk dillərinin divanı kitabı"nda paremioloji vahidlərin struktur-semantik təhlili" mövzusunda namizədlik dissertasiyası müdafiə etmiş, "Oğuz eposunda ritual və janrın struktur tipologiyası" mövzusunda doktorluq dissertasiyası yazmışdır.

2001-2002-ci illərdə AMEA Nizami adına Ədəbiyyat İnstitutunda "İntellekt-nəzəri eksperimental laboratoriyası"nın, 2003-2006-cı illərdə AMEA Folklor İnstitutunda "Folklor laboratoriyası"nın, 2007-2011-ci illərdə "Folklor nəzəriyyəsi" şöbəsinin müdiri olmuşdur. 2012-ci ildən "Mərasim folkloru" şöbəsinə rəhbərlik edir.

"Mahmud Kaşqarlının "Türk dillərinin divanı kitabı"nda ədəbi mətnlər" (2001), "Əski türk savlarının semiotikası" (2006), "Folklor terminləri" (2010), "Türk xalqlarının yaz bayramları və Novruz" (2012) kitablarının, bir sıra tərcümə, toplama və tərtib işlərinin, dərs proqramlarının, 100-dən çox elmi məqalənin müəllifidir. Əksəriyyəti xarici ölkələrdə olmaqla, 80-dən çox Beynəlxalq elmi konfrnsda türk xalqlarının dili, folkloru və ədəbiyyatının müxtəlif problemlərinə həsr

olunmuş məruzələr etmişdir. Əsərləri Azərbaycan və bir sıra türk dilləri ilə yanaşı, rus, fars və ingilis dillərində nəşr olunmuşdur. “İnternet-İntellekt” toplusunu (2001) və “Struktur-semiotik araşdırmalar” (2002) dərgisini nəşrə hazırlamışdır. Türkiyədə çıxan “Motif Akademi” folklor jurnalının Azərbaycan üzrə təmsilçisi və Azərbaycana həsr olunmuş xüsusi saylarının (2011/1;2) redaktorudur. “Azərbaycanın Qarabağ bölgəsinin folklor nümunələrinin toplanması, sistemləşdirilməsi və dəyərləndirilməsi layihəsi”nin müəllifi və koordinatoru olmuşdur (2012-2013).

Kazan Dövlət Universitetinin (1986) və Azərbaycan Milli Elmlər Akademiyasının (2012) Fəxri fərmanları ilə təltif olunmuşdur.